
بسم الله الرحمن الرحيم
In the name of God, Most
Gracious, Most Merciful

**İslam Araşdırmaları Elmi-Tədqiqat Jurnalı**
**İslam Araşdırmaları İnstitutu Azərbaycan Tələbələrinin Elmi Birliyi**

# İslamAraşdırmaları

Birinci il, birinci buraxılış, payız-qış/2022
İslam Araşdırmaları İnstitutu, Azərbaycan bölümü

**İmtiyaz sahibi**: Əl-Mustafa Beynəlxalq Universiteti

Əl-Mustafa Virtual Universiteti İslam Araşdırmaları İnstitutu
və Əl-Mustafa Virtual Universiteti Elmi-Tədqiqat Departamentliyinin birgə əməkdaşlığı ilə

**Məsul müdir**: Höccətülislam Dr. Səid Ərcuməndfər

**Baş redaktor**: PhD. Tofiq Əsədov

**Elmi redaktor**: PhD. Əfzələddin Rəhimov

**Texniki redaktor**: PhD. Elman Ağamoğlamov
**Ünvan**: Qum, Cənubi Sahil küçəsi, Mosalladan öncə, 6-cı və 4-cü küçələr arasında
**Poçt qutusu**: 3713913554

**Telefon və faks**: 32114185 - 32613875

**Nömrələr**: elektron çap

**Səhifələrin sayı**:194

**Veb**:www.mou.ir

**E-poçt**: tofiq.asadov@inbox.ru

Redaksiya heyəti


| | |
|---|---|
| PhD. Tofiq Əsədov | Əl-Mustafa Beynəlxalq Virtual Universiteti İslam Araşdırmaları İnstitutunun Sədri, Əl-Mustafa Beynəlxalq Universiteti Elmi Heyətinin Əsas Üzvü |
| PhD. Əfzəlləddin Rəhimov | Əl-Mustafa Beynəlxalq Virtual Universiteti İslam Araşdırmaları İnstitutunun Azərbaycan bölməsinin Kafedra Müdiri |
| PhD. Elman Ağamoğlanov | Əl-Mustafa Beynəlxalq Virtual Universitetində müəllim |
| PhD. Firuz Niftiyev | Əl-Mustafa Beynəlxalq Virtual Universitetində müəllim |
| PhD. Elman Rəsulov | Əl-Mustafa Beynəlxalq Virtual Universitetində müəllim |
| PhD. Azər Quliyev | Əl-Mustafa Beynəlxalq Virtual Universitetində müəllim |
| PhD. Cəbrayıl Abiyev | Əl-Mustafa Beynəlxalq Virtual Universitetində müəllim |



***Lisenziya əsasında:***

***Əl-Mustafa Beynəlxalq Universitetinin Elmi-Tədqiqat Departamentliyi***

***Elmi-Tədqiqatların Təşkili və Dəstək Baş İdarəsi***

***(Tarix: 16/01/2022)***

***Bu jurnal elmi-tədqiqat jurnalı səviyyəsindədir***

***(Xüsusi olaraq tələbələrin elmi birlikləri üçün müəyyən edildi.)***

**Məqalə və təqdim şəkli:**

1.Məqalə aşağıdakı bölümlərə malik olmalıdır:
Ünvan, xülasə, açar kəlmələr, müqəddimə yaxud mövzuya giriş, məqalənin əsas mətni, nəticə, istifadə olunmu mənbələr.
2. Məqalələr əvvəllər çap olunmamış olmalı və müəllif məqaləni başqa nəşriyyəyə verməyə öhdədar olmamalıdır.
3.Elmi və hüquqi cəhətdən məqalənin doğruluğu üçün , müəllif məsuliyət daşıyır.
4.Məqalələrin qəbul edilib-edilməməsi jurnalın öhdəsindədir.
5.Elmi dəyərləndirmədən sonra məqalənin jurnalda çal olunması üçün son təsdiq, təhrir heyətini öhdəsindədir.
6.Məqalənin həcmi ən az 7 səhifə və ən çox 30 səhifə, hər səhifədə 250 kəlmə olmalıdır.
7.Jurnalın məqalələrindən istifadə, jurnala istinad verilmək şərtilə manesizdir.
8. Azərbaycan dilindəki məqalələr font 13 və Times New Roman xəttilə yazılmalıdır.
9.İstifadə olunmuş mənbələr əlifba sıraası ilə və aşağıdakı şəkildə olmalıdır:
İstifadə edilmiş kitab: Müəllifin familyası, adı, nəşr ili, kitabın ünvanı (bold şəklində), tərcüməçinin və yaxud düzəliş edən şəxsin adı, çap növbəsi, məkan, nəşriyyat.
10. İstifdə edilmiş məqalə: Müəllifin familyası, adı, nəşr ili, məqalnin ünvanı, tərcüməçinin adı, nəşriyyat (bold şəklində), çap dövrəsi, çap nömrəsi, məqalənin səhifələrinin sayı, nəşr ili.
11.Mətndə istiadə edilmiş mənbələrin haşiyədə qeyd olunma tərzi: Müəllifin adı, nəşr ili, səhifə.
Bununla birgə, ad, familya, elmi rütbə, ünvan, tel. nömrəsi və elektron-poçtunuzu (email) göndərin.

## Mündəricat

Baş redaktordan……………………..…………..……………….........……..........…8

Qloballaşma və müsəlmanların qarşılaşdığı əxlaqi problemlə.........................…9
Nurlan Əzimov

Səqəleyn hədisinin şiə və əhli-sünnə mənbələrindəki qarşılıqlı araşdırılmas.... 27
Məhəmməd Əlili‹ Sevda Rüstəmova

Quranda uşaq hüququ........................................................................................45
Nigar Məmmədova

İslamda ailə..........................................................................................................67
Ağamoğlan Cəfərov

Fitrətin insanın fərdi və ictimai həyatındakı rolu (Mürtəza Mütəhhərinin baxışında)............................................................................................................87
Anar İmanzadə

Qurani-Kərimdə peyğəmbərə (s) və Əhli-beytə (ə) təqlid (Əllamə Təba-təbainin əl-Mizan təfsirinə istinadla.....................................................................105
Akif Rəhimov

Qadınların ictimai mövqeyi quranda...............................................................127
Aynur Əzimova

Ailənin səmərəliliyində əxlaqi fəzilətlərin rolu................................................145
Fariz Babayev

İslam psixologiyası............................................................................................167
Faiq Sultanov

## Baş redaktordan

Mütərəqqi ölkələrin inkişafında əsas səbəblərdən biri də, insanları təhsilə həvəsləndirməklə yanaşı, onları elmin müxtəlif sahələrində araşdırmağa sövq etdirmək, maddi və mənəvi cəhətdən ruhlandırmaq, sonda tədqiqat nəticəsində yeni bilgilər qazanmaqdır. Şübhəsiz, əgər bir ölkədə elm öyrənməklə yanaşı, tədqiqat sahəsinə xüsusi yer ayrılarsa, o ölkənin gələcəyi də parlaq olacaq. Çünki təhsil, sadəcə bilinəni bilməyənlərə öyrətməkdir, elmi araşdırma isə ümumiyyətlə bilinməyənləri tapmağa, kəşf etməyə çalışmaqdır. Dünyada olan hər növ inkişaf, təhsil sisteminə borclu olduğu qədər tədqiqata da borcludur. Hətta bəzən elmi araşdırmalar və hər hansısa bir tezis üzərində işləmək, elmin tərəqqisi üçün təhsildən daha çox faydalı olur. Çünki təhsildə həmişə eyni bilgilər və müəyyən olunmuş məlumatlar ötrülür, lakin tədqiqat nəticəsində daim yeni sürprizlərlə qarşılaşırıq. Təbii ki, bu yenilik təhsilin də yenilənməsinə səbəb olur.

Təbii ki, arzuolunan elmi bir işin  əsas şərti var; tədqiqatçı şəxs, araşdırma apardığı sahədə müstəqil şəkildə hər bir detalı dəqiq araşdırmalı, lazım olan yerdə isə tənqidçı olmalıdır. Bunun üçün də münbit  şəraitin olması qaçılmazdır.

Biz bu jurnalı ərsəyə gətirməklə, öz tələbələrimizin elmi araşdırmalarına əhəmiyət verdiyimizi göstərmək istədik. Təbii ki, onların yazı işində bir sıra nöqsanlar ola bilər, amma əsas odur ki, əziz tələbələrimiz bu önəmli yolda əzmlə addımlayırlar. Ümid edirəm, "İslam Araşdırmaları Jurnalı"nın bu sayında dərc olunan məqalələr, siz əziz oxucular üçün səmərəli olsun.

PhD.TofiqƏsədov

*Əl-Mustafa Beynəlxalq Virtual Universiteti İslam Araşdırmaları İnstitutunun Sədri, Əl-Mustafa Beynəlxalq Universiteti Elmi Heyətinin Əsas Üzvü*

# Qloballaşma və müsəlmanların qarşılaşdığı əxlaqi problemlər

**Nurlan Əzimov**[1]

## Abatrakt

21-ci əsrin əvvəllərindən etibarən, dünya düzənində yenisi ilə əvəz olunması fonunda iki fərqli qlobal cəbhə yarandı. Bunlardan birincisi, dünyada kapital gücə nəzarət edən transmilli korporasiyalar qloballaşmanın tərəfdarı kimi çıxış etməyə başladılar. Onların hədəfləri, siyasi sərhədləri ortadan qaldıraraq, bütün xalqları və millətləri eyni həyat tərzinə kökləmək, onları eyni bir dildə danışan, eyni dini inanca sahib olan (dinsizlik), təfəkkür və yaradıcılıqdan məhrum edilmiş istehlakçı kütləsinə çevirmək və beləcə dünyanın bütün resurslarına varis olaraq onu vahid mərkəzdən idarə etmək. Və buna da sosial şəbəkələr və virtual aləmlə nail olmaq istəyirdilər.İkinci cəbhə isə siyasi sərhədlər daxilində idarə edilən geosiyasi güc mərkəzləri idi ki, bunlar həm hərbi, həm iqtisadi və həm də siyasi nüfuz dairələrini genişləndirməyi hədəf alan dövlət və siyasi birliklər idi. Bunlara misal olaraq ABŞ dövləti, Çin, Avropa birliyi, Rusiya və o cümlədən Hindistan kimi yeni ərsəyə gəlməkdə olan geosiyasi və geoiqtisadi güc mərkəzləridir. Bütün bu sadalananların fonunda, araşdırma və düşüncələrimin məqsədi müsəlman

---

1. İslam Araşdırmaları fakültəsinin məzunu, İslam Araşdırmaları institutu, Əl-Mustafa Beynəlxalq Virtual Universiteti, Qum, İran.

qardaş və bacılarımla bölüşərək anlaşılması çətin olan dövrümüzdə İslam ümmətini mövcud qlobal durum və vəziyyətlə tanış etmək və eyni zamanda müasir zamanı bərabərcə tanıyaraq virtual aləmin təsirlərini də nəzərdə alaraq düzgün qiymətləndirmək üçün maariflənməyə baş vurmaqdır.

**Açar sözlər:** İslam, virtual, qloballaşma, sosial şəbəkələr, qərb, müsəlmanlar, əxlaqi problemlər.

## Giriş

Yaşadığımız müasir dövr öz qəribəlikləri və dəyişmə sürəti ilə diqqət çəkir. İnsanlıq tarix boyu öz təkamülündə insan olma qayəsinə doğru irəliləmiş və bu işdə Allahın rəhməti ilə göndərilən nəbilərin böyük rolu olmuşdur. Belə ki, insanlıq öz fitri məqsəndindən uzaqlaşdığı və fəsad törətməyə başladığı zaman Allah tərəfindən göndərilən nəbilər vasitəsi ilə təkrar hidayət yolunu əldə etmiş və həqiqi məqsədə doğru irəliləməyə davam etmişdir.

Lakin Miladın 18-ci əsrinin sonlarından başlayaraq bir sıra Avropa ölkələrində elmi-texniki tərəqqinin fonunda əldə olunan elmi nailiyyətlərin hərbi sahələrdə tətbiqi Avropada gücü nəzarətdə saxlayan qurumlara yeni müstəmləkələr qazandırdı. Qeyri adi texnoloji güc qazanan avropalılar dünyanı bölüşdürmə uğrunda müharibələrə qalxdılar. 20-ci əsr iki dünya müharibəsinə şahidlik etdikdən sonra, dünyaya yeni düzən gətirildi. Bu düzən, BMT adlı qurumun yaradılması və onun təhlükəsizlik şurası adlı üst qurumuna 2-ci dünya müharibəsində qalib gəlmiş 5 daimi üzv ölkələrinin (ABŞ, SSRİ, Fransa, Britaniya və ÇXR) idarəçiliyi altında yaradılan yeni dünya düzəni adlandı. Bu düzən 20-ci əsrin sonlarına

doğru qlobal kapitalın yerdəyişməsi ilə SSRİ-nin çöküşü və ABŞ-ın de-fakto qlobal hegemonluq iddiası ilə müşayət olundu. ABŞ dövlət siyasəti mərkəzində Amerikanın alternativsiz bir güc olan birqütblü dünya düzəni və bu düzənə tabe olunmuş müstəmləkə halında olan və bu sistemi qidalandıran qlobal bazar arxitekturası yer alırdı.

21-ci əsrin əvvəllərindən etibarən, ötən əsrdə qurulan və köhnəlmiş hesab edilən dünya düzəninin yenisi ilə əvəz olunması fonunda iki fərqli qlobal cəbhə yarandı.

Bunlardan birincisi, dünyada kapital gücə nəzarət edən transmilli korporasiyalar virtual qloballaşmanın tərəfdarı kimi çıxış etməyə başladılar. Onların hədəfləri, siyasi sərhədləri ortadan qaldıraraq, bütün xalqları və millətləri eyni həyat tərzinə kökləmək, onları eyni bir dildə danışan, eyni dini inanca sahib olan (dinsizlik), təfəkkür və yaradıcılıqdan məhrum edilmiş istehlakçı kütləsinə çevirmək və beləcə dünyanın bütün resurslarına varis olaraq onu vahid mərkəzdən idarə etmək.

İkinci cəbhə isə siyasi sərhədlər daxilində idarə edilən geosiyasi güc mərkəzləri idi ki, bunlar həm hərbi, həm iqtisadi və həm də siyasi nüfuz dairələrini genişləndirməyi hədəf alan dövlət və siyasi birliklər idi. Bunlara misal olaraq ABŞ dövləti, Çin, Avropa birliyi, Rusiya və o cümlədən Hindistan kimi yeni ərsəyə gəlməkdə olan geosiyasi və geoiqtisadi güc mərkəzləridir.

## Modern qərb sivilizasiyasının sosial şəbəkələrlə təbliğ etdiyi qlobal həyat tərzi

Yuxarıda qeyd olunan arqumentləri əsas gətirərək, dünyada iqtisadi və siyasi gücə nəzarət etmək istəyən qüvvələr qlobal imperialist hakimiyyəti əldə etmək üçün, müxtəliflik təşkil edən xalqları və mədəniyyətləri sömürmək, onların yerləşdikləri coğrafiyalardakı təbii sərvətlərini mənimsəməyi və həmin xalqları müasir quldarlıq prinsiplərinə tabe etdirmək hədəfləri güdürlər. İrəlidə ətraflı danışacağımız iqtisadi, siyasi, finansal rıçaqların əldə edilməsinin yanı başında, əsas hədəflərdən biri kimi, idarəçiliyin və dünya xalqlarının üzərindəki nəzarəti sadələşdirmək məqsədi ilə modern-qərb mədəniyyəti adı altında qlobal bir mədəniyyətin yaradılması, və bu mədəniyyətin dünya xalqlarına təlqin edilməsi dayanır.
Bu yeni qlobal modern-qərb sivilizasiyası, azadlıq şüarları altında gizlənərək müxtəlif cəmiyyətlərdə mövcud olan və tarixi kökləri çox qədimlərə dayanan adət və ənənələri "keçmişin qalıqları" arqumentləri ilə gözdən salaraq, müasir dünya düzənində bu mədəniyyətlərin yeri olmadığını və bu mədəniyyətlərin cəmiyyətləri geriçiliyə və müasirlikdən kənar qalacaqlarına inandırmaqla qlobal media mexanizmini işə salaraq gerçəkləşdirməyə təşəbbüs göstərir.
Dünya xalqlarını idarəetmədəki vahid mexanizmə tabe edilməsi, sosial şəbəklər vasitəsi ilə habelə bu xalqların öz tarixi-mədəni köklərindən qoparılması və mədəni müxtəlifliyin aradan qaldırılması üçün edilən bu təşəbbüs yeni və müasir qərb həyat tərzi adı altında ortaya çıxan camaatların timsalında görmək olar. Xüsusilə gənclərin məruz qaldığı bu virtual beyin yuma prosesi, nəticədə eyni geyim tərzi, eyni davranış tərzi, eyni düşüncə tərzinə köklənən və tarixi-mədəni keçmişini danan "qərb heyranları" getdikcə cəmiyyətlərin əsas və aparıcı tərkibinə çevrilməkdədir. Bu tip "mədəni başlanğıc" özü ilə

yeni bir həyat tərzi gətirərək gəncləri bu mədəniyyətə köklənməklə "azadlığa", "rahat istqbala" və qərbin "yüksək keyfiyyətli" və "varlı" həyat tərzinə malik ola biləcəklərinə inandırmağa çalışır.

Gənclərin yetəri maarif dərəcəsinin olmaması, virtual aləmdə çoxlu vasitələrlə mədəni-psixoloji təziqə məruz qalmaları, bu varlı həyat tərzinin qərb ölkələrinin əldə etdiyi sömürgə və istismar etdikləri bazarlar hesabına olduğunu və bunun pozğun həyat tərzinə köklənən, alkoqol, narkotik vasitələrin, gecə klublarının həyatlarına daxil olması hesabına olmadığını anlamalarına mane olur.

**Virtual qloballaşmanın pərdə arxasına ətraflı baxış**

Zahirən qloballaşma adı altında qlobal medianın da yaxın iştirakı ilə dünya ictimaiyyətinə sunulan və müsbət xarakter daşıdığı, insanlığın hürriyyət, tərəqqi və istiqbalına hesablandığı iddia edilən bu modelin pərdə arxasına baxış keçirəcək, məsələnin bizə göstərilməyən tərəflərini incələyəcək, ümumilikdə bu pərdənin arxasında hansı qurumların və ideologiyanın dayandığını görməyə çalışacağıq.

Qlobalizasiyanı müsbət tərəfdən işıqlandıranlar, bütün dünya xalqlarının inteqrasiyası, müsavat, planetimizin maddi resurslarının bərabər paylanması, tolerantlıq, gender bərabərliyi, insan haqları, humanizm və transhumanizmə keçid, söz azadlığı, demokratiya, hürriyyət, multikulturalizm, liberalizm və sair lozunq və şüarlardan istifadə edərək dünya ictimaiyyətinin diqqətini qloballaşmanın arxasında gizlənən faktor və qurumlardan yayındıraraq səhnəyə qoyduqları anlayışların üzərinə yönəltməyə çalışırlar. Ciddi araşdırmalar bizi məsələnin o qədər də sadə olmadığı qənaətinə gətirməklə məsələyə pərdə arxası baxışa sövq edir.

Fitnənin zühur etdiyi bu mürəkkəb və qarmaqarışıq zamanda, haramın halala, batilin haqqa, zülmün ədalətə qarışdırıldığı və bir çox insanın çaşqın qaldığı bir vaxtda, araşdırılan mövzu zəmanənin problemlərinin dərk olunması və düzgün analiz aparmaq baxımından böyük zəhmət tələb etməklə eyni zamanda ciddi əhəmiyyət kəsb edir.

## Virtual qloballaşmanın mənfi və müsbət cəhətləri

21-ci əsrin başlanğıcı, bəşəriyyət tarixində bütün dünyanın demək olar ki, hər guşəsində sürətli dəyişikliklərin baş verdiyi bir vacib məqamdır. İnsanlar sərhədsiz dünyadan danışırlar (Ohmae, 1990), harada ki, coğrafi və siyasi sərhədlər xüsusi məlumat və texnologiyalardır. Rabitə sistemlərinin daha sürətli və daha səmərəli olduğu qlobal bir kənddə yaşadığımız deyilir. Qloballaşma prosesi son zamanlarda və sürətlə iqtisadiyyat, təhsil, siyasət, texnologiya, mədəniyyət və sosial quruluş və sair kimi müxtəlif sahələrdə və sektorlarda bir çox dəyişiklik və dəyişikliklərə səbəb oldu. İnkişaf etmiş və güclü ölkələrin üstünlükləri və imkanları ilə insan münasibətlərinə, ictimai təşkilatlara və dünya görüşlərinə təsir göstərərək millət dövlətlərində struktur dəyişikliklərinə səbəb olur.

Apardığım bu araşdırma, qloballaşmanın mənasını, konsepsiyasını, çağırışlarını və imkanlarını və müsəlman düşüncəsinə, mədəniyyətinə və cəmiyyətə təsirlərini müzakirə etmək və qiymətləndirmək məqsədi daşıyır. Bu, 21-ci əsrdə müsəlman birliyinin müxtəlif çağırışları və imkanlarını müəyyənləşdirir, həmçinin müsəlmanların mövcud duruma necə reaksiya verməli olduqlarını müzakirə edir. Bu araşdırma ayrıca aspektlərdə qloballaşmanın müsbət tərəflərini də işıqlandırır; dünya dövlətlərinin insan cəmiyyətləri ilə rifah və sağlam bir mədəni mübadilənin mümkünlüyünü də ifadə etmək lazımdır, lakin qloballaşmanın mənfi təsirləri diqqətdən

kənarda qalmamalıdır, əks halda İslam qurumlarının dağılmasına və müsəlman ictimai quruluşunda parçalanmaya səbəb olacaqdır. İslam paradiqmasından qloballaşmanın yaratdığı fürsətlər vasitəsi ilə ümməti necə birləşdirmək barədə fikirlər də çox qiymətlidir. Bu araşdırmanın mövzularındakı müzakirə, İslam dini və mədəni kimliyini itirmədən müasir şəraitdə dəyərlərin və mədəni ünsürlərin inkişafına və artırılmasına təkan verməkdir.

Qloballaşmanın müxtəlif baxımdan və ölçülərdən fərqli tərifləri və şərhləri var. Bu, qlobal əlaqənin genişlənməsi və qlobal miqyasda ictimai həyatın təşkili və dünya cəmiyyətinin konsolidasiyası üçün qlobal şüurun böyüməsinə geniş yer verir. Bu, insanın innovasiya və texnoloji tərəqqinin nəticəsidir. Coğrafi və geosiyasi sərhədləri parçalayan və dünyanı vahid qlobal bir kəndə çevirən bir sıra tədbirlərdir ki bunlar tədricən həyata keçirilir. Qurulmaqda olan dünya, sərhədsiz və şəffafdır, burada hər şeyin bütün hallarda kəskin rəqabətə töhfə verə biləcəyi qloballaşma prosesi, dünyanın strukturunu nəhayət qlobal bir kəndə aparacaqdı. Dünyadakı cəmiyyət, mədəniyyətlər, təsisatlar və fərdlər arasında əlaqələrin tənzimlənməsi mürəkkəb bir prosesdən keçməkdədir. Bu, zamanın və məkanın sıxılmasını əhatə edən sosial bir prosesdir. Bu da bir fenomen deyil, beynəlxalq sistemi və hər bir ölkənin daxili siyasətini və xarici əlaqələrini formalaşdırır. Obrazlı ifadə etsək, Nə yaxşı, nə də pis olmayan bir atəş kimidir. Düzgün istifadə olunarsa, yaxşı məqsədlər üçün istifadə edilə bilər və ehtiyatsız istifadə olunarsa insanların və cəmiyyətin hüzurunun pozulmasına, mədəniyyətlərin və bir çox mənəvi dəyərlərin aradan getməsinə səbəb ola bilər.

Dünya bir çox cəhətdən - iqtisadi, siyasi, hərbi, intellektual və mədəni cəhətdən sürətlə qloballaşır. Bu, təkcə iqtisadiyyat və informasiya texnologiyaları sahələrini əhatə etmir, həm də düşüncə, din, cəmiyyət, mədəniyyət və həyat tərzini əhatə edir. Burada qloballaşmanın daha geniş siyasi, iqtisadi və ekoloji ölçüləri də mövcuddur.

Virtual aləmin təsiri nəticəsində sosial, mədəni və dini kontekstdə qloballaşma, məhsulların daxil olduğu proseslərin çoxluğuna aiddir; ideyalar, dəyərlər, mədəniyyətlər, təcrübələr və mallar yeni texnologiyalar vasitəsi ilə dünyaya yayılır. Ulrix Beck qloballaşmanın sosial siyasət, dil, tarix, ədəbiyyat, ideologiyaları və gündəlik həyatın şəxsiyyətlərini özündə cəmləşdirdiyini açıqlayır. O, mədəniyyətlər, insanlar və məkanlar arasında yeni əlaqələr quran bir transmilliləşmə olduğunu bir daha təsdiqləyir. Gündəlik mühiti və həyat tərzini dəyişdirir[1]. Bu, supermarketlərimizə gətirilən məhsullar, mallar və texnologiyalar və xarici ölkələrdən şəhərlərimizə yeni müasir mədəniyyət kimi sosial-mədəni aspektlərimizə təsir göstərir. MuzaHar'a görə, kapital, mallar, xidmətlər və işçi qüvvəsi milli sərhədi keçib transmilli xarakter aldığı bir müddətdir. Yerli siyasi qurumların, ictimai münasibətlərin və mədəniyyət nümunələrinin dəyişdirilməsinə kömək edən ideyaların, dəyərlərin və müxtəlif zövqlərinin olduğunu iddia edir[2].

Sosial şəbəkələrin vasitəsi ilə və virtual beyin yuma ilə zövqün ötürülməsi ayaqqabı, içki, geyim və davranış, dəyərlərin ötürülməsi cizgi filmləri, komikslər, filmlər, dillər, videolar, musiqili və oyuncaqlar deməkdir, fikirlərin ötürülməsi

1. Ulrich Beck, What is Globalization, Polity Press Cambridge: UK, 2000, pp. 64-65
2. Chandra Muzaffar, Dominate Western Perception of Islam and Muslims, 1999, pg.1

dünyəvilik, postmodernizm və materializmin şüuruna daxil olmaq deməkdir. Chandra Muzaffar-a görə, indiki qloballaşma prosesinin kökləri qərb müstəmləkə hökmranlığı və imperiya təfəkkürünə əsaslanır. Buna görə böyük iqtisadi, texnoloji, siyasi və mədəni güc mərkəzləri Qərbin nəzarəti altındadır. Nümunə və temp qloballaşması onlara yönəldilir və idarə olunur.

İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı (OECD) "qloballaşma tək bir fenomen deyil, yaşadığımız dünyanın simalarını dəyişdirən bir sıra meyllər və qüvvələrdir" deyir. Bu o deməkdir ki, tədricən tətbiq olunan tədbirlər və bazarların, millətlərin və texnologiyaların əlçatmaz inteqrasiyasıdır. Fərdlərə, korporasiyalara və təşkilatlara dünyada hər zamankindən daha sürətli, daha rahat və daha az maliyyətli şəkildə çatmağa imkan verir. Bununla yanaşı, Robertson qloballaşmanı konkret qlobal müstəqillik və qlobal şəbəkənin şüurunu göstərən bütövlükdə dünyanın şüurunun artan konsentrasiya üzrə inkişaf etməsi kimi müəyyənləşdirir[1].

Waters'a görə qloballaşma, coğrafiyanın sosial və mədəni tənzimləmələrdəki məhdudiyyətlərinin azaldığı və insanların getdikcə getdikcə daha çox xəbərdar olduqları bir sosial prosesdir[2].

Virtual olaraq təbliğatlar və müxtəlif vasitələrlə dünya praktikalarının, dəyərlərin, texnologiyaların və digər insan məhsullarının dünyaya insan marağı üçün aktiv şəkildə yayılması kimi xidmət edərkən insanların həyatına təsir göstərir. Bu, iqtisadiyyatda, yaşayış və həyat tərzində tarixi bir çevrilmədir; siyasətdə, mədəniyyətdə, bir devalvasiya ilə

1. Robertson, Globalization, Sage: London, 1996, pg. 8
2. Malcolm Waters, Globalization, Rutledge: London, 2002, pg. 3

əlaqəli bir kollektivliyin nailiyyətləri və inteqrasiya dünya sistemləri, qlobal mədəniyyət, qlobal cəmiyyət və qlobal kapitalizm kimi dörd aspektdən öyrənilə bilən müəyyən dəyişiklikləri əhatə edir. Sosial quruluşları dəyişdirir və mövcud mədəniyyətdən məhrum olduğunu söyləyir, eyni zamanda uzaq yerləri bir-birinə bağlayan ümumdünya sosial münasibətlərin intensivləşməsi və yerli hadisələrin çox uzaqlıqda baş verən hadisələrlə formalaşmasıdır[1].

**Virtual qloballaşmanın müsəlman sosial və dini dəyərlərinə təsirləri**

Qərb ideyaları və dəyərləri, İslam dünyasının dini və sosial dəyərlərinə kütləvi informasiya vasitələri və dünyanın bir tərəfindən digərinə məlumat ötürən başqa vasitələr ilə axmaqda davam edir. Müsəlmanlar Qərb ideyalarından, məhsullarından, xarici təzahürlərindən və qərb dünyasının kinodan ədəbiyyata qədər və fəlsəfi fikirlərdən tutmuş iqtisadiyyata qədər olan fəaliyyətlərindən çox təsirlənirlər. Bu gün müsəlman dünyası üçün qloballaşmanın çağırışları bir neçə qatdan ibarətdir, məsələn, qərbləşdirilmiş müsəlman ziyalıları, xristian missionerinin fəaliyyəti, sekulyar təhsil sistemi, qlobal iqtisadiyyatın rolu, disbalans formatda olan iqtisadi əməliyyatlar, siyasi qeyri-sabitlik və korrupsiya.

1. H. Mittelman, 2000,The Globalization Syndrome, pg. 6

***Yuxarıda sadalanan faktorların danılmaz təsirlərini daha yaxşı başa düşmək üçün onları ayrı-ayrılıqda analiz edərək məsələyə kompleks şəkildə baxmalıyıq:***

1. **Qərbmeyilli müsəlman ziyalıların fəaliyyət təsirləri**
2. **Xristian missioner təşkilatlarının fəaliyyət təsirləri**
3. **Qeyri-Hökumət Təşkilatlarının fəaliyyət təsirləri**
4. **Sekulyar-Dünyəvi fundament üzərində qurulmuş ikitirəli təhsil sistemi**
5. **Qlobal iqtisadiyyat, qeyri bərabər iqtisadi transaksiyalar**
6. **Siyasi sabitliyin çatışmazlığı və korrupsiya**

Digər bir amil pul siyasətidir. Bəzi müsəlman liderlər partiya seçkilərində müxtəlif vəzifələrə səs almaq təcrübəsini qəbul etdilər. Bu cür korrupsiya əməlləri liderin və partiyanın etibarını təhdid edir və sarsıdır. Uzun müddətdə korrupsioner lider və partiya kütlələrin dəstəyini itirəcək və qeyri-sabitlik yaradacaqdır. Bu cür əməllər cəmiyyətin mənəvi dəyər və mədəni kimliyini yox etməklə yanaşı, müsəlman cəmiyyətindəki ictimai quruluşları və sosial bağı da məhv edir.

## Virtual qloballaşmanın müsəlman düşüncə və mədəniyyətinə neqativ təsirləri

Müsəlmanlar öz ideologiyalarına məhəl qoymadıqda, qərb nəzakətlə müsəlman cəmiyyətində öz ideologiyalarını tətbiq etdi. Məsələn, cihad anlayışı və mənası qərb tərəfindən deformasiya edildi və müsəlmanların özləri arasında belə xəyal qırıqlığı və çaşqınlığa çevrildi. Qərb, nə etdiyinin əsas səbəblərini başa düşmədən onu ekstremizm, terrorizm və ya fundamentalizm aktı kimi populyarlaşdırdı.

Virtualizmin nəticəsində qloballaşmanın müsəlman düşüncə və mədəniyyətinə neqativ təsirləri aşağıdakı kimi sadalana bilər:

1. Sekulyarizasiya prosesi
2. Post-Modernizm
3. İnformasiya məkanının neqativ təsirləri

**Qloballaşmanın müsəlman düşüncə və mədəniyyətinə pozitiv təsirləri isə aşağıdakı şəkildə sıralaya bilərik:**

**1.** Yaranan mövcud imkanların dəyərləndirilməsi
**2.** İslami təhsil sistemində mümkün reform və islahatlar
**3.** İkitirəli təhsil sisteminin islahatı

**Dialoq (dialoqun aktiv olması üçün ana dilinin önəmi, tərcümə mərkəzlərinin yaradılması və islam elmləri fondunun təsis olunması təklif oluna bilər)**

1. **İnformasiya və kommunikasiya texnologiyalarının rolu**
2. **Birlik, qardaşlıq və hərtərəfli əməkdaşlıq**
3. **Qüvvət və qüdrət**
4. **İnformasiyaya yatırım**
5. **Siyasi reform və stabillik**
6. **İqtisadi inkişaf və maliyyə sisemi**
7. **Mədəni irsə sahib çıxmaq və İslami dəyərlər sisemi**
8. **Müsəlman birliyi və qlobalizasiya**

## Nəticə

Yuxarıdakı müzakirə virtual qloballaşmanın müxtəlif mədəniyyətlərə, dəyərlərə və dinlərə mənsub insanları ünsiyyətdə sürətlə irəliləməsi ilə daha da yaxınlaşdırdığını göstərdi və beləliklə dünyanın bir kənd halına gələrək kiçildiyinin şahidi olduq. Müsəlman dünyası ümmətin gücünü möhkəmləndirən siyasətlər hazırlamaq üçün ciddi səylər göstərməlidir. Müsəlmanların qeyri-müsəlmanlardan asılılığını azaltmaq üçün tövhid paradiqması, İslam qardaşlığı, özünüdərk, özünü tənqid, birlik, barış kimi dəyərlərə sürətli və düzgün adaptasiya lazımdır. Müsəlman düşüncələri və sosial-mədəni bütövlüyü qərbləşmə və dünyəviləşmə prosesindən qorunmalıdır. Müsəlman dünyasında mövcud olan bütün qaynaqlar, konsolidasiya edilməli və müsəlmanların bir çox inkişafını və həyat şəraitini təmin etmək üçün səmərəli istifadə edilməlidir.

İslami təhsil müəssisələri və qeyri-hökumət təşkilatları sosial-iqtisadi və siyasi problemləri qeyd etmək və zəruri həll paketləri təqdim etmək üçün ciddi rol oynamalıdırlar. Ümmətin intellektual inkişafı üçün texnologiyalar və texnoloji mənbələrdən tam şəkildə istifadə edilməlidir.

Yuxarıdakı müzakirədə qeyd olunduğu kimi, qloballaşmanın mənfi təsirləri də diqqətdən kənarda qalmamalıdır, çünki uzun müddətli periodda bu təsirlər müsəlman dünyasında ictimai dəyərlərin nüvəsini parçalayacaqdır. Müsəlmanlar qloballaşmanın mənfi nəticələrini gözdən keçirməli və onları İslam təlimlərinə görə süzgəcdən keçirməlidirlər. Eyni zamanda, müsəlmanlar iqtisadi, təhsil, mədəni və mənəvi nailiyyətləri inkişaf etdirmək üçün səy göstərməlidirlər.

Bəzi ideal aspektlərdən baxdıqda, virtual təbliğlərin nəticəsindəki qloballaşma pozitiv bir xarakter ala bilər. Bu, dünya çiçəklənməsinin və sağlam mədəni mübadilənin nəticəsi

olaraq insanlığın rifah və qardaşlığına səbəb ola bilər. Bununla belə, hazırkı mövcud vəziyyət bir çox ölkələrin beynəlxalq mərhələdə bərabər səviyyədə rəqabət edə bilməməsidir. Bu isə öz növbəsində, münaqişələrə səbəb olaraq, millətlər və icmalar arasındakı haqlı narazılığa gətirib çıxarır.
Zəif tənzimlənən virtual qloballaşma prosesi onsuz da kasıb və çarəsiz qalan bəşəriyyətin yarıdan çoxunu yox edə bilər. Eyni zamanda bu, mədəni imperializmə, elektron imperializmə və iqtisadi imperializmə aparır və nəticədə qərb liberal kapitalist hegemonluğunun ömrünü uzatmağa xidmət edir.
Qeyd etmək vacibdir ki, müsəlman ölkələri arasında sülh, birlik, əməkdaşlıq və birlikdə yaşamaq cəhdləri olmadan müsəlman dünyasında irəliləyiş və inkişaf görmək mümkün deyil. Bu ünsürlər müsəlman dünyasının irəliləməsi və neo-imperializmə qarşı mübarizə qabiliyyəti üçün vacib şərtdir.
Müxtəlif məsələlərdə potensial anlaşılmazlıq boşluğunu azaltmaq üçün müsəlmanlar və qeyri-müsəlmanlar arasında tez-tez dialoqlar təşkil edilməlidir. Müsəlmanların öz şəxsiyyətlərini dərk etmələri və irəliləmələrini təmin etmək mövzusunda ciddi səy göstərmələri halında müsbət irəliləyişlər əldə edilə bilər.
Keçən əsrin ortalarından başlayaraq İslam şüurunun dirçəldilməsi müvəffəqiyyətin çox da uzaq olmayacağına ümid verirdi. Əslində ümmətin gələcək rolu və vəziyyəti haqqında müsbət proqnoz verilə bilər. Bu proyeksiyaya görə İslam sivilizasiyasının 21-ci əsrdə qlobal bir oyunçu olmaq potensialı var. Əgər bu reallığa çevrilsə, müsəlmanların hazırda əzildiyi birtərəfli qloballaşmanın yükü balanslaşacaqdır. Bu halda, müsəlmanlar qloballaşma prosesində daha demokratik, ədalətli və balans vəziyyətində və bərabərhüquqlu iştirak edə biləcəklər.

Müsəlmanlar monoton bir dünya naminə səy göstərməməli, müxtəliflikdə birlik əldə etmək üçün mübarizə aparmalıdırlar. Müxtəlif mənşəli insanlara qlobal bir kənddə qarşılıqlı davranışda bir-biri ilə birlikdə olmağa, hörmət etməyə və əməkdaşlıq etməyə imkan verən bu yanaşma şəraiti onlara qloballaşan dünyada layiqli yer qazandıracaqdır.

## İstifadə olunan ədəbiyyat

1. Qurani Kərim
2. Doktor Misbah Yəzdi – Quranda Cəmiyyət və Tarix. Bakı 2009
3. Dr. Muhammad Fazl-ur-Rahman Ansari B. Th., M.A., Ph.D. - The Quranic Foundations & Structure of Muslim Society – Elite publishers LTD. D-118, S.I.T.E., Karachi Pakistan
5. Əllamə Təbəttəbai – Əl Mizan
6. Ayətullah Məkarim Şirazi - Təfsiri Nümunə
7. John Parkins – Confessions of an economic hitman
8.Ulrich Beck, What is Globalization, Polity Press Cambridge: UK, 2000
9. Chandra Muzaffar, Dominate Western Perception of Islam and Muslims, 1999,
10. Robertson, Globalization, Sage: London, 1996.
11. Imrān N. Hosein THE GOLD DINĀR AND SILVER DIRHAM: ISLAM AND THE FUTURE OF MONEY - MASJID JĀMI'AH CITY OF SAN FERNANDO TRINIDAD AND TOBAGO 2007.
12. Malcolm Waters, Globalization, Rutledge: London, 2002.
13. H. Mittelman, 2000,The Globalization Syndrome.
14.Möhsün Qiraəti - Nur Təfsiri (Bakı, "NURLAR" Nəşriyyat-Poliqrafiya Mərkəzi, 2014).
15. S.K. Bhatnagar, History of M.A.O college, Asia Publishing House: Bombay, 1969
16. Sayed Hossein Nasr, A Young Muslim Guide's To The Modern World, Mekar Publishers: Kuala Lumpur.
17. Abdul Karim Khan, Christian missions in Bangladesh, The Islamic Foundation, London, 1981.

18. Dr. Hazizan Md. Noon, Islam, Sociology and Development: Conflict or Co-existence, “Implications for Social Development of Muslim Countries,1997”.
19. Adams, W.C., Television Coverage of International Affairs, Northwood NJ. Ablex Publishing, 1982.
20. Riazuddin, H. Zobairi, The educational and Social Ideas of Sir Sayyid Ahmed, səh. 144, Maqalat-İ-Sir Sayyid Ahmed-in şərhlərində, 15-ci cild, səh. 192, 1965.
21. Bruce I. Waston, Islam and its challenges in the modem world, Vol.12, No 33, 1 May1997.
22. Samuel. P. Huntington, The Clash of Civilizations, Vol. 72, No. 3, 1993.
23. Ziauddin Sardar, Postmodernism and the Other; The New Imperialism of Western Culture, Pluto Press: London, 1998.
24. Seyed Muhammad Naquib al-Atlas, Islam, Secularism and the Philosophy of the Future, Mansell Publishing Limited: London, 1985.
25. Anwar Ali, Islam Ideology and Leading Issues, United Ltd.: Lahore, 1978.
26. M. Shamsher Ali, Scientific Indications in the Holy Quran, Islamic Foundation: Dhaka, 1990.
27. Hazim M. Shah, Islam and Contemporary Western Thought: lslam and Post Modernism. American journal of Islamic Social Science, Vol. 13, Association of Muslim Social Scientists and lllT: Washington DC, 1996.
28. Md. Ferdouse Khan, 1994, The Quranic Principles of Education, Islamic Educational Scientific and Cultural Organization, İSESCO.
29. Judy Shelton, “Money Meltdown: Restoring Order to the Global Currency System.” (New York, The Free Press, 1994).
30. Richard Fridman - "Who Wrote the Bible?", New York: Harper and Row, 1989

# Səqəleyn hədisinin şiə və əhli-sünnə mənbələrindəki qarşılıqlı araşdırılması

**Məhəmməd Əlili**[1]

**Sevda Rüstəmova**[2]

## Abstrakt

İmamət mövzusuna dair rəvayət olunmuş hədislərə və eləcə də, alimlərin gətirdiyi sübutlara əsasən, İmam dünyanın ürəyidir. Dünya bütün əzəmətilə ona bağlıdır. İmam varlıq aləminin qəlbi, dünyanın mərkəzi və Allahla məxluqat arasında bir vasitədir. İmamət haqda istər Quranı-Kərimdə, istərsə də, hədislərimizdə çox möhkəm dəlil-sübutlar mövcuddur. Qədir hədisi kimi əsas mənbələrdə möhkəm şəkildə qeyd olunan hədislərdən əlavə olduqca dərin mənalı və birbaşa imamın zərurətini, şəraitini və xüsusiyyətləriniz açıqlayan Səqəleyn hədisi kimi səhih hədislərimizdə mövcuddur. Səqəleyn hədisi o qədər əhəmiyyətlidir ki, islam dünyasında Həzrət Məhəmməd (s) peyğəmbərin əmanət qoyduğu vəsiyyət hökmünü aşıyır. Səqəleyn hədisinin əhəmiyyətini anlamaq üçün onun nəticə olaraq bir dinin ardıcıllarına bəxş etdiyi əbədi xoşbəxtlikdəki əvəssiz və əsaslı rolunu düzgün qavramaq lazımdır. Burada bizə əmanət olunan

---

1. Təfsir və Quran elmləri üzrə ilahiyyat elmləri namizədi, Beynəlxalq hüquq fakültəsinin magistrantı, Əl-Mustafa Beynəlxalq Virtual Universiteti, Qum, İran.
2. İslam Araşdırmaları fakültəsinin məzunu, İslam Araşdırmaları institutu, Əl-Mustafa Beynəlxalq Virtual Universiteti, Qum, İran.

Quran və Əhli-beytin (ə) sıx bağlılığı bir növ bu ikilinin insanların rəhbəri olmasına dəlalət edir. Bir-biri ilə Qiyamətə kimi ayrılmaz olan bu iki ağır və qiymətli əmanət haqda Səqəleyn hədisi olaraq hər iki məzhəbin mənbələrində əsaslı qeydlər mövcuddur.

**Açar kəlmələr:** Səqəleyn, nübüvvət, əmanət, imamət, Əhli-beyt, Quran, qiymətli

## Müqəddimə

Səqəleyn, Peyğəmbəri-Əkrəm (s)-in buyruğunda gəldiyi üçün "Səqəleyn" hədisi adlanmışdır. Belə ki, Həzrət buyurmuşdur: "Mən sizi tərk edərək aranızda iki ağır əmanət qoyuram..."
Bu hədis şiə və sünnülərin mötəbər kitablarında Peyğəmbəri Əkrəm (s)-dən geniş şəkildə nəql olunmuşdur. Belə ki, onun o həzrətdən nəql olunmasında heç bir şəkk-şübhə yoxdur. Hədislərin məcmusundan açıq-aşkar başa düşülür ki, Peyğəmbər (s) bu hədisi bir dəfə bəyan etməmiş, əksinə onu müxtəlif yerlərdə dəfələrlə buyurmuşdur və rəvayətlər də tamamilə bir-birindən fərqlənir.
Burada hədisin ravilərinə və onu nəql edən mötəbər kitablara işarə edirik:

1. Əhli sünnənin birinci dərəcəli və ən məşhur mənbə kitabı sayılan, eləcə də altı səhih kitabdan biri olan "Səhihi-Müslüm"də Zeyd ibn Ərqəmdən belə nəql edilir:

"Bir gün Allahın Rəsulu (s) bizimlə birgə olarkən, Məkkə ilə Mədinə arasında yerləşən rütubətli "Xum" (Qədir-Xum) adlı bir məntəqədə ayağa qalxıb, Allaha həmd-səna edəndən, moizə edib öyüd-nəsihət verəndən sonra buyurdu: "Ey camaat! Mən də insanam, Allahın elçisinin gəlişi və onun dəvətinin qəbul etməyimin vaxtı yaxınlaşmışdır. Mən sizin aranızda iki ağır və qiymətli şeyi əmanət qoyuram: Birincisi hidayət və nurla dolu

olan Allahın kitabıdır, ondan bərk yapışın.“ Peyğəmbər (s) Quranla bağlı çoxlu tapşırıq verəndən sonra buyurdu: “(İkincisi) Əhli Beytimdir. Sizə tövsiyə edirəm ki, Allaha xatir Əhli-Beytimi unutmayın! Sizə tövsiyə edirəm ki, Allaha xatir Əhli-Beytimi unutmayın. Sizə tövsiyə edirəm ki, Allaha xatir Əhli-Beytimi unutmayın!”

Peyğəmbəri Əkrəm (s)-in Əhli-Beyti (ə) iki ağır və qiymətli əmanətdən biri kimi Qurani-Kərimlə yanaşı bəyan etməsi və onlara qarşı ilahi məsuliyyətin unudulmaması ilə əlaqədar bunu üç dəfə təkrarlaması göstərir ki, bu iş müsəlmanların müqəddəratı, hidayəti və İslamın əsasları ilə sıx bağlıdır. Bu isə onların Qurani-Kərimlə yanaşı qeyd edilməsindən başa düşülür.

2. Yenə həmin kitabda Zeyd ibn Ərqəmdən azacıq fərqlə başqa bir rəvayət də nəql olunmuşdur.

Diqqəti cəlb edən məsələ budur ki, bu hədisin davamında Zeyd ibn Ərqəmdən “Peyğəmbər (s)-in Əhli-Beytindən məqsəd onun zövcələdirmi?” – deyə soruşulduqda, o “Xeyr,məqsəd, onun nəsəbi qohumlarıdır ki, sədəqə onlara haramdır!” – deyə cavab vermişdir.

3. Məşhur “Sünəni-Termizi” (“Səhihi-Termizi” adı ilə də məşhurdur) kitabının “Əhli-Beytin fəzilətləri” bölümündə Cabir ibn Abdullahdan belə nəql olunur: “Həcc zamanı – “Ərəfə” günü Allahın Rəsulunu (s) gördüm ki, öz dəvəsinə minib xütbə deyirdi. Bu zaman onun belə buyurduğunu eşitdim:

“Ey camaat! Mən sizin aranızda iki şeyi əmanət qoyuram, əgər onlardan yapışsanız (onlara sarılsanız), heç vaxt zəlalətə

düşməzsiniz. (O iki əmanət) Allahın kitabı və Əhli-Beytimdir!”[1]
Termizi əlavə edərək yazır: “Bunu Əbuzər, Əbu Səid Xudri, Zeyd ibn Ərqəm və Hüzeyfə də nəql etmişlər.”
Yenə həmin kitabda Əbu Səid və Zeyd ibn Ərqəmdən belə nəql olunur: “Allahın Rəsulu (s) Belə buyurmuşdur:
“Mən sizin aranızda iki şeyi əmanət qoyuram ki, əgər onlardan yapışsanız, heç vaxt zəlalətə düşməzsiniz: Biri səmadan yer üzünə uzanmış ip olan Allahın kitabı, digəri isə itrətim olan Əhli-Beytimdir! Onlar “Kövsər” hovuzunda mənə qovuşana qədər, heç vaxt bir-birindən ayrılmazlar. Belə isə baxın görün, məndən sonra onlarla necə rəftar edəcəksiniz!”[2]
İnsanın “itrəti” dedikdə, onun övladı, nəvə-nəticəsi və nəslindən olan ən yaxın ailə üzvləri nəzərdə tutulur.
Kövsər – Behiştdə bulaq adıdır, lüğətdə firavan, bol, böyük nemət və xeyir-bərəkət mənalarını daşıyır. Quran surələrindən birinin adı “Kövsər”dir. Təfsirçilər bu surənin Peyğəmbəri Əkrəm (s)-in pak övladları – Həzrət Fatimeyi-Zəhra (ə.s) və məsum imamlar barəsində nazil olduğunu qeyd etmişdir.

4. (Əhli-sünnənin böyük alimlərindən, sünnülərin altı səhih və mötəbər kitablarından sayılan “Sünən” adlı kitabın müəllifi) Əhməd ibn Şüeyb Nisai “Xəsais” kitabında Zeyd ibn Ərqəmdən belə nəql edir: “Peyğəmbər (s) “Həccətül-vida”dan (vida həccindən) qayıdarkən, “Qədir-Xum” adlı məntəqəyə daxil olduqda, kölgəlik üçün bir yer hazırlanmasını göstəriş verdi. Bundan sonra buyurdu: “Mən (Allah tərəfindən) dəvət olunmuş və bu dəvəti qəbul etmişəm (tezliklə sizin aranızdan gedəcək və dünyamı dəyişəcəyəm). (Buna görə də) sizin aranızda iki qiymətli şeyi əmanət qoyuram. Biri digərindən daha böyük olan Allahın kitabı, o biri isə itrətim olan Əhli-

1. “Səhihi-Termizi”, c 5, səh. 662, “Əhli-beytin fəzilətləri” bölümü, hədis: 3786
2. Yenə orada, səh. 663, hədis: 3788

Beytimdir. Belə isə baxın görün, məndən sonra onlarla necə rəftar edəcəksiniz. Onlar (Kövsər) hovuzunda mənə qovuşana qədər, heç vaxt bir-birindən ayrılmazlar.” Sonra buyurdu: “Allah mənim mövlamdır, mən isə hər bir mömünin mövlasıyam!” Sonra Əlinin əlindən tutub buyurdu: “Mən hər kəsin mövlası və rəhbəriyəmsə, bu da onun mövlası və rəhbəridir. İlahi! Hər kəs onu sevirse, Sən də onu sev; hər kəs ona düşməndirsə, Sən də onunla düşmən ol!” Hədisin sonunda qeyd olunduğu kimi, ikinci ravi Əbu Tufeyl deyir: Mən, Zeyd ibn Ərqəmdən “Sən özün bu hədisi Allahın Rəsulundanmı (s) eşitmisən?” – deyə soruşduqda, o dedi: “Kölgəliyin altında olan hər bir kəs bu səhnəni gözlərilə görüb, qulaqları ilə Həzrətin sözlərini eşitdi!”[1]

Bu hədis açıq-aşkar göstərir ki, Peyğəmbəri-Əkrəm (s) onu “Qədir-Xum”da müsəlmanların qarşısında söyləmiş və hami da bunu qulaqları ilə eşitmişdir.

5. Hazırda vəhhabiliyin banisi kimi tanıtdırılan İbn Teymiyyə (Əhməd ibn Əbdülhəlim Hənbəli, ölümü: 727 h.q.) “Minhacus-sünnə” kitabında bu hədisi “Səhihi-Müslüm”də qeyd edildiyi kimi nəql etmişdir.[2]

   Sünnülərin digər məşhur və tanınmış alimləri də “səqəleyn” hədisini öz əsərlərində gətirmişlər. O cümlədən:
6. Hicri- qəməri tarixi ilə 5-ci əsrin alimlərindən olan ibn Məğazili (Əli ibn Məhəmməd Fəqih Şafei) bu hədisi geniş şəkildə Zeyd ibn Ərqəmdən nəql etmişdir.[3]

---

1. “Xəsaisi-Nisai”, səh. 20, Misirin “Təqəddüm” çapı
2. “Minhacus-sünnə”, c. 4, səh. 104, Qahirə çapı
3. Sənədi məsumlara çatan, raviləri ədalətli və on iki imamçı olan hədisə “səhih hədis” deyilir.

7. 6-cı əsrin (h.q.) məşhur alim, mühəddis, xətib və şairlərindən olan Xarəzmi də onu “Mənaqib” kitabında qeyd etmişdir.[1]
8. 7-8-ci əsrin alimlərindən və məzhəbcə təəssübkeşliyi ilə məşhur olan Zəhəbi (Məhəmməd ibn Əhməd ibn Osman Dəməşqi Şafei) də bu hədisi “Təlxisul-müstədrək” kitabında qeyd etmişdir.[2]

Tacəddin Səbki “Təbəqatuş-şafei” kitabında Zəhəbi barəsində belə yazır: “O, öz zamanının dahi və görkəmli mühəddisi, böyük hafiz (hədis əzbərçisi), əhli-sünnə məzhəbinin bayraqdarı, əsrinin rəhbər və qabaqcılı idi.”

11-ci əsrin alimi və məşhur tarixçisi Əli ibn Burhan Hələbi Şafei özünün “Sireyi-Hələbi” adı ilə tanınan “İnsanul-üyun” kitabında “səqəleyn” hədisi və “Qədir-
Xum” hadisəsini açıq-aşkar nəql etdikdən sonra belə yazır: “Bu hədis səhih və düzgündür, səhih[8] və “həsən”[9] sənədlərilə nəql edilmişdir.”[3]

Qeyd etdiyimiz şəxslər “səqəleyn” hədisini öz əsərlərində nəql edən əhli-sünnənin məşhur və tanınmış alimləridir. Əlbəttə, bunu da unutmaq olmaz ki, burada adı çəkilənlər alimlərin az bir qismini təşkil edir. Mərhum Mirhamid Hüseyn Hindi “Əbəqatul-ənvar” kitabının xülasəsində “səqəleyn” hədisini yüz iyirmi altı mənbədən ibarət məşhur kitablarda nəql olunduğunu yazmış, habelə ibarələrilə yanaşı, hər bir kitabın cildi və səhifəsini də göstərmişdir.

Qeyd etmək lazımdır ki, bu hədis yalnız Cabir ibn Abdullah Ənsari, Əbu Səid Xudri və Zeyd ibn Ərqəmdən deyil, demək olar ki, Peyğəmbər (s)-in iyirmi üç səhabəsindən vasitəsiz nəql olunmuşdur ki, onların adları aşağıdakılardan ibarətdir:

---

1. Raviləri şiə olmasa da belə, ədalətli olan hədisə “həsən hədis” deyilir.
2. “Sireyi-Hələbi”, c. 3, səh. 274, Qahirə çapı
3. “Əbəqatul-ənvar”ın xülasəsi, c. 2, səh. 105-242, “Müəssəsətul-bəsə” çapı

1 – Zeyd ibn Ərqəm, 2 – Əbu Səid Xudri, 3 – Cabir ibn Adbullah Ənsari, 4 – Hüzeyfə ibn Üseyd, 5 – Xüzeymə ibn Sabit, 6 – Zeyd ibn Sabit, 7 – Səhl ibn Səd, 8 – Zəmurətul-Əsləmi, 9 – Amir ibn Leylli, 10 – Əbdür-Rəhman ibn Ovf, 11 – Abdullah ibn Abbas, 12 – Abdullah ibn Ömər, 13 – Ədiyy ibn Hatəm, 14 – Əqəbə ibn Əmir, 15 – Əli ibn Əbi Talib (ə), 16 – Əbuzər Qifari, 17 – Əbu Rafe, 18 – Əbu Şureyh Qazi, 19 – Əbu Qüdamə Ənsari, 20 – Əbu Hüreyrə, 21 – Əbu Heysəm ibn Teyham, 22 – Ümmü Sələmə, 23 – Ümmü Hani.

İslam Peyğəmbərini (s) Allahın Rəsulu, peyğəmbərlərin sonuncusu, ilahi vəhyin əmanətdarı kimi tanıyan şəxs bilməidir ki, o həzrətin Quran və Əhli-Beyt (ə) adlı iki böyük və ağır əmanətə sarılmağın vacibliyi, eləcə də onlardan uzaqlaşanların azğınlığa düşdüklərini təkidlə vurğulamasında mühüm bir sirr, İslamın əsası ilə bağlı danılmaz bir həqiqət vardır.

Bu hədis müsəlmanların qarşısına neçə mühüm üfüq açır ki, burada onların bir neçəsinə qısa şəkildə toxunacağıq:

1. Quran və Əhli-Beyt (ə) həmişə birgədir və heç vaxt bir-birindən ayrılmayacaqlar. Quranın həqiqətlərilə tanış olmaq istəyənlər Əhli-Beytdən (ə) yapışmalıdırlar.
2. Qurani-Kərimin hökmlərinə itaət etmək müsəlmanlara qeydsiz-şərtsiz vacib olduğu kimi, Əhli-Beytə (ə) itaət də qeydsiz-şərtsiz vacibdir.
3. Əhli-Beyt (ə) məsum və günahsızdırlar; çünki onların Qurandan ayrılmaması, həm də onlara qeydsiz-şərtsiz itaətin vacibliyi onların məsum olduğunu, günah, xəta və səhvə yol vermədiyini göstərir. Əgər onların bir günah, yaxud xətası olsa,

Qurandan ayrılar, onlara itaət müsəlmanları azğınlıqdan saxlamaz. Hədisdə qeyd olunduğu kimi, Əhli-Beytə (ə) itaətlə günahlardan uzaqlaşmaq, onların günahsız olduğuna başqa bir dəlildir.

4. Daha mühüm məsələ budur ki, Peyğəmbəri-Əkrəm (s)-in buyruğu qiyamətə qədər bütün müsəlmanlar üçün nəzərdə tutulmuşdur: “ Bu iki əmanət “Kövsər” hovuzunda mənə qovuşana qədər, heç vaxt bir-birindən ayrılmayacaqlar.” Bu isə açıq-aşkar göstərir ki, tarix boyu Əhli-Beytdən (ə) bir nəfər məsum və günahsız rəhbər həmişə həyatda olacaqdır. Qurani-Kərim həmişə hidayət çırağı olduğu kimi, onlar da həmişə hidayət çıraqlarıdır. Buna görə də hər bir əsrin ilahi imam və rəhbərini tanımaq lazımdır.
5. Bu hədisdən başa düşülür ki, Əhli-Beytdən (ə) ayrılmaq, yaxud qabağa keçmək azğınlıqla nəticələnir. Heç vaxt bir istəyi onların istəyindən üstün tutmaq olmaz.
6. Onlar hamıdan üstün və fəzilətli, elmli və biliklidirlər.

Bəli, bu incə həqiqətlər verilən hədisdən başa düşülür. Bütün bunları bütün məzhəblər və alimlər təsdiq etdikdən sonra, bu tapşırığa nə qədər əməl edildiyinə, Peyğəmbər (s)dən sonra bu iki əmanətlə necə davranıldığına nəzər yetirək.

**Qurani-Kərim - qiymətli əmanət kimi**

Qurani-kərim elə gözəl bir kəlamdır ki, təkrar-təkrar oxumaq onun cəzzablığını azaltmır, maddi insanı mənəvi və əbədi aləmə pərvazlandırır, ona pakizə həyatı göstərir. Həzrət Peyğəmbər (s) buyurmuşdur: "Fitnələr sizi zülmət gecə tək bürüdüyü zaman Qurana üz tutun. Çünki onun şəfaəti qəbul olunur və bəndələrin əməlləri barədə verdiyi xəbərlər təsdiq edilir. Hər kim Quranı özünə rəhbər etsə, Quran onu Cənnətə yönəldər və hər kim Quranı arxaya atsa, Quran onu Cəhənnəmə tərəf çəkər. O, bir bələdçidir ki, İnsanı ən yaxşı yollara yönəldər... Quranın zahiri və batini vardır. Onun zahiri cilvəli və gözəl, batini isə dərindir. Onun ulduzları, ulduzlarinin da ulduzları vardır. Qəribəlikləri saya gəlmir və köhnəlmir. Onda hidayət və hikmət çıraqları vardır..."[1]

Həzrət Peyğəmbər (s) buyurub: **"Fitnələr sizi zülmət gecə tək bürüdüyü zaman Qurana üz tutun"** [2]

Yaxud buyurub: **"Quranın başqa kəlamlardan üstünlüyü Allahın məxluqatdan üstünlüyü kimidir"**[3] **"Həqiqətən, mən sizin aranızda iki böyük əmanət qoyuram: Allahın kitabı və itrətim..."**[4]

Həzrət Peyğəmbərə (s) ilk iman gətirənlərdən biri olan, ümumiyyətlə, hər sahədə öncül olan Əli ibn Əbu Talib (ə) vəhy nazil olmağa başlayandan davamlı olaraq Həzrət Peyğəmbər (s) üçün vəhyi kitabət etmiş, o həzrətin xüsusi vəhy katiblərindən biri olmuşdur. Həzrət Peyğəmbər (s) ömrünün son günlərində isə Quranı cəm etməyi tapşırdı.

---

1. Usuli kafi, c. 2, səh. 599; Biharul-ənvar, c. 89, səh.17, hədis: 16
2. Usuli-kafi, c. 2, səh. 599; Biharul-ənvar, c. 89, səh. 17; hədis: 16.
3. Ulumul-Quran indəl-mufəssirin, c. 1, səh. 70.
4. Əl-Burhan fi təfsiri-Quran, c. 1, səh. 9-14.

Həzrət Peyğəmbərin (s) hörmətli səhabələrindən biri olan İbn Məsud deyib: “Mən Quranın qiraətini Əli ibn Əbu Talib (ə) kimi bilən bir kəs görmədim.”[1]
Əbu Bəkr Həzrəmi İmam Sadiqdən (ə) hədis edir ki, Həzrət Peyğəmbər (s) Əliyə (ə) buyurdu: “Ey Əli, Quran mənim yatağımın kənarında səhifələrdə, ipək parça və kağız üzərindədir. Quranı cəm edin və yəhudilər Tövratı məhv etdikləri kimi siz də onu məhv etməyin!”[2] Beləliklə, Həzrət Əli ibn Əbu Talib (ə) Həzrət Peyğəmbərin (s) vəfatından sonra Quranı cəm etməyi özünün ən mühüm vəzifəsi hesab edib bu işi yerinə yetirdi.

**Əhli-Beyt (ə) əmanəti**
Qurani-Kərimdə buyurulur: “Allah siz Əhli-Beytdən hər bir çirkinliyi təmizləmək və sizi tamamilə pak etmək istəyir!”[3]
Bu ayə Peyğəmbəri-Əkrəmin (s) bərəkətli ömrünün sonunda Ümmü Sələmənin evində ikən nazil olmuşdur. O zaman Peyğəmbəri-Əkrəm (s) Əli, Fatimə, Həsən və Hüseyni (ə) çağırıb, “Xeybər əbasını” onların üstünə ataraq belə demişdi: “İlahi, bunlar mənim Əhli-Beytimdir!”. Bu zaman Ümmü Sələmə “Ey Allahın Rəsulu! Mən də Əhli-Beytdənəmmi?”- deyə soruşduqda, cavab verdi: “Sən mənim həyat yoldaşımsan və yaxşılığa doğrusan. Onlar isə mənim Əhli-Beytimdir. İlahi, Əhli-Beytim daha layiqdir!” Başqa bir rəvayətə görə, Ümmü Sələmə deyir: “Ey Allahın Rəsulu! Mənim məqamım haradadır?” Peyğəmbər (s) buyurdu: “Sən yaxşı qadınsan və xeyrə doğrusan!”
“Təthir” ayəsində qeyd olunan “Əhli-Beyt” sözünü birbaşa “Kisa” (əba) əhlinə aid edən hədislər “təvatür” həddini keçir.

1. Biharul-ənvar, c. 89, səh. 53
2. Biharul-ənvar, c. 89, səh. 48; Zəncani, Tarixul-Quran, səh. 44
3. Əhzab\33

Bu hədislər Əhli-Beytin kimliyini insaflı tədqiqatçıları azacıq belə şəkk-şübhəyə salmadan aydın tanıtdırır. “Təthir” ayəsinin məzmunu onun nazil olma səbəblərini açıqlayan və yaxid “Əhli-Beyti” Peyğəmbəri-Əkrəmin (s) yaxın adamlarına həsr edən hədislərlə də aydınlaşdırmaq olar.

Peyğəmbəri-Əkrəm (s) həyatda ikən rəftarları ilə “təthir” ayəsinin təfsirini elə açıqlamışdır ki, Əhli-Beytin kimliyi üzərində heç bir ixtilafa duşməmiş və o həzrətin İslam ümmətinin rəhbərliyi və hidayətinə layiq görülən yaxın adamlarından başqa heç kim bu məqamı iddia etməmişdir. Bu ayəyə əsasən, Allah-taala hikmət üzrə Peyğəmbərin (s) yaxınlarından bir neçə nəfərini etiqadı, əxlaqi və əməli əyintilərdən uzaq saxlamışdır. Allah-taalanın əzəli istək və iradəsi dəyişilməz olduğundan qəti nəticəyə gəlirik ki, Peyğəmbərin (s) Əhli-Beyti o həzrətin özü kimi pak və bütün çirkinliklərdən uzaqdır.

Ümumiyyətlə, bütün səciyyələrin əsası olan etiqadi, əxlaqi və əməli paklıq (ismət məqamı) Əhli-Beytin (ə) rəhbərliyə layiq olduğunu göstərir.

Peyğəmbəri-Əkrəm (s): “Məndən sonra canişinlərim on iki nəfərdir. Onların doqquzu Hüseynin (ə) nəslindəndir və doqquzuncusu onların qaimidir. Agah olun, onlar sizin aranızda Nuhun gəmisinə bənzəyir ki, ona minən nicat tapar, ondan üz çevirən isə həlak olar! Onlar İsrail oğulları arasındakı “hittə”[61] qapısı kimidir”.[1]

Allah-təala Qurani-Kərimdə İslam Peyğəmbərinə (s) xitab edərək buyurur: “Ya peyğəmbər! Rəbbinin tərəfindən sənə nazil olanı camaata çatdır. Əgər bu işi yerinə yetirməsən, onun risalətini yerinə yetirməmisən. Allah səni camaatın (şərrindən)

---

1. “Əl-mənaqib”, İbn Şəhr Aşub, c. 1, səh. 295; “Kifayətül-əsər”, səh. 38

qoruyub saxlayar. Və Allah heç vaxt (inadkar) kafir qövmü hidayət etməz."[1]

Həmçinin, buyurur: "Bu gün kafirlər dininizdən (onu məhv edə bilmədikləri üçün) əllərini üzdülər. Onlardan qorxmayın, Məndən qorxun! Bu gun dininizi sizin üçün kamil etdim, sizə olan nemətimi tamamladım və sizin üçün din olaraq İslamı bəyənib seçdim."[2] Tarix və mötəbər hədislərin şahidliyinə əsasən, əziz Peyğəmbərimiz (s) son həcc mərasimində olarkən Cəbrayıl (ə) O həzrətə (s) nazil oldu və Əlini (ə) öz canişinliyinə təyin etməsi barədə Allah-taalanın əmrini Ona çatdırdı. Lakin İslam Peyğəmbəri (s) bu məsələnin onun bir qrup səhabəsi tərəfindən qəbul edilməsinin ağır olduğunu bilib, bu məsələni digər bir münasib vaxtda camaata elan etməyi qərara aldı. Allah-taala "Təbliğ" (İndiki "Maidə"/67) ayəsini nazil etməklə təkid etdi ki, əgər Peyğəmbər (s) bu məsələni indi camaata elan etməsə, həqiqətdə öz ilahi peyğəmbərlik vəzifəsini yerinə yetirməmişdir. Həmçinin, Həzrət Peyğəmbərə (s) ürək-dirək verərək onu qarşıya çıxa biləcək hər bir təhlükələrdən qoruyacağını vəd etdi.[3]

Odur ki, İslam Peyğəmbəri (s) son həccdən qayıdarkən hacıların ayrılıb öz vətənlərinə tərəf üz tutduğu "Qədir-Xum" adlı bir məkanda dayanıb dəstədən qabağa düşənlərin geri qayıtması, dəstədən geri qalanların isə özlərini onlara çatdırmasını əmr etdi. Sonra dəvələrin palanlarını toplayıb üst-üstə yığaraq minbər düzəltdilər və İslam peyğəmbəri (s) həmin minbərə çıxıb geniş bir xütbə oxudu.

---

1. "Maidə" surəsi, ayə: 67
2. "Maidə" surəsi, ayə: 3
3. "Ət-Tibyan fi təfsiril-Quran", Şeyx Tusi, c. 3, səh. 587-588, "Təfsiru cəvamiil-came", Şeyx Təbərsi, c. 1, səh. 342, "əl-Mizan fi təfsiril-Quran", Əllamə Təbətəbai, c. 6, səh. 496, "Biharul-ənvar", Əllamə Məclisi, c. 37, səh. 170

Əhli-Beyt və Əhli-sünnə məzhəbləri qardaşlarının hədis və təfsir alimləri bu geniş xütbənin tam və ya bəzi hissələrini öz kitablarında nəql etmişlər.
Burada tanınmış təfsir alimi Şeyx Əbül-Fütuh Razinin nəqlini ixtisara riayət edərək nəql edirik: “.....Həzrət Peyğəmbər (s) “Qədir-Xum” xütbəsində buyurdu:
“Mən sizin aranızda iki ağır şeyi əmanət qoyuram. Əgər onlara itaət etsəniz, heç vaxt yolunuzu azmazsınız. (Onlar) Allahın kitabı və mənim Əhli-beytimdir.
Xəbir (xəbərdar) və lətif olan Allah mənə xəbər vermişdir ki, onlar (Kövsər) hovuzunun kənarında mənimlə görüşənə qədər bir-birindən ayrılmayacaqlar.”
Sonra buyurdu: “İlahi, görəsən, (öhdəmə qoyulan risaləti) çatdırdımmı?”
Daha sonra əlavə etdi: “(Ey camaat)! Mən sizin üçün özünüzdən daha üstün deyiləmmi?”
Onlar cavab verdilər: “Bəli”.
Peyğəmbər (s) buyurdu: “Mən hər kimin mövlasıyamsa, Əli də onun mövlasıdır. İlahi! Onu sevəni sev və onunla düşmənçilik edənlə düşmən ol! İlahi ona kömək edənə kömək ol və ona öz köməyini əsirgəyəni zəlil et!”
Sonra bu məsələni xalqa çatdırdığı barədə səhabələrdən şahidlik və etiraf alaraq buyurdu: “İlahi! Sən özün onlara şahid ol!”[1]
Beləliklə də, İslam dininin əziz peyğəmbəri (s) ilahi fərmana əsasən “Qədir-Xum” adlı məkanda Əli ibn Əbu Talibi (ə) özündən sonra fasiləsiz olaraq canişin təyin etmişdir. Sonra səhabələrinə Əli ibn Əbu Taliblə (ə) özlərinin gələcək rəhbəri kimi beyət etmələri barədə fərman vermişdir.

---

1.“Təfsiri-Əbül-Fütuh Razi”, c. 7, səh. 62-68

Nəql olunmuş hədislərə əsasən, Peyğəmbərin (s) bu fərmanından sonra Ömər ibn Xəttab, İmam Əlinin (ə) hüzuruna gələrək belə demişdir: "Yəni Ey Əbu-Talibin oğlu! Xoş halına ki, hər bir mömin kişi və qadının mövlası oldun."[1] Həmçinin, Fəxr Razinin yazdığına əsasən Ömər ibn Xəttab belə demişdir: "Ey Əbu-Talibin oğlu! Xoş halına ki, həm mənim və həm də bütün mömin kişi və qadınların mövlası oldun!"[2]

---

1. "Əl-Mənaqib", Xarəzmi, səh. 155-156, hədis: 183
2. "Əl-Musnəd", Əhməd ibn Hənbəl, c. 4, səh. 281; "Təfsiri-Fəxr Razi", c. 12, səh. 52

## Nəticə

İmamət mövzusuna dair rəvayət olunmuş hədislərə və eləcə də, alimlərin gətirdiyi sübutlara əsasən, İmam dünyanın ürəyidir. Dünya bütün əzəmətilə ona bağlıdır. İmam varlıq aləminin qəlbi, dünyanın mərkəzi və Allahla məxluqat arasında bir vasitədir. Buna görə də, onun açıqda olması ilə qeybdə olmasının heç bir fərqi yoxdur. Lakin, o dünyada olmazsa bütün aləm bir-birinə dəyər. İmam Sadiq (ə)ın dili ilə desək "Əgər yer üzü (bir an) İmamsız qalsa, öz sakinlərini kamına çəkər." [1]

Əmirəl-möminin Həzrət Əli (ə) hər vaxt İlahi bir rəhbərin olmasının zərurətini vurğuladığı çıxışlarından birində deyir: "İlahi, həqiqətən də belədir, yer üzü hüç vaxt zühur edəcək və Allahın hüccəti olan bir şəxssiz olmamışdır. İstər həmin şəxs aşkarda olsun, istərsə də qeybdə. Bu, ona görədir ki, açıq-aşkar ilahi sübutlar itib batmasın..."[2]

Zaman keçdikcə şəxsi fikirlərin məzhəbi (dini) məsələlərə qarışması və xəyanətkar əllərin səmavi təlimlərə tərəf uzadılması nəticəsində bir sıra İlahi qanunlar öz həqiqətini itirir və din bəzi təhriflərə məruz qalır. Allahın göndərdiyi səmavi dinin həqiqətinin qorunub saxlanılması və təhriflərin qarşısının alınması məqsədilə bu vəzifə (dini qorumaq vəzifəsi) Allah tərəfindən seçilmiş bir İmam vasitəsilə davam etdirilməlidir. Hər hansı bir mühüm müəssisədə həmin idarənin sənədlərini oğrudan, yanğından və bu kimi hadisələrdən qorumaq məqsədilə seyflər qoyulur. İmamın qəlbi və böyük ruhu da səmavi təliməri ilk nazil olduğu gün kimi gözləmək məqsədilə İlahi qayda-qanunları qoruyub

---

1. Üsuli kafi, c. 1, səh. 179
2. Şərhi-Nəhcül-bəlağə (İbn Əbil-Hədid), c. 18, səh. 347

saxlamaq üçün bir seyfdir. Hafiz ibn Həcər Əsqəlani "Səhihi-Buxari" kitabına yazdığı şərhdə Həzrət Mehdi (ə)ınzühuru zamanı Həzrət İsa (ə)ın göydən enərək onun arxasında namaz qılacağı barədə rəvayət olunmuş hədisləri qeyd etdikdən sonra yazır: "Həzrət İsa (ə)ın dünyanın sonunda və Qiyamətə yaxın vaxtda göydən enərək bu ümmətdən olan bir nəfərin arxasında namaz qılması İslam alimləri arasında tamamilə düzgün olan bu nəzəriyyəni təsdiq edir ki, yer üzü heç vaxt aşkar sübutlarla hüccətsiz olmamışdır."[1]

1. Fəth əl-bari bişərhi-Səhihi-Buxari, c. 6, səh. 494

## İstifadə olunan ədəbiyyat

1. Sünəni-Tirmizi (Əl-Camiüs-səhih), Məhəmməd ibn İsa Tirmizi (Əbu İsa), tədqiq: Əhməd Məhəmməd Şkir, Beyrut, Daru-ihyait-turas, 1395 hicri-qəməri, birinci çap.
2. Xəsaisun-Nəbəviyyə, Cəlaləddin Siyuti, Təqəddüm nəşri, Misir, 1350 hicri-qəməri, birinci çap.
3. Minhacus-sünnə, İbn Teymiyyə, Qahirə çapı, 1395 hicri-qəməri, birinci çap.
4. Əbəqatul-ənvarın xülasəsi, Hüseyn əl-Hindi, "Müəssəsətul-bəsə", 1390 hicri-qəməri, ikinci çap.
5. Əl-Kafi, Məhəmməd ibnYəqub Kuleyni Razi, tədqiq: Əli Əkbər Qəffari, Beyrut, Darüs-səb və Darüt-təarüf, 1401 hicri-qəməri, dördüncü çap.
6. Biharül-ənvar, Məhəmmədbaqir ibn Məhəmmədtəqi Məclisi (Əllamə Məclisi), Beyrut, Vəfa müəssisəsi, 1403 hicri-qəməri, ikinci çap.
7. Əl-Burhan fi təfsiri-Quran, Seyid Haşim əl-Bəhrani, Beyrut, Müəssisətul-əla, 1427 h. q.
8. Mənaqibi-Ali Əbi Talib (əl-Mənaqib li İbn Şəhri Aşub), Məhəmməd ibn Əli Mazəndərani (İbn Şəhri Aşub), Qum, əl-Mətbəətül-ələmiyyə.
9. Kifayətül-əsər fi nəssi əla əimmətil-isna əşər, Əli ibn Məhəmməd Xəzzaz Qumi, tədqiq: Seyyid Əbdül-lətif Hüseyni, Qum, Nəşri-bidar, 1401 hicri-qəməri, birinci çap.
10. Əl-Mizan fi təfsiril-Quran, Seyyid Məhəmmədhüseyn Təba-təbai, Qum, İsmailiyyan nəşriyyati, 1394 hicri-qəməri, üçüncü çap.

11. Cameül-bəyan ən təvili ayil-Quran (Təfsiri-Təbəri), Məhəmməd ibn Cərir Təbəri (vəfat: 310 h. q.), Beyrut, Darül-fikr, 1414 hicri-qəməri.
12. Əl-Tibyan fi təfsiril-Quran, Məhəmməd ibn Həsən Tusi (Şeyx Tusi), tədqiq: Besə müəssisəsi, Qum, Darüs-səqafə, 1407 hicri-qəməri, birinci çap.
13. Əl-Mənaqib (əl-Mənaqibi lil-Xarəzmi), Müvəffəq ibn Əhməd əl-Məkki əl-Xarəzmi, tədqiq: Malik Məhmudi, Qum, Nəşri islami müəssisəsi, 1414 hicri-qəməri, ikinci çap.
14. Müsnədi ibn Hənbəl, Əhməd ibn Məhəmməd Şeybani (İbn Hənbəl), tədqiq: Abdullah Məhəmməd Dərviş, Beyrut, Darül-fikr, 1414 hicri-qəməri, ikinci çap.
15. Təfsiri-Kəbir, Fəxrəddin Razi, Tehran, Əsatir nəşriyatı, 1379 hicri-şəmsi.
16. Şərhi nəhcül-bəlağə, Əbdülhəmid ibn Məhəmməd Mötəzili (İbn Əbil-Hədid), tədqiq: Məhəmməd Əbülfəzl İbrahim, Beyrut, Daru-ehyait-türas, 1387 hicri-qəməri, birinci çap.
17. Fəthül-bari, Əhməd ibn Əli Əsqəlani (İbn Həcər), tədqiq: Əbdül-əziz Abdullah, Beyrut, Darül-fikir, 1379 hicri-qəməri, birinci çap.
18. Əhli-Beyt (ə) Quran və hədislərdə, Məhəmməd Məhəmmədi Reyşəhri, Darul-hədis nəşriyyatı, birinci çap. 2009 m.
19. Qurani-Kərimdə İmamət və canişinlik, Ayətullah əl-Üzma Nasir Məkarim Şirazi, Tərcümə edən: Rza Şükürbəyli, Şəhriyar nəşriyyatı, birinci çap. 2008 m.

# Quranda uşaq hüququ

**Nigar Məmmədova**[1]

## Abstrakt

İslam dinինin ən başlıca mənbəyi Qurandır. O sonuncu və kamil dinin kitabı olaraq bəşəriyyətə, insanlığa lazım olan bütün sahələri özündə ehtiva edir. Bu mənada insanlığın mühüm bir hissəsi olan uşaqlar, onların hüquq və vəzifələri, tərbiyə əsasları, təmin olunma hüquqları, təkamül mərhələləri, ailə qurmaq və cinsi tərbiyə və digər əhəmiyyətli məsələlər barədə Allahın insanlara yönəlmiş göstərişlərini Qurandan, Onun sonuncu elçısı olan Həzrəti Peyğəmbərimizdən (s) və "ixtiyar sahibləri" olan Əhli-beytdən (ə) öyrənməyimiz ən düzgün yoldur.

Qurani-Kərimdə uşaqların hüquq və vəzifələri valideynlərə, həmçinin daha geniş auditoriyaya müfəssəl şəkildə çatdirilmaqdadır. Böyüklərin bir şox hüquqları olduğu kimi, uşaqların da özünəməxsus hüquqları vardır. Uşaq öz valideynləri və ya qəyyumları tərəfindən tərbiyə olunmaq, öz maraqlarının təmin olunması, hərtərəfli inkişafı, onun ləyaqətinə hörmət olunması, müdafiə olunmaq və digər hüquqlara malikdir. Həmçinin uşaq valideynləri, ailə üzvləri və başqa qohumları ilə ünsiyyətdə olmaq hüququna malikdir.

---

1. İslam Araşdırmaları fakültəsinin məzunu, İslam Araşdırmaları institutu, Əl-Mustafa Beynəlxalq Virtual Universiteti, Qum, İran.

Valideynlərinin nikahının pozulması və ya valideynlərin ayrı yaşamağı uşağın hüquqlarına təsir etməməlidir.
Bu və ya digər mühüm tərbiyəvi məsələlər islam qaynaqlarının əsası olan Qurani-Kərimdə yer almış, uşaqlar üçün hüquqlar təyin edilmiş və onlara riayət olunması təkidlə vurğulanmışdır.

**Açar sözlər:** Quran, uşaq, hüquq, islam, valideyn, tərbiyə, təlim

## Müqəddim

İslam dini və şəriəti insanlara dünya və axirət səadəti bəxş etmək və cəmiyyətin əmin-amanlığı üçün gəlmişdir. Uşaqlar da cəmiyyətin bir parçasıdır. Sağlam cəmiyyətin təməlində məhz doğru-düzgün tərbiyə edilmiş övladlar durur.
Mükəmməl və hərtərəfli tərbiyə sisteminə malik olan İslam dinində uşaq tərbiyəsinin mərhələləri kamil şəkildə öz əksini tapmışdır. İslam təlim-tərbiyə sistemini öyrənmək üçün təbii ki, dinimizin müqəddəs kitabına müraciət edib uşaq hüququ haqda bəhs edən surə və ayələri araşdırmalı və bu xüsusda məsumların kəlamına, görkəmli Quran müfəssirlərinin qiymətli əsərlərinə istinad edilməlidir.

## Quranda uşaq hüququ

Din insanın dünya və axirət xoşbəxtliyi üçün İlahi bir proqramdır. İslam dininin əsasları öz təcəssümünü əzəmətli Quranda tapmışdır. Belə ki, burada əqidə, ibadətlər, əxlaq və şəriət məsələləri ilə bağlı hökmlər müsəlmanların din və dünya işlərini tənzimləyir. İslam mədəniyyəti, elmləri, hüququ, incəsənəti Quranın gətirdiyi mənəvi dəyərlərdən qidalanmışdır. Bu elə bir kitabdır ki, orada insanı düşündürən bütün problemlərin həllini bu və ya digər şəkildə tapmaq mümkündür. Bu cəhətdən gələcəyi təmin edən uşaqların

hüquqları, vəzifələri haqda olan göstərişlərin, onların ailədə və cəmiyyətdə düzgün tərbiyə olunması barədə nəsihətlərin və tövsiyələrin Quranda yer alması təbiidir.

Öncə Quranda uşaq sözünün ümumiyyətlə hansı ifadələrlə təqdim olunduğuna və onların mümkün mənalarına nəzər salaq. Qurani- Kərimdə uşaq sözü bir neçə ifadə vasitəsilə nəzərimizə çatdırılır: bənun, bunəyyə, vələd, tıflun, zurriyyə, əsbat.

Bənun – oğullar mənasındadır. Bəqərə surəsinin 132-ci ayəsində, Yusif surəsinin 67-ci ayəsində, Ali İmran surəsinin 14-cü ayəsində, Kəhf surəsinin 46-cı ayəsində işlənmişdir.

Bunəyyə - oğulcan, əzizləmə mənasında təqdim olunur. Yusif surəsinin 5-ci ayəsində, Loğman surəsinin 13-cü ayəsində, Hud surəsinin 42-ci ayəsində bəhs edilir.

Vələd – övlad sozüdür, həm təkdə, həm də cəmdə işlənmişdir. Quranda İsra surəsinin 31-ci ayəsində, Təğabun surəsinin 14-cü ayəsində, Mücadələ surəsinin 17-ci ayəsində, Cin surəsinin 3-cü ayəsində və digər ayələrdə keçir.

Ətfal – uşaq, körpə mənasını verən tıflun sözünün cəmidir. Nur surəsinin 31-ci ayəsində təkdə, həmin surənin 59-cu ayəsində cəmdə gəlmişdir.

Zurriyyə - uşaq, oğullar, nəsil mənalarında təqdim olunur. Bir çox ayələrdə yer almaqdadır. Ənam surəsinin 84-cü ayəsində, Əraf surəsinin 172-ci ayəsində, İbrahim surəsinin 37-ci və 40-cı ayələrində, Furqan surəsinin 74-cü ayəsində və s.

Əsbat – oğullar, övladlar mənasında işlənmişdir. Ali İmran surəsinin 84-cü ayəsində, Nisa surəsinin 163-cü ayəsində, Əraf surəsinin 160-cı ayəsində işlənmişdir.

İndi isə diqqəti Qurani-Kərimdə övlad haqqında tövsiyələr, uşağın yaşamaq hüququ, təmin olunma hüquqları, ailə qurmaq və cinsi tərbiyə, müşavirə və müdafiə haqqı, irs haqqı, düzgün

tərbiyə metodları barədə yer almış surələrə və ayələrə yönəldək.
Qurani- Kərimin Ənam surəsinin 151-ci ayəsində buyurulur: “De ki, gəlin Rəbbinizin sizə haram buyurduqlarını deyim: Bir şeyi Ona şərik qoşmayın, ata-anaya yaxşılıq edin, övladlarınızı yoxsulluq səbəbindən öldürməyin. Sizə və onlara ruzi verən Bizik. İstər aşkar, istər gizli, çirkin işlərə yaxınlaşmayın. Allahın (öldürməyi) haram etdiyi insanı nahaqdan öldürməyin. Allahın sizə tövsiyə etdiyi bunlardır. Olsun ki, düşünəsiniz.”
Bu ayədəki beş göstəriş bir-birinə o qədər bağlıdır ki, sanki vahid bir göstərişdir. Ayədəki göstərişlər qadağalardan ibarətdir. Yalnız ata-anaya yaxşılıq əmr kimi bəyan olunur. Yəni nəinki “incitməyin”, əksinə “ehsan edin”. Əvvəlcə tövhid və şirkdən çəkinmə məsələsinə toxunulur, sonra valideynə yaxşılıq məsələsi təqdim olunur. Belə ki, yaranışda ilkin Allahdır, sonra ata-ana. Bu ayə həmçinin haramları sadalayır və valideynə ehsanın tərk olunmasının haram olduğunu bildirir. Yoxsulluq qorxusundan övladı öldürmək və ya abort (siqt) etmək cahilanə əməldir. Əgər Allah ruziyə zamindirsə, nə üçün yoxsulluqdan qorxmalıyıq? Pis işlərin qadağa səbəbi insanların təkamül və tərbiyəsidir. Bəzi günahlar o qədər təhlükəlidir ki, onlara yaxın da getmək olmaz.
Oxşar ayə İsra surəsinin 31-ci ayəsində gəlmişdir. Ayədə deyilir: “Və yoxsulluqdan qorxub övladlarınızı öldürməyin. Biz onların da, sizin də ruzinizi veririk. Onları öldürmək həqiqətən böyük günahdır.” Öncəki ayədə övladların yoxsulluq səbəbindən öldürüldüyü barədə danışılır. Bu ayədə isə yoxsulluq qorxusu önə çəkilir. Qorxu və həyəcan çox olduğundan Allah öncə övladı, sonra valideyni sığortalayır və mümkün həyəcanı azaltmaq istəyir.[1] Bu fərqin səbəbi aclığın

1. “Təfsiri-Furqan”, c. 1. səh. 21

indiyə, yoxsulluq qorxusunun gələcəyə aidliyi ola bilər. Əvvəlcə “sizə və övladlarınıza ruzi verərik”, sonra isə “övladlarınıza və sizə ruzi verərik” buyurulur. Bu ayələr cahiliyyət dövrünün böhranlı iqtisadiyyatının simasını göstərir. Bugünkü dünyamızda iqtisadı problemlər və cəmiyyətin artımından nigaran olanlar çıxış yolunu doğuşların qarşısını almaqda görürlər. Bu da bir növ cahiliyyətdir.
Övladın yaşamaq haqqı var, valideyn onu bu haqdan məhrum etməməlidir. Yoxsulluq zərərindən qorxu gunah və başqalarının hüququnun pozulması üçün səbəb ola bilməz. İnsanın İlahi zəmanətə əminliyi onun günahlarına mane olur. Unutmayaq ki, Allah ata-anadan mehribandır və Ona bədgüman olmayaq.
Müqəddəs Kitabımızın Bəqərə surəsinin 233-cu ayəsində analıq hisslərinə diqqətdən, ana südünün əhəmiyyətindən, körpənin südə təbii ehtiyac ölçüsündən və südvermə müddətindən bəhs edilir: “Südvermə dövrünü kamala çatdırmaq istəyən analar övladlarına tam iki il süd versinlər. Bu anaların yeməyi və geyimi yaxşı bir vəchlə övlad sahibinin öhdəsinədir. Heç kimə gücündən artıq vəzifə tapşırılmaz. Heç bir ana və heç bir ata öz övladına xatir zərərə düçar olmamalıdır. (Ata olmadıqda ananın yeməyi və geyimi) onun varisinin boynunadır. Əgər ata və ana bir-birləri ilə razılıq və məsləhət əsasında körpəni (iki il tamam olmamış) süddən ayırmaq istəsələr, onlar üçün günah yoxdur. Əgər övladınıza dayə tutmaq istəsəniz, sizin üçün günah deyil. Bir şərtlə ki, bəyənilmiş halda müəyyənləşdirdiyinizi ödəyəsiniz. Allahdan çəkinin və bilin ki, Allah əməllərinizi görəndir.”
Ayədə ata, ana və övlad haqqında “əb” və “umm” sözləri yox, “valid” və “validə” sözləri işlədilmişdir. Çünki, “əb” və

"umm" sözləri əmiyə, müəllimə, zövcənin atasına (qaynataya) da şamil olunur.

Göründüyü kimi, islam əhatəli bir dindir. Hətta körpənin ana südü ilə münasib qidalanma rejimi vardir. Uca Allah öz hikməti ilə məsləhət görür ki, analar öz övladlarına iki il süd versinlər. Bu, uşağın həm sağlamlığına, həm də ruhiyyəsinə və düşüncəsinə müsbət təsir edir. Süd vermənin kamil müddəti iki ildir. Bu gün təbabət də deyir ki, süd vermə üçün ən yaxşı müddət iki ildlr.

Rəsuli-Əkrəm (s) buyurmuşdur: "Uşaq üçün ananın südündən yaxşı bir süd ola bilməz."[1] Deməli, həm Allah Təala, həm də Allah Rəsulu (s) ana südünü məsləhət bilirlər, bu çox mühüm məsələdir.

Həzrət Rəsulullah (s) buyurur ki, "axmaq və səfeh qadınların südünü övladlarınıza verməyin". Diqqət etməliyik, şəriətimizin sahibi bizə nə məsləhət görür. Burada söhbət hələ ana südündən gedir, hansı ki, süni qidalarla müqayisə etmək belə düzgün olmazdı.

Uşaq hüququ müstəvisində körpəyə süd verən ana və dayənin də maddi haqları ödənməlidir. Xərcin miqdarı ürfə (adət ənənəyə) əsasən təyin olunmalıdır, imkan həddində və bəyənilən miqdarda olmalıdır.

Vəzifə insanın güc və imkanına əsaslanır. Övlad valideyninə zərər səbəbi olmamalıdır. Nə ana öz övladından, nə də ata öz övladından mal baxımından, hüquqi baxımdan, məhəbbət və atifə baxımından zərər görməməlidir.

Körpənin atası dünyadan getmiş də olsa, südvermə dövründə ananın dolanışığı təmin olunmalıdır. Uşağın südəmər dövründə ər və arvadın ixtilafı müdafiəsiz körpənin haqqının tapdalanmasına bais olmamalıdır. Onlar bir birindən intiqam

1. "Nurus-səqəleyn» təfsiri, c. 1, s. 228

almaq məqsədilə uşağın taleyi ilə oynamamalıdırlar. Çünki, bu uşağın cisminə və ruhuna qarşısıalınmaz ziyanlar vurur.
Ayədən aldığımız digər nəticə budur ki, körpəyə süd verərkən təqvaya riayət olunması valideynin öhdəsinədir.
Həmçinin, Müqəddəs Kitabımızın Əhqaf surəsinin 15-ci ayəsində südvermənin müddəti ilə bağlı məsələyə toxunulur. Buyurulur ki, "... onu (ana bətnində) daşıması və (süddən) kəsilməsi isə otuz aydadır."
İslam dininin uşaqlar haqqında olan tovsiyələrindən biri də budur ki, övladlarınıza sevgi göstərərkən onlar arasında ayrı seçkilik etməyin və maddi imkanların bölüşdürülməsində ədalətə riayət edin. Bu məsələ fiqhi-hüquqi və tərbiyəvi cəhətdən əhəmiyyətlidir. Müəyyən üstünlüklərinə görə övladların birini daha çox sevmək, xüsusilə də, azyaşlı övladı daha çox sevmək qəlbin işidir və bu, insanın ixtiyarından xaricdir. Amma valideynlər digər övladları qarşısında bunu büruzə verməməli, öz rəftarları ilə övladlar arasında ayrı-seçkilik etməkdən çəkinməlidirlər. Övladlar arasında ayrı-seçkilik etmək və fərq qoymaq daha çox sevgi göstərilən övladın şıltaq olmasına və onun öz potensiallarından istifadə etməyib, tərəqqi etməməsinə bais olmaqdan əlavə, başqa övladlar üzərində də aşağıdakı mənfi təsirləri buraxır:

- Övladların ata-anaya sevgisi azalır, hətta bəzən onlarda elə təsəvvür yaranır ki, valideynləri onların düşmənidir.
- Onlar ruh düşgünlüyünə düçar ola bilər, bir kənara çəkilib özlərini toplumdan təcrid edə bilər, bəzi psixoloji xəstəliklərə düçar ola bilər, nəticədə inkişaf və tərəqqidən geridə qala bilərlər.

- Onlar başqa şəxslərdən yalançı sevgi gördükdə onlara tərəf yönələ, hətta bəzən onların bir təbəssümü ilə belə səhv yola düşə bilərlər.
- Valideynin daha çox sevgi göstərdiyi övlada qarşı onlarda həsəd yarana bilər, hətta ondan intiqam almaq fikrinə düşə bilərlər. Qurani Kərim Yusif peyğəmbərə (ə) qarşı məkrli plandan söz açaraq buyurur: "O zaman (onlar bir birinə) dedilər: "Yusif və onun qardaşı (Binyamin) atamız üçün bizdən daha sevimlidir, halbuki, biz güclü dəstəyik və (atamızın işlərini biz görürük). Dogrudan da, bizim atamız aydın bir azğınlıq içindədir. Yusifi öldürün, ya onu (uzaq və naməlum) bir yerə atın ki, atanızın diqqəti və sevgisi yalnız sizə yönəlsin..."[1]

Baxmayaraq ki, Yaqub peyğəmbərin (ə) Yusifə (ə) və onun qardaşı Binyaminə olan sevgisi ayriseçkilik deyildi və məntiqi səbəblər var idi, çünki, birincisi, onlar Yaqubun (ə) ən kiçik övladları idi və təbii ki, daha çox himayə və qayğıya ehtiyacları var idi; ikincisi, bəzi rəvayətlərə görə, onların anası Rahilə onlar uşaq ikən vəfat etmişdi və buna görə də onların daha çox nəvazişə ehtiyacları var idi; üçüncüsü, Yəqub peyğəmbər (ə) bu iki övladında, xüsusilə də Yusifdə böyük şəxsiyyət görürdü.

Valideynlər, həmçinin oğlan və qız övladı arasında da fərq qoymamalıdırlar. Amma təəssüflər olsun ki, bəzi ailələrin oğlanı qızdan və ya qızı oğlandan üstün tutduqlarını müşahidə edirik.

İmam Sadiq (ə) buyurub: "Qız" həsənə və "oğlan" nemətdir ki, Allah onu bəxş etmişdir. Qiyamətdə "həsənə"yə görə

1. Yusif surəsi, ayə 8-9

insana mükafat və savab verilir, amma nemətə görə sorğu-sual aparılır.”[1]

İslam dini zühur etməmişdən qabaq ərəb qəbilələri arasında qız övladına sahib olmaq rüsvayçılıq hesab olunurdu. Belə ki, kişiyə qız övladının dünyaya gəldiyini xəbər verəndə üzünün rəngi dəyişərdi. İslam dini bu düşüncəyə qarşı çıxdı və öz təlimləri ilə müsəlmanları bu cahiliyyət düşüncəsindən uzaqlaşdırdı.

İslamın bir tövsiyəsi də budur ki, övladınıza verdiyiniz sözə əməl edin. Bir hədisdə imam Kazım (ə) buyurub: “Uşaqlarınıza bir şeyi söz verəndə, ona əməl edin. Çünki uşaqlar elə təsəvvür edirlər ki, siz onların ruzi verənisiniz. İzzətli və cəlalətli Allah qadınlara və uşaqlara edilən haqsızlığa görə qəzəbləndiyi kimi heç nəyə qəzəblənmir.”[2]

Verdiyi sözə əməl etməmək qədər heç bir şey valideyni övladın yanında etibardan salmır.

Söylədiklərimizin nəticəsi olaraq deyə bilərik ki, islam baxımından tərbiyə üsullarında diqqəti cəlb edən ən mühüm metod kimi məhəbbət və qayğı özünəməxsus yer tutur və onun əksi şiddətlə pislənir. Bununla belə, onun ifrat dərəcəsinə də icazə verilmir. Buna görə də, uşağın tərbiyəsində məhəbbətlə bərabər qətiyyət, işlərinə ciddi nəzarət də diqqət mərkəzində durur. Bu üsula əsasən, uşaq məhəbbəti mənimsədiyi halda tam azad buraxılmır, istədiyi kimi də hər işə baş qoşmur. O, həqiqətdə qayğı və məhəbbət içində tərbiyə olunur.

Bəqərə surəsinin 132-ci ayəsində Haqq Təala buyurur: “İbrahim və (sonra da) Yəqub bunu (müsəlman olmağı) öz

---

1. Vəsailuş-şiə, “Övladın ehkamı” bölümlərindən 5-ci bölüm, hədis 7, c. 21, s.365
2. Öncəki qaynaq, 88-ci bölüm, hədis 5, s. 484

oğlanlarına vəsiyyət edib (hər biri dedi) : "Ey oğlanlarım, həqiqətən, Allah sizin üçün din (İslam dini) seçdi, siz də ancaq müsəlman olaraq ölməlisiniz!"
Ayənin orijinaldan hərfi tərcüməsi belə olur: "Ölməyin, müsəlman olmadan." Burada insanın istəyindən asılı olmayan bir hadisə, ölüm haqda söz açılır və əmr formasında "ölməyin" buyurulur. Məlum olduğu kimi insanın üzərinə yalnız onun iradi seçimi olan məsələlərdə bir öhdəlik qoymaq, bu və ya başqa şeyi əmr etmək mümkündür. Belə isə, ayə aşağıdakı kimi başa düşülə bilər: "Ölümün sizi İslamda olmadığınız halda yaxalamasından çəkinin. Yəni, hər zaman müsəlman olun və islamın tələblərini yerinə yetirin ki, ölüm sizi yalnız belə halda yaxalasın." Bu ayədə də bütün zamanlar üçün keçərli olan dinin İslam dini olduğuna dair bir işarə vardır.[1]
Başqa bir ayədə Allah Təala belə buyurur: "Allah yanında din, əlbəttə, İslamdır."[2] Deməli, haqq yol İslam və Allah qarşısında təslimçilik yoludur. Peyğəmbərlər həmin yolu sifariş etmişlər. Allah bütün yollar içindən bizim üçün din yolunu seçmişdir.
Quran İbrahimin vəsiyyətini nəql etməklə sanki, bu həqiqəti xatırlatmaq istəyir ki, siz insanlar təkcə övladlarınızın bu dünyasına və bu günlərinə deyil, həm də onların gələcəkləri üçün məsuliyyət daşıyırsınız. Dünya ilə vidalaşanda övladlarınızın təkcə maddi həyatı barədə nigaran olmayın, onların hayatlarını da fikirləşin. Həzrəti Yəqub (ə) da öz övladlarına həmin yolla getməyi tövsiyə etməsini cəddi İbrahimdən əxz etmişdi. Beləliklə də o, ömrünün son anlarında öz övladlarına xatırlatdı ki, səadət, müvəffəqiyyət və qələbə haqqın qarşısında təslim olmaqda xülasələnir.
Uşaqların gələcək taleyi ilə bağlı digər bir məsələ mübarək Nur surəsinin 32-ci ayəsində öz əksini tapmışdır. Ayədə

1. "Əl-Mizan" təfsiri, səh. 487
2. Ali-İmran surəsi, ayə 19

buyurulur: “Subay oğlanlarınızı və qızlarınızı, layaqətli qulam və kənizlərinizi evləndirin. (Yoxsulluqdan qorxmayın,) əgər yoxsul olsalar, Allah öz fəzli ilə onların ehtiyaclarını ödəyər. Allah geniş lütf sahibidir və biləndir. (O, sizin ehtiyaclarınızdan xəbərdardır və sizi təmin edəcəyini vəd etmisdir; O Öz vədini yerinə yetirməyə qadirdir.)”

Evlənmə islamda müqəddəs və təkid olunmuş bir işdir. İslam cəmiyyəti subay insanları evləndirməyə məsuldur. Məlum surənin öncəki ayəsində göstəriş verilən iffəti qorumaq və haram baxışa qadağa qoymaq bəs etmir, izdivac problemi həll olunmalıdır. Cəmiyyət saleh fərdləri evləndirmək istiqamətində addım atarsa, bu iş qeyri salehləri salehlər cərgəsinə qatılmağa təşviq edər. Cinsi ehtiyacın təmin eidlməsində insanlar arasında fərq yoxdur (qadin, kişi, qulam və kəniz arasında fərq qoyulmur). Ayədə bəyan olunur ki, yoxsulluq izdivaca mane olmamalıdır. Yoxsul olduğunuz vaxt Allaha təvəkkül edib ailə həyatı qurun. Allah evlənənlərin ehtiyacını təmin edəcəyini vəd etmisdir. İlahi vədlərin gercəkləşməsi Allahın sonsuz fəzlindən qaynaqlanır. Allahın Öz bəndələrinə nəsib etdiyi inkişaf və vüsət Onun elm və hikmətinə əsaslanır.

Ən üstün vasitəçilik şəfaət və izdivaca köməkdir. Rəvayətdə deyilir: “Birini evləndirən və ya ərə verən kəs Allahın ərşi kölgəsindədir.”[1] Övladların izdivac məsələsində valideynlər də məsuliyyət daşıyırlar, belə ki, bu işdə onlara dayaq durmalı və məsləhətlərini əsirgəməməlidirlər. İmkanlı olduğu halda övladını evləndirməyən ata-ana övladın mümkün günahına şərikdir.[2] Əlbəttə, evlənən tərəflərin səlahiyyətli olması şərtdir.

1. “Təfsire-Nurus-səqəleyn”, c. 1, səh. 45
2. “Təfsire-Məcməul-bəyan”, c. 2, səh. 67

Yəni tərəflər müştərək ailə həyatını idarə etmək səlahiyyətinə malik olmalıdırlar.

Ailə qurmaq istiqamətində verilən tərbiyə cinslərə mütənasib olmalıdır. İnsanın digər tələbatları kimi cinsi tələbi də tərbiyəyə ehtiyac duyur və hər mədəni rəftar və ideya xüsusi tərbiyəyə söykənir. İslam nöqteyi-nəzərindən cinsi tərbiyə, yəni cinsi istək və instinktin təmini həm cinsi iffət, həm də cinsi sağlamlıqla yanaşı olmalıdır. Bu isə dini dünyagörüşündə xüsusi əhəmiyyət kəsb edir və onda cinsi sağlamlıqla yanaşı cinsi iffət nəzərə alınır.

Dini baxımdan bu tələbin tərbiyəsi hökmən yetkinlik dövründən başlayır. İslamda cinsi tərbiyə, ondan əvvəl, təqribən, təvəllüdlə başlanır və bu da islam dininə xas keyfiyyətdir. Buna əsasən, bütün yaş dövrlərində bu hədəf və amalın təlimi üçün dini mətn və qaynaqlarda göstərilən xüsusi tədbirlərə ehtiyac vardır. Uşaqlıq dövrü isə yaş dövrlərinin ən mühüm çağını təşkil edir.

Əgər insan cinsi təmayüldən düzgün şəkildə və uyğun həddə istifadə edərsə, kamillik yolunda hərəkət edər, onun faydalı nəticələrinə nail olar. Ailə qurmağın bir sıra səmərələri və faydaları vardır. Bu faydalardan bəziləri kişi və qadının özünə, bəziləri isə cəmiyyətə aiddir. İzdivac nəticəsində cinsi təmayül təmin olunmaqla yanaşı ər və arvad arasında getdikcə ruhən bağlılıq və sevgi yaranır, bu da onları bir-birinin xoşbəxtliyini təmin etməyə sövq edir. Kişi və qadın insanın eyiblərini örtən, onu isti-soyuqdan və başqa təhlükələrdən qoruyan, onu gözəlləşdirən bir paltar kimi bir-birinin örtüyü olub, iffət yolunu qət etməkdə bir-birinə yardımçı və zinət hesab olunurlar.

İzdivaca aid mühüm məsələlərdən biri də həyat yoldaşı seçmək və bu seçimdə hansı meyarların əsas götürülməsi məsələsidir. İzdivac etmək fikrində olan oğlanla qız bir-birini

yaxşı tanımalı, dinc və rahat həyat üçün lazım olan meyarları araşdırıb nəzərə almalıdırlar. Çünki, bu zəmində hər cür səhlənkarlıq və tələsik qərar ailə həyatında saysız çətinliklərin ortaya çıxmasına səbəb olar.

Evlənmək istəyən cütlük arasında uyğunluq olmalıdır. Yəni onların ailə mədəniyyəti, düşüncə tərzi, rəftarları, hətta zahiri görkəmləri və maddi durumları bir-birinə uyğun gəlməlidir. Yalnız belə olduğu təqdirdə onlar bir-birini başa düşə bilər və qarşılıqlı anlayış sayəsində ailə yuvasını isti saxlaya bilərlər. Gələcəkdə layiqli övladlara sahib olmaq istəyən şəxs özünə dindar, nəcib və təmiz bir ailədə yetişən imanlı, əxlaqlı və dərrakəli həyat yoldaşı seçməlidir. Çünki, tərbiyə və mühitdən əlavə, irsiyyətin də övladın zəkasına böyük təsiri vardır. Bir-birinə uyğun olub olmadıqları qənaətinə gəlmək üçün kişi və qadın həyat yoldaşı seçimində azad olmalı, heç bir təzyiq və məcburiyyət olmadan izdivac etmək qərarına gəlməlidirlər. Təcrübə göstərir ki, basqı və məcburiyyət altında, heç bir istək və sevgi olmadan izdivac edən qız və oğlan ailə həyatından bəhrələnə bilməmişlər.

Odur ki, qız və oğlanın  valideynləri bu mühüm məsələyə diqqət yetirməli, izdivac məsələsində ovladlarına təzyiq və basqı göstərməkdən çəkinməlidirlər. Əks təqdirdə, onları peşmançılıqdan başqa bir sonluq gözəlmir.

Bunu da qeyd etməliyik ki, izdivac məsələsində yetərli təcrübəsi olmayan gənc qızlara dövranın isti soyuğunu dadmış ağıllı və uzaqgörən şəxslərlə, xüsusilə də övladlarına qarşı hamıdan çox ürək yandıran ata və ana ilə məsləhətləşmək tövsiyə olunur. Beləcə, övlad həm ata və ananın təcrübələrindən faydalanar, həm də onu böyütmək və tərbiyələndirmək üçün çəkdikləri zəhmətə təşəkkür etmiş olar.

Bakirə qızların izdivacında atanın icazəsinin şərt olması bəzi hallarda elə bu məqsədi daşıyır və onların xeyrini təmin etməkdən ötrüdür. Amma əgər atanın istəyi qızının xeyrınə olmazsa, bu vaxt atanın icazəsi daha şərt deyildir.

İzdivac etməyin mühüm cəhətlərindən biri də bəşər nəslinin davam etməsi uçun yolun olmasıdır. Mütəal Allah Qurani-Kərimdə qeyd edir ki, insanın öz cinsindən ona zovcə yaratmaqda hədəflərdən biri, insanların sayının artmasıdır.[1]

Ailə həyatı, evlilik və ailə hüquqları barədə nazil olmuş Nur surəsinin 58-ci ayəsində buyurulur: "Ey iman gətirənlər! Sahibi olduğunuz qullar və sizin yetkinlik yaşına çatmayanlarınız (otağınıza daxil olmaq üçün) üç vaxtda sizdən icazə alsınlar: sübh namazından öncə, günorta libasınızı çıxardığınız vaxt və işa namazından sonra. Bu üç vaxt sizin üçün xəlvətə çəkilmə vaxtıdır. Qalan vaxtlarda icazəsiz daxil olmaq sizin üçün və onlar üçün günah deyil. Çünki onlar sizinlə daim get-gəldədir, bəzisi bəzisinin yanına daxil olur. Allah öz ayələrini sizin üçün bu sayaq bəyan edir. Allah elm və hikmət sahibidir."

Bu ayədə müsəlman bir ailədə diqqət edilməsi lazım olan önəmli ədəb qaydaları önə çəkilir, namaz vaxtları diqqətə çatdırılır. Qeyd olunan üç vaxt insanın istirahət zamanıdır, həssas və qorunmaq lazım olan bir zaman kəsiyidir. İffəti, həya duyğularını mühafizə etmək üçün otağa daxil olan zaman izn istəmək şərtdir. Bu göstərişlərdə məqsəd çirkin işlərin, vaxtsız yetkinliyin qarşısını almaq, abır həyanı qorumaqdır.

Mömin valideynlər övladlarına dini hökmləri öyrətməyə məsuldurlar. Uşaqların tərbiyəsinə və onlara İslam qaydalarını təlim etməyə yetkinlikdən öncə başlamaq lazımdır. Əlbəttə, uşaqlar paklığı ilk öncə ailə mühitində öyrənməlidirlər. Həmçinin, uşaqlar ailə daxilində öz vəzifələrini bilməlidirlər.

1. Şura surəsi, ayə 11

Uşaq və ya qul olmaq başqalarının otağına icazəsiz giriş üçün dəlil deyildir.
Valideynin yataq yeri ayrıca, övladların gözündən uzaq olmalıdır. Əks təqdirdə otağa daxil olmaq üçün icazəyə ehtiyac qalmazdı.
Uşaqlarla bağlı diqqət çəkən növbəti ayəyə nəzər salaq. Nur surəsinin 59-cu ayəsində oxuyuruq: "Uşaqlarınızın buluğ (yetkinlik) həddinə çatdığı vaxt öncə yetkinliyə çatmış böyüklər kimi (giriş üçün) icazə almalıdırlar. Allah Öz ayələrini sizin üçün bu sayaq bəyan edir. Allah elm və bilik sahibidir."
Ayədə işlənmiş "hulum" sözü yuxuda cünub olmaq (insandan sperma xaric olması) mənasina gəlir. Bu hal buluğ həddinin nişanələrindəndir. Qızların və oğlanların buluğ nişanələri fərqlidir və bu nişanələr risalələrdə bəyan olunmuşdur.
Mübarək Saffat surəsinin 102-ci ayəsində buyurulur: "O, yüyürüb qaçmaq çağına çatdığı zaman (İbrahim) dedi: "Ey oğlum! Mən yüxüda gördüm ki, mən səni qurban kəsirəm. Bax gör nə fikirləşirsən!" O dedi: "Atacan! Sənə əmr olunanı yerinə yetir. İnşallah, mənim səbirlilərdən (olduğumu) görəcəksən!"
"Şuara" surəsinin 83-cü ayəsində həzrət İbrahim Allahdan diləyir ki, onu salehlərdən qərar versin. Bu ayədə isə o, övladının salehlərdən olmasını diləyir. Peyğəmbərlər arasında yalnız İbrahim və İsmayıl öz helmləri ilə vəsf olunmuşlar. "Həqiqətən İbrahim çox ah çəkən və həlim idi."[1] Saleh övlad İlahi hədiyyə və peyğəmbərlərin dualarından biridir. Əsas məsələ övladın gözəlliyi və ya ağlının iti olması yox, onun saleh olmasıdır. Ailənin Allaha doğru hərəkəti üçün saleh

1. Tövbə surəsi, ayə 114

övlad ən üstün yardımçıdır. Ailədə ata öz övladları ilə mehriban davranmalı, onlara hörmət göstərməlidir. Allah yolunda bütün əsarətlərdən, hətta övlada bağlılıqdan azad olmaq lazımdır. Həzrət İbrahim (ə) bir ömür yolunu gözlədiyi, dua və yalvarışlarla Allahdan aldığı övladı, ona kömək olan bir vaxtda öz əli ilə qurban kəsməyə hazir olur.

Ayədən aydın olur ki, Allah bizə bəyan edir ki, övladlarınızın şəxsiyyətini inkişaf etdirmək üçün onlarla məsləhətləşin və onların mülahizələrini öyrənin. Xalqın hazırlığını dəyərləndirmək üçün onların fikrini öyənmək açıq aydın işlərdə faydalıdır. Həzrət İbrahim (ə) öz yuxusuna şəkk etməsə də, yenə İsmaillə məsləhətləşdi. İnsan ömrünün zirvəsi onun fədakarlıq dövrüdür. İsmail gənclik dövrünədək bir neçə mərhələ keçmişdi. Növcavanlıq isə onun çiçəkləndiyi bir mərhələ idi. Olsun ki, bu baxışdan Allah İbrahimi "növcavanla" müjdələyir. Mömin insan Allaha təslimdir, Onun göstərişləri müqabilində bəhanə gəzmir.

Öz növbəsində ataya onun işlərində kömək göstərmək övladın yaxşılığını göstərir. Gərək uşaqlar da böyükləri İlahi işlərə təşviq edib ürək-dirək versinlər. Vəzifəyə əməl etmək üçün səbir və dözümə ehtiyac var. Səbir isə Allahdan istənilməlidir. Səbir və dözüm salehlərin xüsusiyyətlərindəndir. İsmailin səbri Allahın bu növcavanın həlim olması ilə bağlı vədi idi. Kamillikləri öz qazancımız yox, Allahın hədiyyəsi bilək. Allah yolunda addım ataq və Onun lütflərinə əmin olaq. Çünki, ilahi insanlar üçün çıxılmaz vəziyyət yoxdur, onlar Allaha təvəkkül və diqqətlə çıxış yolu tapırlar.

Beləliklə, belə bir nəticə alırıq ki, insanın uğur qazanmasına bais olan amillərdən biri də məşvərət etmək, məsləhətləşməkdir. Çünki, bilikli, təcrübəli və ürəyiyanan insanlarla məsləhətləşdikdə, insan onların bilik və təcrübəsindən faydalanır. Odur ki, başqaları ilə

məsləhətləşməyi uşaqlara əməli surətdə təlim etmək üçün valideynlərin öz azyaşlı övladları ilə də məsləhətləşmələri tövsiyə olunur. Bundan əlavə, böyüklər uşaqlarla məşvərət etdikdə uşaqlar özlərini əhəmiyyətli hesab edir və düşünüb öz fikirlərini deməyə çalışırlar.

Qurani-Kərimin Loğman surəsinin 13-cü ayəsindən 19-cu ayəsinə kimi olan mətnində əsasən Loğmanın oğluna nəsihətləri öz əksini tapmışdır. Bu nəsihətlərlə bağlı müfəssirlərin (Möhsün Qiraəti. Nur təfsiri) təfsirlərinə müraciət edək. Sözügedən surənin 13-cü ayəsində buyurulur: "Bir zaman Loğman öz oğluna nəsihət edərək demişdi: "Ey oğlum! Allaha şərik qoşma! Şübhəsiz, (Allaha) şərik qoşmaq böyük zülmdür!"

Yuxarıda qeyd edilən surənin 14-cü ayəsində əvvəlcə insanın ata-anasına yaxşılıq etmək tapşırılır, sonra ananın hamiləlik dövrünə işarə olunur. Bu yolla insanın əxlaqi vicdanını oyatmağa cəhd edilir. Valideynin və övladın qarşılıqlı hüquqları var. Ötən ayədə atanın övlada nəsihəti bəyan olundu. Bu ayədə isə övladın ata-anaya ehsanından danışılır. Bütün insanlar çatdıqları məqamdan asılı olmayaraq valideynə borcludurlar. Valideynə hörmət təkcə islami yox, həm də insani bir haqdır. Bu hüquq müvəqqəti xarakter daşımır, həmişəlikdir. Valideyn kafir olsa belə ona ehsan etmək lazımdır.

Hamiləlik və südvermə dövrü ana qarşısında vəzifələr yaradan və övlad şəxsiyyətinin formalaşdığı ən mühüm dövrdür. Valideynə təşəkkür Allah qarşısında böyük dəyərə malikdir. Allaha sükür etdikdən sonra valideynə təşəkkür məsələsi önə çəkilir.

15-ci ayədə oxuyuruq: "Əgər o iki nəfər (ata-ana) bilmədiyin bir şeyi Mənə şərik qoşmağın üçün çalışsalar onlara itaət etmə.

Amma dünyada onlarla xoşrəftar ol. Mənə doğru (tövbə edib) qayıdan kəsin yolunu tut. Qayıdışınız Mənə doğrudur, sizi gördüyünüz işlərdən xəbərdar edərəm."

Valideynin məqamı o qədər ucadır ki, bu ayədə hətta insanı şirkə sürükləyən valideynlə pis rəftar etməmək tapşırılır. Yəni övlad valideynə itaət etməməli olduğu halda belə onu tənha buraxmamalıdır.

İnsan fitri olaraq tövhidə meyllidir, ətrafdakılar onu şirkə sürükləməyə çalışır. Ayədə valideynə itaət əmri verilməklə yanaşı, valideynin azmağına da diqqət çəkilir. Allahın haqqı bütün haqlardan, o cümlədən valideynin haqqından öndədir. Büdrəmə ehtimalı olan yerdə valideynə itaət edilməməlidir. Amma adi həyat tərzi hifz edilməlidir. Ömrün sonunadək valideynlə yaxşı rəftar etmək zəruridir, hətta valideyn müşrik olsa belə. Bəzən əqidə seçimi və ailədə rəftar arasında fərq qoymaq lazım gəlir. Adi həyatda valideynə hörmət göstərilməli, həyat yolunda paklar və salehlər nümunə götürülməlidirlər.

16-cı ayədə Loğmanın oğluna daha bir nəsihəti bəyan edilir: "Ey oğlum! Əgər (sənin əməlin) xardal dənəsi ağırlıqda olsa, daşın köksündə, göylərdə və ya yerdə gizlənsə, Allah onu (Qiyamətdə hesab üçün) hazır edər. Çünki Allah dəqiq və agahdır."

Xardal kiçik qara dənələri olan bitkidir. Xardal dənəsi kiçikliyi göstərmək üçün misal çəkilir. Aydin olur ki, övladı İlahi elm və qüdrətlə tanış etmək hikmət nişanəsidir. Moizədə hər tövsiyədən öncə qarşı tərəfin adını təkrarlamaq təsirlidir. Kamil dəyərləndirmə və nəzarətdə ən kiçik işlər də nəzərə alınmalıdır. Allah hər şeydən xəbərdar və hər şeyə qadirdir. O, dəqiq hesab aparır, çünki Lətifdir.

17-ci ayədə buyurulur: "Oğlum! Namazı bərpa et, yaxşılığa çağır, pisliyə qadağa qoy (əmr bə məruf və nəhy əz münkər

et), üzləşdiyin çətinliklərə müqavimət göstər. Bu (səbir) vacib və mühüm işlərdəndir.”

Quranda 28 dəfə namazla yanaşı zəkat zikr olunmuşsa da, burada namazla birlikdə əmr bə məruf (yaxşılığa çağırış) yada salınır. Ayədə sərvəti olmayan oğula müraciət edildiyindən zəkat tapşırığı zəruri sayılmaya bilər. Bəzən müsibətlər, bəzən vəzifənin ağırlığı, bəzən günah qarşısında səbir etmək lazım gəlir. Ayədən başa düşülür ki, əmr bə məruf və namaz təkcə islama aid vacib əmrlərdən deyil. İslamdan öncə də Loğman namaz tövsiyəsi verirdi.

Övladı namaza dəvət etmək valideynin vəzifələrindəndir. Yaranış və məada diqqətdən sonra ən mühüm əməl namazdır. Valideynlərə tövsiyə olunur ki, övladlarınızı namaza dəvət etməklə möminliyə, əmr bə məruf və nəhy əz münkər yolu ilə ictimailiyə sövq edin. Onları yaxşılığa çağıran və pisliyə qadağa qoyan insanlar kimi tərbiyə edin. İnsanın bu yolda səbr etməsi dəyərlidir. Həm də doğru yolda olmaq bəs etmir, başqalarını da bu yola dəvət etmək lazımdır.

Əmr bə məruf dedikdə yaxşılıqların tövsiyəsi, nəhy əz münkər dedikdə pisliklərin qarşısının alınması nəzərdə tutulur. Loğmanın öz övladına əmr bə məruf və nəhy əz münkər göstərişi verməsi bu vəzifələrin yaşdan asılı olmamasını göstərir. Yaxşılığa çağırış əqidə məktəbinə eşq nişanəsidir. Xalqa məhəbbət, cəmiyyətin sağlamlığına maraq, söz azadlığı, dini qeyrət, səmimi dostluq rabitələri, pak fitrət, ümumi nəzarət, ictimai fəallıq əmr bə məruf nişanələrindəndir.

## Nəticə

Müttəqilərə doğru yol göstərən, haqq olduğunda heç bir şəkk-şübhə olmayan Müqəddəs Kitabımızda uşaqlarla bağlı gələn surələri və ayələri, böyük zəhməti olmuş əziz alimlərimizin Qurani Kərimin təfsirlərinə istinad edərək uşaqların haqq və hüquqlarını, vəzifələrini, tövsiyələri, tərbiyə üsullarını nəzərdən keçirdik.

Əgər gələcəyimizi bugünün uşaqlarına əmanət ediriksə, onların düzgün tərbiyə olunması, hansı ideyalara qulluq etməsi hər birimizi ciddi düşündürməlidir.

İslam uşaq hüquqlarını həssaslıqla və bu məsələyə xüsusi diqqət ayıraraq bəyan etmişdir. İslamda uşaq hüquqları, ata və ananın evliliyi anından başlanır və buna riayət olunmalıdır. İslam, infrastruktur sağlamlığa şəraitin yaradılmasına, nikah zamanından diqqət olunmasına tövsiyə edir.

Valideynin evliliyindən uşağın dünyaya gələn zamana qədər və bundan sonra, islamın hüquqlara və şəraitlərə riayət etmə məsələsinə təkidlə yanaşması, onun saleh nəslin yetişməsinə nə qədər önəm verdiyinin göstəricisidir.

Valideynin layiqli insan olması, halal qida, nütfənin ləyaqətsiz insanlardan qorunmasına əhəmiyyət, ananın hamiləlik zamanı kifayət qədər və münasib qida ilə təmin olunması, ana bətnindəki dölün qayğısına qalmaq, onu qorumaq və s. islam dininin uşaq barəsindəki tövsiyələrindəndir. Uşağın dünyaya gəlməsindən sonrakı mərhələdə də, islam dini uşaqlar üçün hüquqlar təyin etmiş və ona riayət olunmasını təkidlə vurğulamışdır.

## İstifadə olunan ədəbiyyat

1. Məhəmməd Məhəmmədi Reyşəri, "Ömrün meyvəsi", Ələm nəşriyyatı, 2014-cü il.
2. Ayətullah-üzma Musəvi Ərdəbilinin nəzəri əsasında, "Qadınlar bilməlidir", tərtib edən Nasir Mukarian, Bakı, "Nurlar" Nəşriyyat-Poliqrafıya Mərkəzi, 2017-ci il.
3. Ayətullah Məkarim Şirazinin rəhbərliyi ilə bir qrup alimin əsəri, "Nümunə təfsiri", "Dinin fəxri" nəşriyyatı, 2002-ci il.
4. Möhsün Qiraəti, "Nur" təfsiri, Bakı, "Nurlar" Nəşriyyat-Poliqrafiya Mərkəzi, 2014-cü il.
5. Fəqih Mühəddis Məhəmməd ibn Əl-Həsən Əl-Hürr Əl-Amulinin əsəri, "Vəsailuş-şiə", "Alul-beyt müəssisəsi"nin araşdırması, 30 cilddə
6. Əllamə Seyyid Məhəmmədhüseyn Təbatəbai, "Əl-Mizan Qurani Kərimin təfsiri", Bakı, "Qələm" nəşriyyatı, 2010-cu il.
7. Qurani Kərim. Tərcüməçilər: Ağabala Mehdiyev və Dürdanə Cəfərli, Bakı, 2008-ci il.
8. Möhsün Qiraəti. Dinimi öyrənirəm. Bakı, "Zərdabi LTD" MMC, 2019-cu il.
9. Əbdülhəkim Süleymani. İslamda insan haqları. Əl-Mustafa Virtual Universitetinin magistratura pilləsi üçün dərslik.

# İslamda ailə

**Ağamoğlan Cəfərov**[1]

## Abstrakt

İslam dinc və sülhsevər din olaraq insanları xeyirxah işlər və yaxşı əməllər görməyə çağırır. İslamı ümumbəşəri din edən xüsusiyyətlərdən biri də onun Peyğəmbərinin(s) bütün aləmlərə, bütün bəşəriyyətə mərhəmət olaraq göndərilməsidir. Qurani-Kərimdə Muhəmməd(s) Peyğəmbərin bəşəriyyətə mərhəmət olaraq göndərildiyi və peyğəmbərlərin sonuncusu olduğu bildirilir.

İslam demokratiya, hüquq, ədalət, bərabərlik və azadlıq ideyalarını tərənnüm etmiş, din, vicdan, inanc və əqidə məsələlərində müsəlmanlarla qeyri-müsəlmanlar arasında bərabərliyin təminatçısı olmuşdur.

İslam əxlaqı sistemi elə həyat tərzi təbliğ edir ki, müsəlmanı yaxşılıq etməyə və pislikdən çəkindirməyə çalışsın.

---

1.İslam Araşdırmaları fakültəsinin məzunu, İslam Araşdırmaları institutu, Əl-Mustafa Beynəlxalq Virtual Universiteti, Qum, İran.

## İslamda sülh

Qurani-Kərim: ***“Məni yad etməkdən üz döndərən kəs üçün isə (qeyb aləmindən qırıldığı, nəfsi qane olmadığı, gözü doymadığı, arxalandığı dayaqlar süst olduğu və hadisələrdən qorxduğu üçün, var-dövləti çox olsa belə) mütləq sıxıntılı həyat olacaqdır və Qiyamət günü onu Məhşərə kor gətirərik.”***[1] Qurani-Kərim Allah-Taalanı yenilməz qüvvət sahibi bildirib deyir ki, yaxşı və xoşbəxt həyata can atan insan imandan üz döndərməklə, uğurlara və səadətə aparan yoldan və bütün bu faydalardan üz çevirmiş olur. Hər birimiz özü üçün indi nəyin vacib olduğunu müəyyənləşdirməli və gələcəkdə də nə qədər əhəmiyyətli olacağını fikirləşməlidir. Əgər insan qanuni üsullarla səadət yolunu seçibsə, bu işdə Allah-Taala ona kömək edər və o, qəlbində xoşbəxtlik və əminamanlıq tapar. Allah-Taala insanı həm yoxsulluq, həm də zənginliklə sınağa çəkə bilər və bu sınaqlardan hansının insana daha çətin olduğunu yalnız O bilir. Yalnız mömin insana Uca Yaradan yenilməz qüvvət verər və bu həyatda məruz qaldığı imtahana görə və Allah-Taaladan aldığı hər bir şey üçün Allaha şükür edər.

İslam dinc və sülhsevər din olaraq insanları xeyirxah işlər və yaxşı əməllər görməyə çağırır. Qurani-Kərimdə belə deyilir: “Şübhəsiz, Allah təqvalı olanlarla və yaxşı işlər görən kəslərlədir.”[2] “Və (kafirlərin casusları tərəfindən) təqvalılara deyilər: "Rəbbiniz nə nazil etmişdir?" Deyərlər: "(Başdan-başa) xeyir və yaxşılıq (gözəl hökmlər və gözəl savablar)!" (Bəli) yaxşılıq edənlər üçün bu dünyada gözəl mükafat (pak və gözəl həyat) vardır və şübhəsiz, (onlar üçün) axirət evi daha yaxşıdır. Təqvalıların evi necə də gözəldir!"[3] "Onların daxil

---

1.Taha surəsi, ayə124
2.Ən-Nəhl surəsi, ayə 128
3.Ən-Nəhl surəsi, ayə 30

olacaqları əbədi bağların (ağaclarının) altından çaylar axır. Orada onlar üçün istədikləri hər bir şey vardır. Allah təqvalıları belə mükafatlandırır."[1] "O kəslər ki, mələklər, canlarını onlar (küfr və itaətsizlik çirkinliyindən) pak olan halda alarkən (onlara) "salam olsun sizə, etdiklərinizin mükafatı olaraq Cənnətə (hələlik Bərzəx aləmindəki Cənnətə, Qiyamətdən sonra isə əbədi Cənnətə) daxil olun" deyərlər."[2]
Həqiqi mömin üçün İslam dini dünyanın bilik sərhədlərini genişləndirir. İslam dini barədə şəriət qanunları 1400 il bundan əvvəl yaranmışdır. Əgər İslama xas olan bütün keyfiyyətləri cəmiyyət və insanlar düzgün anlayıb riayyət etsələr dinin rolunun aşağıdakı funksiyalara bölmək olar:

1. İslam dini insanlığı doğru yola istiqamətləndirən həyatın mənasını ifadə edən sülh və təqva yoludur.

2. İslam insanlar üçün hidayət və rahatlıq yolu, həyatlarına isə ümid və dayaqdır. İnsanlar həyatlarının çətin anlarında, kədər və narahatlıq üz verəndə dinə üz tutumaları təsadüfü deyil. Mömünin Peyğəmbəri Muhəmmədə (s) olan məhəbbəti onun daxilən dəyişilərək ədəb və davranışında idealı olan Peyğəmbərinə(s) oxşamağına can atmasıdır.

3.İslam dini biliklərini zənginləşdirən müsəlman öz dinini digər insanlara çatdırmağa (təbliğ etməyə) qadir olur, çətinliklərə, ona qarşı olan rişğənd və təhqirlərə baxmayaraq İslamın ədalətli, insanlara yalnız yaxşılıq gətirən bir din olduğunu bildirir. O təmiz qəlbli, yüksək əxlaqlı bir insana çevrilir ki,digər insanlar da ona oxşamağa və ondan nümunə götürməyə çalışır.

---

1.Ən-Nəhl surəsi, ayə 31
2.Ən-Nəhl surəsi, ayə 32

4.İslam mənəvi dəyərlər, halal-haram məsələlərində dindarın hərəkətinə nəzarət edir. İslam - İslam qanunları ilə tamamilə və ya qismən yaşayan böyük icmalara və bütün dövlətlərə təsir göstərmək qüdrətinə malik bir dindir. Ancaq İslama aid olmaq insanın qınanmalı bir hərəkət etməməsinin, cəmiyyətin əxlaqsızlığa və qanunsuzluğa düşməsinin qarşısını həmişə ala bilmir. Bu kədərli vəziyyət insan ruhunun dünyada şeytani əməllərin qarşısında aldanmalarının nəticəsidir.

5.Əgər insanlar uca yaradanın "Parçalanmayın" sözünə əməl etsələr Islam dini xalqların, millətlərin birləşdirilməsinə, təhsilə və dövlətçiliyin güclənməsinə kömək edər.

6.İslam dini cəmiyyətin mənəvi həyatının əsas hissəsidir. İslam ədəbiyyatı və incəsənəti, memarlığı bu günə kimi bəşəriyyəti heyran etməkdə davam edir, elmlərin çoxu İslam yarandığı gündən etibarən inkişaf tapmışdır. Beləliklə İslamın yaradıcı din olduğunun nəticəsinə gəlirik.

7.İslam ictimai asayişi gücləndirməyə, ailə ənənələrinə və həyat qanunlarına kömək edən dindir. Din həmişə təməllərini, sabitliyi, qayda və qanunları qorumağa çalışır. Bu müasir zamanımıza, hər bir fərd, cəmiyyət və dövlətlərə vacibdir. İnsanlar fikirlərini dəyişib günah və haramlara müqavimət göstərsə, niyyəti onların xarakterinini yaxşılığa yönəldər, özlərini və cəmiyyəti dəyişdirə biləcəklər. Müsəlmanlar bir-birinə qarşı mərhəmətli olmalı, qayğı və məhəbbət göstərməli, ətrafdakılara qarşı təmannasız xeyirxaq və diqqətli olmalı, bunun müqabilində minnətdarlıq gözləməməlidir.

Bir dinin adı altında ortaya çıxdığını bildirən insanlardan bir qismi o dini səhv anlamış və səhv tətbiq etmiş ola bilər. Bu səbəblə də həmin insanlara baxaraq o din haqqında fikir söyləmək yanlış olar. Müasir dövrdə gənclərimizin Allahın yoluna qayıtması hər kəsi sevindirmişdi. Bununla İslam

Universitetləri, mədrəsələri, elm məclisləri çoxaldı, gənclərimiz İslam dininə yiyələnməyə başladılar. Lakin bəzi radikal qruplar İslam gənclərinin birliyini pozaraq onları terrora, çirkin əməllərə yönəltdilər.

Bütün bunlar göstərir ki, günahsız insanlara qarşı terror əməlləri hazırlamaq və onları həyata keçirmək İslama tamamilə zidd bir işdir və heç bir müsəlman belə bir günah edə bilməz. Əksinə, müsəlmanlar bu gün belə günah iş tutan insanların qarşısını almaqla yer üzündəki fitnə-fəsadı aradan qaldırmağa və bütün insanlara rahatlıq və əmin-amanlıq gətirməyə görə məsuliyyət daşıyırlar. Müsəlmançılıq terrorla bir yerdə ola, hətta birgə təsəvvür edilə bilməz, əksinə, İslam terrorun qarşısındakı ən böyük maneə və terror probleminin çözülməsi yoludur.

Allah Təala buyurur:**"Beləliklə, əgər sən(in dəvətin)ə cavab verməsələr, bil ki, onlar öz (nəfsi) istəklərinə uymuşlar. Allahın hidayəti olmadan, öz (nəfsi) istəklərinə uyandan daha çox azğın kim ola bilər?! Həqiqətən, Allah zalım tayfanı doğru yola yönəltməz."**[1]

Başqa bir ayədə Allah-Taala buyurur: **"(Məbud, Allaha yaxınlaşdıran və şəfaətçi adlandırılan) bu bütlər sizin və atalarınızın (onlara) qoyduğunuz quru adlardan başqa bir şey deyildirlər. Allah onlar(ın haqq olmaların)a dair əsla bir dəlil-sübut nazil etməmişdir. (Bəli,) onlar yalnız gümana və nəfsi istəklərə tabe olurlar, halbuki Rəbbləri tərəfindən onlara hidayət vasitəsi (Qur'an və Peyğəmbər) gəlmişdir.“**[2]

---

1.Əl-Qəsas surəsi, ayə 50
2.Ən-Nəcm, surəsi ayə 23

Lakin radikal qruplar və onların nadan başçıları İslam gənclərini dində həddini aşmağa və İslam dini ilə əlaqəsi olmayan çirkin əməllərə sövq etdilər.
Allah-Təala buyurur:**"De: «Ey kitab əhli, öz dininizdə haqsız yerə ifrata varmayın (bəşər övladını Allah və ya Allahın oğlu, yaxud üç Allahdan biri hesab etməyin) və həmçinin bundan qabaq (fitrətin düz yolundan) azmış, çoxlarını azdırmış və doğru yoldan (peyğəmbərlərin şəriətlərindən) sapmış dəstənin nəfsi istəklərinə tabe olmayın»."**[1]
Əlbəttə ki, dində həddini aşaraq İslam gənclərini radikallığa və İslam dini tərəfindən lənətlənmiş terror hadisələrinə cəlb edənləri şeytan aldatmış, onları doğru yoldan uzaqlaşdıraraq onların çirkin əməllərini gözəl göstərmişdir. Uca Allah Qurani-Kərimdə belə insanlar haqqında buyurur: **"Pis əməlləri onun üçün zinətlənmiş olan və onları gözəl görən (bilən) bir kəs, (həqiqəti görən mömin kimidirmi? Əsla belə deyildir) çünki, Allah (bəşəri dəvət edib dəlilləri təqdim etdikdən sonra) istədiyini azğınlıqda buraxar və istədiyini doğru yola yönəldər, belə isə məbada onlara görə olan təəssüflər və kədərlər üzündən canın əldən gedə! Allah onların nə etdiklərini biləndir."**[2]
Başqa bir ayədə Allah-Taala buyurur: **"Belə isə məgər (işləri) öz Rəbbi tərəfindən dəlil-sübut (təməli) üzərində olan kəslər (möminlər kimi ağıl və şəriətə əsaslananlar) pis əməlləri özlərinə gözəl göstərilən və öz nəfsi istəklərinə tabe olan kəslər kimidirlər?!"**[3]
Uca Allah həmçinin buyurur: **"Belə isə, məgər (yolun enişli-yoxuşlu olması üzündən) yıxılaraq və üzü üstə sürünərək**

---

1.Əl-Maidə, surəsi ayə 77
2.Fatir surəsi, ayə 8
3.Məhəmməd surəsi, ayə 14

**yol gedən şəxs daha artıq hidayət tapmışdır, yoxsa dik qamətlə düzgün yolda gedən şəxs?! (Daim küfr və pozğunluq sapqınlığında həyat yolu gedən kafir, ya dinin düz yolunda imana söykənən bir mömin daha artıq hidayət olunmuşdur?!)”**[1]

Məlum olduğu kimi İslam dini həmişə fitnə fəsadın əleyhinə olmuş və onunla mübarizə aparmışdır. Çünki İslam dini rəhmət və mərhəmət dinidir: Uca Allah Qurani-Kərimdə sonuncu Elçisi Muhəmmədi (s) insanlara rəhmət olaraq göndərdiyini bildirmişdir.

Allah-Taala buyurur: **“Ramazan ayı insanların bələdçisi, aşkar hidayət dəlillərinə malik və (haqq ilə batili bir-birindən) ayıran Quranın nazil olduğu bir aydır. Buna görə də sizdən bu ayı görən (öz vətənində olan) kəs, onu (o ayı) oruc tutmalıdır.Xəstə, yaxud səfərdə olan kəs isə başqa günlərdə bir neçə gün (oruc tutmadığı günlərin sayı qədər oruc tutmalıdır).Allah sizin üçün asanlıq istəyir, sizin üçün çətinlik istəmir. Həmçinin (istəyir ki,) müəyyən olunmuş miqdarı (otuz günü) tamamlayasınız və sizi hidayət etməsinin şükrü olaraq "təkbir" deyərək Allahı əzəmətli sayasınız, bəlkə (Onun) şükrünü yerinə yetirə bildiniz.”**[2]

Həmçinin İslam dini insanlara həmişə orta yolu seçməyi bildirmiş, şiddətli olmağı və həddini aşmağı qadağan etmişdir.

Allah Təala buyurur: **“(Sizin üçün müstəqil bir qiblə təyin etdiyimiz kimi) sizi orta (ifrat və onun ziddi arasında mötədil) bir ümmət etdik ki, (Qiyamət günü) siz insanlara şahid olasınız və bu Peyğəmbər də sizə şahid olsun. Biz**

---

1.Əl-Mülk surəsi, ayə 22
2.Əl-Bəqərə surəsi, ayə 185

**sənin əvvələr üz tutduğun qibləni (Beytül-Müqəddəsi) Peyğəmbərə tabe olan şəxsi geri dönən (və keçmiş qiblədə qalan) şəxsdən ayırd etməkdən (əzəli elmimizi xaricdə gerçəkləşdirməkdən) başqa bir şey üçün (qiblə) təyin etməmişdik. Hərçənd ki, bu hökm Allahın hidayət etdiyi şəxslərdən başqası üçün çətin və ağır idi. Allah sizin imanınızı (keçmiş etiqadlarınızın, yaxud əvvəlki qibləyə üz tutub etdiyiniz ibadətlərin savabını) zay etmək istəmir. Həqiqətən Allah insanlara qarşı olduqca şəfqətli və mehribandır."[1]**

İslam ümmətinin əsas xüsusiyyəti də budur. Hətta Allah-Taala hər şeydə, hətta yemək-içməkdə belə həddini aşmağı qadağan etmişdir.

Allah-Taala buyurur: **"Ey Adəm övladları, hər namaz vaxtı və hər bir məsciddə (əməl və məkana uyğun olaraq) bəzək və zinətlərinizi götürün (gözəl geyinin), (Allahın halal buyurduğu bütün halal yeməklərdən) yeyin-için, lakin israf etməyin ki, O, israf edənləri sevmir."[2]**

Başqa bir ayədə Allah-Taala buyurur:**"Və əlini bağlayıb boynuna qoyma (vacibləri verməkdə xəsislik etmə) və onu tamamilə də açma (özün möhtac olacağın həddə qədər vermə) ki, qınanmış və aciz halda düşüb qalarsan."[3]**

Çox təəssüf ki, bugünkü dövrümüzdə radikal qruplaşmalar dini məsələlərdə hədlərini aşaraq batilcəsinə, səfirlikləri, ticarət mərkəzlərini, məscidləri avtobusları və sairə yerləri partladaraq günahsız insanların qanlarını axıdırlar. Neçə-neçə körpənin həyatına son qoyurlar, nə qədər anaları gözü yaşlı qoyurlar. Bunu edən nadanlar bu çirkin əməllərinə görə axirətdə Allah-Taala qarşısında özlərinə necə bəraət

1.Əl-Bəqərə surəsi, ayə 143
2.Əl-Əraf surəsi, ayə 31
3.Əl-İsra surəsi, ayə 29

qazandıracaqlar? Məgər ictimai yerləri partladaraq insanları qətlə yetirmək cihaddırmı?
Hansı ki, nadanların kafirlərə qarşı mübarizə apardığını iddia edərək qeyd edilən terror hadisələrinin baş verdiyi ölkələrin çoxu müsəlmanlardır. Terror hadisəsinin hamısında demək olar qətlə yetirilənlərin çoxu körpə uşaqlardır. Budurmu cihad?
Əlbəttə ki, qəlbində İslam sevgisi daşıyan hər kəs belə çirkin əməllərin Allah qatında nə qədər günah olduğunu yaxşı dərk edir. Məgər onlar bilmirlər ki, buna görə Allah qarşısında cavab verəcəklər? Bu nadanlar Qərbə qarşı mübarizə apardıqlarını iddia etsələr də, amma daha çox müsəlmanları öldürürlər.
Bir dinin adı altında ortaya çıxdığını bildirən insanların bir qismi o dini səhv anlamış və səhv tətbiq etmiş ola bilər. Bu səbəblə də həmin insanlara baxaraq o din haqqında fikir söyləmək yanlış olar. Bir dini tanımağın ən doğru yolu o dinin müqəddəs qaynağını araşdırmaqdır. İslamın müqəddəs mənbəyi Qurani-Kərimdir. Quran əxlaqı sevgi, şəfqət, mərhəmət, ədalət, təvazökarlıq, fədakarlıq, xeyirxahlıq və sülh anlayışlarına əsaslanır. Bu əxlaqı həqiqi mənada yaşayan bir müsəlman son dərəcə kübar, gözütox, dərin düşüncəli, incə ruhlu, təvazökar, ədalətli, xoşniyyət, səmimi, etibarlı və hərtərəfli şəkildə kamil bir insan olur, ətrafındakılara da sevgi, sayğı, rahatlıq və həyat sevinci bəxş edir.
Lakin niyəsə bəzi qüvvələr İslamda olmayan, İslam dininə zidd olan xüsusiyyətləri dinə aid etməyə çalışırlar. Müasir zamanda yaşayan hər bir insan Qərbin İslam dinimiz ilə necə manipulyasiya etdiklərini çılpaq gözlə də görə bilər. Guya İslam digər dinlərə qarşı dözümsüzlük göstərir, İslam

qanunları ilə yaşamaq istəməyənlərə qarşı zülm edir və qətlə yetirir.
Bədbəxtliyi İslam dini yox, bu dinin təfsilatını yanlış başa düşmək və səhv anlayışa riayət etməkdir. İş o yerə gəlib çatıb ki, bu insanlar getdikləri yanlış yolu (fanatiklər, ekstremistlər, terrorçular), özləri tək getmirlər. Həmçinin əxlaqi və mənəvi cəhətdən yetişməmiş insanlara, əsasən gənclərə dinin yanlış təbliği ilə məşğul olurlar. İslam dini insan həyatında əxlaq və ədəb qanunu olduğu halda dindən uzaq olan bu şəxslər Allahın adı ilə qanunsuzluq edir, insanları öldürür. Həqiqi möminlər isə insanları doğru yola yönəldənlərdir. Bu yol məhəbbət yoludur, Allahın qarşısında təvazökarlıq və səbr nümayiş etdirən bir yoldur.
Tez-tez insanlar din pərdəsi arxasında gizlənərək pislik və müsibətlər gətirirlər. Buna görə də dinə qarşı deyil, bu insanlara qarşı mübarizə aparmaq lazımdır. İnsanları öldürən, namuslarına toxunan, yaramazlıq və qanunsuzluq edənlərin Allah və dini sevdiklərini söyləməklərinə inanmaq olarmı? Digər insanları sevməyən Allahın qanunlarına riayət etməyən Allahı sevə bilməz! Uca Yaradandan razı müsəlmanlar isə başqa insanlara məhəbbətlə yanaşır.
Radikal dini cərəyanların yaranması onların digır məzhəb və dinlərə qarşı qarşıdurması ilə nəticələndi. Bu qarşıdurma cəmiyyətimizdə indiyədək hiss olunur. Bu cərəyan yalnız öz qanunlarını tanıyır və öz imanlarının düzgünlüyünə inanırlar. Onlar haqlı olduqlarını mübahisələrlə deyil, terrorçu hərəkətlər və dinc insanların və uşaqların qətli ilə sübut edirlər. Dini ekstremizm dünya daxilində ictimai gərginliyin qaynağıdır və onun təzahürü dünyanın hər hansı bir yerində gözləmək olar. Yalnız Allah-Taala ona iman gətirən möminlərə mənfi hisslər və qorxulara qarşı mübarizə aparmağda kömək edəcəkdir. Dini biliklər, Quran-Kərimi, Muhəmməd Peyğəmbərin(s) və

İmamların (ə) hədislərin öyrənmək dünya və axirət həyatının həqiqətlərini aşkar etməkdə, Cənnətə gedən yolda möminlərə kömək olacaq. Islam bu dünyada insanlara düzgün yol seçməkdə kömək edir. İnsanlara həyat çətinliklərini və ölüm qorxusunu aradan qaldırmaq üçün daha yaxşı yol seçimi etməkdə bilik verən və axirət aləminə onun nə gözlədiyini öyrədən dindir.
Nahaq yerə adam öldürməyin böyük (kəbirə) günah olmasının dəlili Peyğəmbər(s) və İmamlarımızdan (ə) nəql olunan hədislərdir. Bundan əlavə nahaq yerə adam öldürmək Qurani-Kərimdə aşkar şəkildə əzab vədəsi verdiyi günahlardan biridir. Qurani-Kərim buyurur: "**Kim bir mömini qəsdən öldürsə (və bu əməli halal hesab etsə), onun cəzası cəhənnəmdir ki, orada əbədi qalacaqdır. Həmçinin Allah ona qəzəb edər, onu Öz rəhmətindən uzaqlaşdırar və onun üçün böyük bir əzab hazırlayar".**[1] Ayədə mömin şəxsi öldürənlər cəhənnəm, orada əbədi qalmaq, Allahın qəzəbi, lənət və böyük əzab gözləyir.
İslam şəriətinə görə müsəlmanın malı və qanı toxunulmazdır. Həccətül-vidada Peyğəmbərimiz(s) buyurdu: **"Ey insanlar! Müsəlmanın qanını axıtmaq halal deyildir. Həmçinin malını da aparmaq caiz deyildir, yalnız o zaman caiz olar ki, özü razı olsun. Belə isə özünüzə zülm etməyin, məndən sonra küfrə, kafirliyə qayıtmayın."**[2]
İslam baxımından insan həyatı toxunulmazdır. Müsəlman öz həyatını və digər insanların həyatını dəyərləndirməlidir. Heç bir səbəb olmadan insanı həyatdan məhrum etmək insanlığa qarşı qətl kimi qiymətləndirilir.

1.Ən-Nisa surəsi, ayə 93
2. Böyük günahlar, c. 1, səh. 171

Onlar bu həqiqəti anlamalıdırlar ki, Qurani-Kərim Allahın insanlara yolgöstərən olaraq endirdiyi kitabdır və Allah-Taala Qurani-Kərimdə insanlara gözəl əxlaqı əmr edir. Bu əxlaqın əsasında isə sevgi, şəfqət, xeyirxahlıq, ədalət və mərhəmət kimi anlayışlar dayanır. Quran ayələrində insanlar İslam əxlaqına çağırılır. “Bəqərə” surəsinin 208-ci ayəsində belə buyurulur: **“Ey iman gətirənlər, hamılıqla (Allaha) təslim və itaətə daxil olun və şeytanın addımlarına tabe olmayın ki, həqiqətən, o sizin aşkar düşməninizdir.”**[1] Ayədən göründüyü kimi, Allah-Taala insanların əmin-amanlığını onların Quran əxlaqına uyğun yaşamasında görür. İslam əxlaqına görə, müsəlman bütün digər insanlara qarşı mehriban və ədalətli olmalıdır. O zəif və günahsızları qorumağa və **yer üzündə fitnə-fəsadın qarşısını almağa məsuliyyət daşıyır.** Bir ayədə buyurulur ki, **Allah-Taala fitnə-fəsadı sevməz: “Üz döndərən (və sənin yanından çıxıb gedən, yaxud iş başına keçən) zaman isə yer üzündə fəsad törətmək, əkin sahələrini və nəsli məhv etmək üçün yola düşər. Allah fəsadı sevmir.”**[2] Bir insanın günahsız yerə öldürülməsi isə İslamda ən böyük günahlardan biridir. Allah-Taala musəvilərə vəhy etdiyi bu əmri Quranda belə bildirir**: “Bu səbəbdən (belə bir faciə baş verdiyi üçün) İsrail övladlarına (və tarix boyu olacaq bütün millətlərə belə) yazdıq və qərara aldıq ki, kim can qisası (haqqına malik) olmadan və ya yer üzündə fitnə-fəsad törətməmiş bir insanı öldürsə (ya islamdan küfrə aparsa), sanki bütün insanları öldürmüşdür (və azdırmışdır və o, günahsızların qatillərinə məxsus cəhənnəmdə olacaqdır) və kim bir insana həyat bəxş etsə (ölümdən nicat versə, yaxud küfrdən islama gətirsə), sanki bütün insanları diriltmiş (və hidayət etmiş)dir. Doğrudan**

1.Əl-Bəqərə surəsi, ayə 208
2.Əl-Bəqərə surəsi, ayə 205

**da bizim peyğəmbərlərimiz onlar (İsrail övladları) üçün aydın dəlillər gətirdilər, sonra onların çoxu onun ardınca yer üzündə həddən artıq fəsad və qan tökməyə başladılar.”**[1]

Göründüyü kimi, günahsız bir insanı öldürən şəxs bütün insanları öldürmüş qədər günah qazanır. Bu halda terrorçuların törətdiyi cinayətin, soyqırımın, intihar hücumlarının nə qədər böyük günah olduğu açıq-aydındır. Allah terrorun axirətdəki “mükafatı”nın nə olacağını belə bildirir:**“(Cəza və tənbeh) yol(u) yalnız insanlara zülm edən və yer üzündə haqsız yerə hökmranlıq və fəsad axtaran kəslərə qarşıdır (belələrinə qarşı açıqdır). Onlar üçün ağırılı bir əzab vardır.”**[2]

İslam ağıl və məntiq dinidir. İslam dini öz ardıcıllarını da doğru yola və həqiqətə qovuşmaq üçün həmişə sevgiyə, düşüncə və təfəkkürə dəvət edir, insaniyyətə qarşı olan hərəkətlərdən çəkindirir. Bütün tarix boyunca bəşəriyyət istər fərdi, istərsə də ictimai formada mübarizəsi insan nəslinin qırılmasına, maddi-mənəvi dəyərlərin tapdalanmasına gətirib çıxartmış, insanın kamala yetişməsinə sədd çəkmişdir. Qurani-Kərimin bir çox ayələrində bu həqiqət açıqlanmışdır.

---

1.Əl-Maidə surəsi, ayə 32
2.Əş-Şura surəsi, ayə 42

## Nəticə

İslam bir millətin və ya cəmiyyətin mövcudiyyətini təhlükə altına qoyan, onu məhv eyməyə çalışan qüvvəyə qarşı, özünü müdafiə məqsədi ilə döyüşməyi məqbul sayır. Hətta bəzi vaxtlarda bunun məcburi olduğunu bildirir. Çünki əgər qarşı tərəf müsəlmanın həyatını, malını, dinini, namusunu, torpağını təcavüzə məruz qoyursa, onunla üz-üzə gəlib, hesablaşmaq artıq dini anlamda vacib hesab edilir. Müsəlmanın həyatını, dinini sərbəst yaşaması üçün hikmət və öyüdə duyduğu ehtiyac qədər, təcavüz edən düşmənin qarşısına çıxan orduya da ehtiyacı vardır. Ümumiyyətlə İslama görə zülmə, xəyanətə, haqsızlığa məruz qalan kimsəsizin köməyinə yetişmək üçün silahdan istifadə etməyə icazə verilir. İslamın ilk dövrlərində aparılan müharibələr əsasən özünümüdafiə xarakteri daşımışdır.

İslama görə, insan hər şeydən əvvəl yaşamaq hüququna malikdir. İnsan həyatı müqəddəs və toxunulmazdır. Bu həyat insana Allah tərəfindən bəxş edilmişdir və Allahın iradəsi olmadan ona heç kim qəsd edə bilməz.

İnsanın vətəndaşlıq haqları vardır. O özünü müdafiə etmək, sağlamlığını qorumaq, ailə qurmaq, nəslini artırmaq, uşaqlarını böyüdüb tərbiyə etmək, məhkəməyə müraciət etmək hüquqlarına malikdir.

İnsanın azadlıq hüququ vardır və bu hüquq təbii hüquqdur. İnsan azad yaradılmışdır və onun azad yaşamaq hüququna qəsd edilməməlidir. İnsan Quranda heç bir insanın qulu kimi vəsf edilmir, o yalnız Allaha qulluq bəndəlik edir. İnsanın öz vətənində, xalqın öz yurdunda azad yaşamaq hüququ vardır və əgər bu hüquqa təcavüz edilirsə, insan da, xalq da özünü müdafiəyə qalxmalıdır.

İnsanlar qanun qarşısında bərabərdirlər. Hər bir fərdin əmək fəaliyyəti ilə məşğul olmaq və əməyi müqabilində əmək haqqı almaq hüququ vardır.
İslam hər kəsin canını, namusunu, şərəfini, haqqını, azadlığını, malını və evini qorumuş və bunların toxunulmazlığını bəyan etmişdir. İslam da həm fərdin, həm də cəmiyyətin asayiş və toxunulmazlığı mühüm sayılır. Bunu təmin etmək üçün İslam insanların bir-birinə sevgi və hörmət göstərmələrini istəyir.
İslam dini bəşəriyyəti bir-birinə hörmətlə davranmağa inandırmağa çalışır. İslam insanların biri-birinə hörmət və tolerantlığ dindir. İslamın elan etdiyi hüquq və vəzifələr insan hüquqlarının bir bəyanatıdır. İslamın vacib prinsiplərindən biri Allahın insanlara əməlləri üçün tam məsuliyyət daşıdığını göstərməkdir. Hər bir şəxs müəyyən hüquq və vəzifələrə malikdir və bir şəxsin başqa bir şəxsin azadlığını məhdudlaşdırmaq hüququ yoxdur. Allahın insana verdiyi və İslamda təsvir edilmiş hüquqlarını pozmağa cəsarət edəni günahkar və zülmkar hesab edilir. Allah möminləri məzlumların hüquqlarını qorumağa çağırır:
**“Sizə nə olub ki, Allah yolunda və (o günlərdə müşriklərin hakimiyyəti altında olan Məkkə müsəlmanlarının, eləcə də bütün əsrlərdə zəmanə imperiyalarının hakimiyyəti altında olan) kişi, qadın və uşaqlardan ibarət müstəzəflərin (zəif hala salınıb həmin halda saxlanılan təbəqənin) həmişə "ey Rəbbimiz, bizi əhalisi zalım olan bu şəhərdən kənara çıxart, bizə Öz tərəfindən bir başçı ver və bizə Öz tərəfindən bir köməkçi təyin et" deyən kəslərin (nicatı) uğrunda vuruşmursunuz?!"**[1]

1.Ən-Nisa surəsi, ayə 75

İslamda milli vəhdət və birlik İlahi vəhyin ən gözəl gətirdiyi məsələlərdəndir. Qurani- Kərim vəhdətin isbat olunması və ona hamının əməl etməsindən savayı bölünmənin ziyanları və mənfi təsirləri barəsində də sözlər söyləmişdir.

Milli birlik barəsində Allah-Taalanın kəlamı belədir: **"Və hamılıqla Allahın ipindən (dindən, kitabdan və vəhyi gətirənlərdən) möhkəm yapışın və parçalanmayın. Allahın sizin barənizdə bir-birinizlə düşmən ikən qəlbləriniz arasında ülfət yaratdığı zamandakı nemətini xatırlayın ki, Onun neməti sayəsində bir-birinizlə qardaş oldunuz. Həmçinin siz od uçurumunun astanasında idiniz, sizi ondan xilas etdi. Allah Öz (tovhid, qüdrət və hikmət) nişanələrini sizin üçün bu cür bəyan edir ki, bəlkə hidayət olasınız."**[1]

Həzrət Əli (ə) Qurani-Kərimin ədalətinə sahib olduğundan o da milli birlik və ittifaqı ağlın, ixtilafları isə nəfsin məhsulu olduğunu hesab edir. Necə ki, Qurani-Kərim ağılsızlığın nəticəsini bölünmələr olduğunu hesab edir. Əmirəlmöminin Əli (ə) də ağlın və qəlbin çirkinliyini bölünmənin əsası olduğunu qəbul edərək, buyurur: **"Siz "Həqiqətən, möminlər qardaşdırlar" ayəsi olan Allahın kəlamına söykənsəniz heç bir çirkinlik sizin ixtilafınıza səbəb ola bilməz. Yəni, yadlar sizin aranızda parçalanma yaradır və sizə hakim olurlarsa yalnız öz aranızda olan fəsadlardan istifadə edirlər. Qəlbləriniz güclü və möhkəm olarsa İslam qurluşunda bölünməyə heç bir zaman şərait yarana bilməz."**[2].

İslam nöqteyi nəzərində təhlükəsizlik, sağlam həyat üçün ən birinci və əsas şərtdir. Bunun üçün də, Həzrəti İbrahim (ə), Kəbəni tikərkən Allahdan istədiyi ilk şey, təhlükəsizlik neməti idi: "**Və (yada sal) o zaman(ı) ki, İbrahim dedi: "Ey**

---

1. Ali-İmran surəsi, ayə 103
2.Nəhcül bəlağə, məktub 113, bənd 7

**Rəbbim, (sonralar Məkkə adlandırılacaq) bu şəhəri təhlükəsiz hərəm et və məni və oğlanlarımı bütlərə ibadət etməkdən uzaq saxla!"**[1] Məhz bu dəlilə əsasən, İslam dini ən ağır cəzaları ictimai təhlükəsizliyi pozanlar üçün nəzərdə tutmuşdur: "**Həqiqətən Allahla və Onun peyğəmbəri ilə vuruşan və yer üzündə fitnə-fəsad törətmək istiqamətində çalışan (insanları qorxutmaq, asayişi pozmaq və onların haqlarına təcavüz etmək məqsədi ilə soyuq və ya isti silahla zahir olan) kəslərin cəzası yalnız öldürülmək və ya dar ağacından asılmaq, yaxud əlləri və ayaqlarının (bir əlin dörd barmağı ilə bir ayağın dörd barmağının) çarpazvari kəsilməsi və ya həmin yerdən sürgün olunmaqdır. Bu, onlar üçün dünyada həqirlik və xarlıqdır və onlar üçün axirətdə böyük bir əzab vardır."**[2] Qurani Kərimə görə xoşbəxt və firavan cəmiyyət, təhlükəsizlik, həyata ümid və iqtisadi inkişaf olmaqla üç xüsusiyyət əsasında formalaşır ki, bunların da bir birinə səbəb və nəticə bağlılıqları vardır: "**Və ona dünyada gözəl həyat (bütün ümmətlər tərəfindən qəbul olunmaq xüsusiyyəti, uzun ömür, saleh övladlar və çoxlu sərvət) verdik və əlbəttə o, axirətdə salehlərdən olacaqdır."**[3] Belə ki, təhlükəsizlik olmasa, heç kəs həyatın davamına ümid bəsləməz, beləliklə də əmniyyət və yaşam ümidi itərsə, istehsala və iqtisadi inkişafa maraq olmayacaqdır. İnsan, qorunması və himayə olunması lazım olan dörd sərmayəyə malikdir. Can,mal, namus və heysiyyət. Quran və hədislərə əsasən, insan abırı və heysiyyəti, bəzi cəhətlərdə onun malından və canından da üstündür. İslam, hər bir islami

---

1.İbrahim surəsi, ayə 35
2. Əl-Maidə surəsi,ayə 33
3. Ən-Nəhl surəsi, ayə 122

cəmiyyətdə təhlükəsizliyin bütövlükdə cəmiyyətə hakim olmasını, insanların nəinki dildə, hətta zehində belə barəsində bədgüman olaraq heysiyyətinə toxunmamasını istəyir.

Ev, yaşayış yeri, fərdlərin və ailələrin rahatlığı üçün məskəndir. Bu məkan, hər bir xoşagəlməz müdaxilədən amanda qalmalıdır. Qurani Kərimin bu barədə tövsüyə edir: **"Ey iman gətirənlər, öz evinizdən başqa heç bir evə icazə almayınca və həmin evin adamlarına salam verməyincə daxil olmayın. Bu sizin üçün daha yaxşıdır. Bəlkə ibrət götürdünüz."** [1]

1400 il bundan əvvəl İslam köləlik (qul) məsələsinə də toxundu. Quranda və Peyğəmbər (s) hədislərində qulların saxlanılması üçün çağırış yoxdur, lakin azadlığa buraxılması barədə sonsuz sayda çağırış var. İslam bütün insanları azad hesab edir və onların təhqir olunmalarına qarşı çıxır.

İslam nöqteyi nəzərində insanın mənəvi həyatı düzəlməsə maddi faktorlar sülh və sosial təminatın qorunmasında mühüm rol oynaya bilməz.

---

1. Ən-Nur surəsi, ayə 27

## İstifadə olunan ədəbiyyat

1. "Qurani-Kərim", A. Mehdiyevin tərcüməsi, Bakı, 2009 miladi.
2. Şeyx Əhməd Nəraqi "Meracus-Səadə", Baki, Qələm, 2012 miladi.
3. Ayətullah Seyyid Əbdülhüseyn Dəstğeyb "Böyük günahlar", 1-ci cild, Dinin fəxri nəşriyyatı, 2000 miladi ili.
4. Ayətullah Cavad Amoli", İnsanın dindən intizarı", birinci şap.
5. Əıiəkbər Babazadə "İslamda evlənmə və ailə hüququ", Qələm, birinci çap.
6. Məhəmmədi Reyşəhri "Mizanul-hikmət"(xülasəsi) Bakı 2009
7. Əllamə Misbah Yəzdi "Quranda əxlaq" Bakı 2011
8. Əbdülhəkim Süleymani "İslamda insan haqlari", Şəhriyar, birinci çap.

# Fitrətin insanın fərdi və ictimai həyatındakı rolu (Mürtəza Mütəhhərinin baxışında)

**Anar İmanzadə**[1]

**Açar sözlər:** Fitrət, tövhid, mərifət, məhəbbət, vilayət, eşq, Mütəhhəri.

## Abstrakt

Fitrətə yönəlməməyin və fitrət qanunları əsasında yaşamamağın nəticəsidir ki, bu gün bir çox insanlar uçuruma yuvarlanırlar. Cəmiyyətdə görülən bütün problemlər, məhz fitrətə yönəlməmək və fitrət qanunu əsasında yaşamamağa qayıdır. Təkcə qurtuluş yolu isə "özə dönüş"dür. "Özə dönüş" başqa bir aləmə, fitrət aləminə daxil olmaqdır. Bununla insan həqiqətini, qabiliyyətini görür, digər canlılardan fərqini bilir və ömrünü bihudə işlərdə keçirməkdən xilas edir.

"Dinin əvvəli Onu tanımaqdır. Allahı tanımağın kamalı Onu təsdiqləyib Ona tərəf yönəlməkdir. Təsdiq etməyin kamalı Onu bir bilməkdir. Tövhidin kamalı əməlləri Onun üçün xalis etməkdir. İxlasın kamalı Onun zatına əlavə olunmuş sifətin təsəvvür edilməməsidir".[2]

Hər bir insan bir nizama, dinə əsasən öz həyatını tənzimləyir. İslam dinini qəbul edən isə həyatını İslam nizamı (dini) üzərində qurur. Bunun da əvvəli və əsası Allahı tanımaqdır (mərifətullahdır). Bəs Allahı necə tanıya bilərik? Fitrətin bu tanımada rolu və təsiri varmı? Allah-taalanın yardımı ilə bu

---

1. İslam Araşdırmaları fakültəsinin məzunu, İslam Araşdırmaları institutu, Əl-Mustafa Beynəlxalq Virtual Universiteti, Qum, İran.

2. "Nəhcül-Bəlağə", 1-ci xütbə.

yazıda, Ayətullah Mütəhhərinin (r.ə.) baxışlarına müraciət etməklə bu kimi suallara cavab tapmağa çalışacağıq.

**Fitrət sözü**

Fitrət sözü ərəbcədən tərcümədə xilqət (yaradılış) deməkdir.[1]
Fitrət sözünün kökü olan "fətərə (f-t-r) kəlməsi Quranda dəfələrlə işlədilmişdir: "Fətərəhunnə"[2], "fatiris-səmavati vəl-ərz"[3], "izəs-səmaun-fətərət"[4] və "munfətirun bihi"[5].
Ayətullah Mütəhhəri (r.ə.) buyurmuşdur: "Bu kəlmə[6] bütün yerlərdə yaradılış (misli olmayan yaradılış) və xəlq etmək mənasını daşıyır. Amma bu kəlmə "filət" vəznində olanda yalnız insan və din barəsində işlədilmişdir. Ərəb ədəbiyyatında kəlmənin "filət" şəklində işlədilməsi, onun hər hansı bir növ mənasına dəlalət etməsini bildirir. Məsələn, oturmaq mənasını bildirən "cilsət" kəlməsi bu şəkildə işlənərsə, xüsusi bir oturuş tərzi mənasını bildirəcəkdir. Bu qrammatik qaydaya əsasən, "fitrətəllah" kəlməsi xüsusi yaradılış forması mənasını daşıyacaqdır. Bununla demək istəyir ki, biz insanı xüsusi bir yaradılış tərzilə xəlq etmişik...
Fitrət kəlməsini araşdırdıqdan sonra belə bir nəticə əldə olunur. 1. İnsan yaradılışı sabiqəsi olmayan bir xilqətdir; 2. Bu yeni məxluqda qabaqca yaradılmış varlıqlarda olmayan xüsusiyyətlər vardır".[7]

---

1. www.almougem.com
2. Ənbiya surəsi, 56-cı ayə.
3. Ənam surəsi, 14-cü ayə. Bu ifadə başqa beş ayədə də işlənmişdir.
4.İnfitar surəsi, 1-ci ayə.
5. Muzzəmmil surəsi, 1-ci ayə.
6. Yəni fitrət sözünün kökü olan "fətərə (f-t-r) kəlməsi.
7. "İnsan tanıma", Ustad Şəhid Mürtəza Mütəhhəri, səh. 32-34.

## Fəlsəfə və fitrətin mövzusu

Fəlsəfənin mövzusu fitrətin hədəfidir. Fəlsəfənin axtardığını fitrət tanıtdırır. Fəlsəfə varlığı araşdırır, fitrət varlığın sahibini təqdim edir. Fəlsəfə əqli mühakimənin nəticəsində bir Yaradana etiqad edir, fitrət ondan qabaq nəticəni aşkar edir. Fitrət yolu ilə Allahı tanıma ona görə asandır ki, fitrət özündə olanı göstərir. Fəlsəfə isə əqli-məntiqi meyarlarla axtarıb tapdığının varlığına şəhadət verir.

Ayətullah Mürtəza Mütəhhəri (r.ə.) buyurmuşdur: "Fitrət mövzusu bir tərəfdən fəlsəfi mövzudur... Fəlsəfənin üç əsasə mövzusu var: Allah, kainat və insan. Bu mənada fitrət mövzusu insana aiddir. Lakin onun bir baxımdan insana və Allaha aid olduğunu da demək olar. Bu məsələnin bir başı insan, digər başı isə Allahdır".[1]

Hər bir insan fitrət sahibi olduğu halda nə üçün hamı Allah inancında deyil?

Cavab budur ki, dünyəvi səbəb və bağlılıqlar insanı özündən uzaq salır, özü haqda düşünmür (və ya düşünmək istəmir) və bundan başqa Yaradanın Özünün varlığını belə sual altına alır. Hətta mümkündür ki, bir insan fəlsəfi yanaşmasına əsasən Yaradanı inkar etsin, lakin içindəki fitrəti onun əqli qənaətini qəbul etməsin və belə halda içindən gələn səs "Allah var" desin, amma onun maddi yanaşması "Allah yoxdur" desin.

Əslində ağlın və fitrətin səsi eynidir. Hər ikisi Yaradanı qəbul edir. Lakin fitrət daha yaxın yoldur. Bəzi insanlar isə yaxını uzaqda axtarır və nələrisə isbat etmək üçün özlərini olduqca zəhmətə salırlar.

---

1. "Fitrət", Mürtəza Mütəhhəri, səh. 19.

## Fitri və qeyri-fitri əməllər

İnsanın həyatında yerinə yetirdiyi əməllər iki növdür:

1. **Fitri əməllər** (fitri meyllərdən qaynaqlanan əməllər).
2. **Adi əməllər.**

**Fitri əməllər:** Fitri əməllər, insanın yaradılışından qaynaqlanan əməllərdir. Belə əməllərdə təlim və müəllimə ehtiyac yoxdur.Məsələn,nəfəs almaq, xətərlə üzləşdikdə özünü müdafiə etmək, bir cinsin öz əks cinsinə meyl etməsi və s.

**Adi əməllər:** Adi əməllər, fitrətdən qaynaqlanmayan, xarici amillərin təsiri əsasında yerinə yetirilən əməllərdir. Məsələn, insanın paltara ehtiyacının olması fitridir, lakin onun keyfiyyəti adi əməllərdəndir. Bu geyim rəng, ölçü və s. ilə müxtəlif millətlərdə, millətlər içərisində də fərdlərin zövqünə əsasən fərqlidir. Həmçinin insanın yaşaması üçün məskənə, mənzilə ehtiyacının olması fitridir. Lakin onun keyfiyyəti geyim misalında olduğu kimi adi əməllərdən sayılır.[1]

Əgər insan öz içində, elm, əxlaq, sənət və gözəlliyə şiddətli meyl olduğunu görsə, bu meyl, (mənəvi) kamilliyə çatmaq üçün olan o eşqdən qaynaqlanan şöbədir. Mütləq kamilliyə çatmaq üçün olan bu eşqin insan daxilində olduğunun ən aydın dəlili budur ki, hər hansı bir maddi kamal insanın susuzluğunu aradan aparmır.[2]

Nəticə əldə edirik ki, insan bəzən içdən gələn meyllərin ünvanını səhv salır və həmçinin onların həyata keçməsində ifrata varır.

1. "Məfahimul-Quran", Ayətullah əl-üzma Şeyx Cəfər Sübhani, c. 1, səh. 51-52.
2. Həmin, səh. 65.

## İnsanda fitri meyl

Allah-taala buyurur: **“Haqqa tapınaraq üzünü bu dinə sarı döndər. Allah həmin fitri din əsasında insanları yaratmışdır”.**[1]

Yaradan, yaradılan və ikisini bir-birinə bağlayan fitrət (Allah-fitrət-insan). Bəli, fitrət ən ali varlıq olan Allahla insanı bağlayır. Çünki ruhu Ondan, sevgisi Ondandır. Bu bağlılıqla da insanın da sevgisi Ona qayıdır. Əməli bağlılıqla Onu hüzuri olaraq dərk edir, şühudi olaraq Onu görmüş olur.

Ona görə də yollun əvvəli fitrətə yönəlməkdir. İnsan fitrətən Allaha meyl edir və Onun varlığına etiqad edir. Meyl daxili, həqiqi bir istəkdir.

Sual oluna bilər ki, bəs nə üçün bir çox insanlarda bu meyl, yəni Allah meyli yoxdur?

Cavab budur ki, bütün insanlarda bu meyl var. Sadəcə etdikləri günahlar meylləri ilə Rəbləri arasında pərdə olub. Günahlar da həm etiqadi və həm də fiqhi olur. Bu maneələr çəkildikdə fitrətlərindəki meyllər üzə çıxır. Aşağıdakı ayələr bu həqiqətə işarə edir:

**“(Kafirləri) ətrafına kölgə salan uca dağlar (yaxud qara buludlar) kimi dalğalar bürüdüyü zaman onlar dini (ibadəti) Allaha məxsus edərək yalnız Ona dua edərlər. Allah onları sağ-salamat quruya çıxartdıqda içərilərindən bəziləri (küfrlə iman arasında) orta mövqe tutar. (Bəziləri isə öz küfründə qalar). Bizim ayələrimizi yalnız çox xain, nankor olanlar danarlar!”**[2]

**“İnsanlara bir ziyan toxunduğu zaman Rəbbinə tərəf dönüb Ona tövbə edərlər. Sonra (Allah) Öz**

---

1. Rum surəsi, 30-cu ayə.
2. Loğman surəsi, 32-ci ayə.

**mərhəmətindən onlara daddıran (onları möhnətdən qurtaran) kimi içərilərindən bir qismi Rəbbinə şərik qoşar”.**[1]

**“(Müşriklər) gəmiyə mindikləri zaman (dəryada batacaqlarından qorxub) dini (ibadəti) yalnız Ona məxsus edərək (ixlasla) Allaha dua edərlər. Allah onları sağ-salamat quruya çıxaran kimi, yenə də (Ona) şərik qoşarlar”.**[2]

**“Sizə dənizdə bir çətinlik (batmaq təhlükəsi) üz verdiyi zaman (Allahdan) qeyri ibadət etdiyiniz bütlər qeyb olar. Lakin O sizi xilas edib quruya çıxartdıqda (itaətindən) üz döndərirsiniz. İnsan nankordur!”**[3]

**“Sizi quruda və dənizdə hərəkət etdirən Odur. Siz gəmilərdə olduğunuz, (gəmilər də) içindəkiləri xoş bir küləklə apardığı və onlar buna sevindikləri zaman birdən fırtına qopar və dalğalar hər yandan onların üstünə gələr. Dalğaların onları bürüyəcəyini yəqin etdikdə isə Allaha - dini məhz Ona aid edərək yalvarıb deyərlər: 'Əgər bizi bundan xilas etsən, əlbəttə, şükür edənlərdən olarıq'”.**[4]

Bütün bu ayələrin hamısından istifadə edilir ki, Allaha iman insanın fitrətində əkilib.[5]

Firon da, Rəblik iddiası edirdi.[6] Bütün mal-mülkü, qüdrəti aradan getdikdən, aciz və möhtac olduğunu bildikdən sonra, fitrətindən gələn şəhadətini izhar etdi: **“İsrail oğullarını dənizdən (sağ-salamat) keçirtdik. Firon və əsgərləri zalımcasına və düşməncəsinə onların arxasınca düşdülər. (Firon) batacağı anda: 'İsrail oğullarının iman**

1. Rum surəsi, 33-cü ayə.
2.Ənkəbut surəsi, 65-ci ayə.
3. İsra surəsi, 67-ci ayə.
4.Yunus surəsi, 22-ci ayə.
5. “Məfahimul-Quran”, Ayətullah əl-üzma Şeyx Cəfər Sübhani, c. 1, səh. 47.
6.Naziat surəsi, 79-cu ayə.

**gətirdiklərindən başqa İlah olmadığına inandım. Mən də müsəlmanlardanam!' – dedi”.**[1] İmam Əli (ə.s.) belə buyurur: **“Ehtiyaclar və çətinliklər zamanı hər məxluqun ümidi Allahdan başqa hər şeydən kəsiləndə və bütün səbəblərdən, vasitələrdən əli üzüləndə Ona tərəf üz çevirər”.**[2]

**Fitrət ayəsinin təfsiri**

İnsan fitrətinin Yaradanın varlığına şəhadət verməsi ilə bağlı gətirilən ən aydın dəlillərdən biri bu ayədir. Allah-taala belə buyurur:

**“Haqqa tapınaraq üzünü bu dinə sarı döndər. Allah həmin fitri din əsasında insanları yaratmışdır. Allahın xilqətində əsla bir dəyişiklik ola bilməz. Sabit və möhkəm olan din budur. Lakin insanların əksəriyyəti bilmir”.**[3]

Ayədə din fitrət mənasında işlədilib. Bunun səbəbi haqda bir izah budur ki, İlahi din fitrətlə müvafiqdir. Mərhum Şəhid Sədr (r.ə.) buyurub ki: **“Din fitrətdir. Allah onu, haqqa və doğru yola irşad etməsi, yönləndirməsi üçün insanın ruhunda qoyub”.**[4]

Buradakı fitrətin təfsiri haqqında isə bir çox hədis nəql edilmişdir.. Buxari bu ayənin təfsiri ilə bağlı Həzrət Rəsulullahın (s.) belə buyurduğunu nəql edib: **“Hər doğulan uşaq yalnız fitrət üzrə doğular. Sonra atası, anası onu ya yəhudi, ya xristian, ya da məcusi edər”.**[5]

---

1. Yunus surəsi, 10-cu ayə.
2. “Ət-Təvhid”, Şeyx Səduq, səh. 321, hədis: 5.
3. Rum surəsi, 30-cu ayə.
4. “Əl-Ənzarut-Təfsiriyyə”, Ayətullah əl-üzma Şəhid Seyid Muhəmmədsadiq Sədr, səh. 242.
5. “Səhihul-Buxari”, səh. 330, Kitabul-cənaiz, hədis: 1358.

Əhli-Beyt (ə.s.) hədislərində fitrət ayəsinin təfsiri ilə bağlı 15-ə yaxın hədis nəql edilmişdir.[1] Hədislərdə fitrət ayəsinin "Tövid", "Mərifətullah" (Allahı tanımaq), "İslam", "Vilayət" olması haqda hədislər nəql edilib.[2]

**Təkvini şəhadət**

Allah-taala buyurur: **"Bir zaman Rəbbin Adəm övladlarından – onların bellərindən nəsillərini çıxartdı və onları özlərinə şahid tutdu ki: "Mən sizin Rəbbiniz deyiləmmi?" onların hamısı: "Bəli, (Rəbbimiz olmağına) şəhadət verdik" dedilər. (Allah belə etdi ki,) məbada Qiyamət günü "biz bundan qafil idik" deyəsiniz".**
**Və ya: "Atalarımız daha əvvəl (Allaha) şərik qoşmuşdular, biz də onlardan sonra gələn bir nəsil idik (onların izi ilə getdik). Məgər bizi batilə uyanların (haqq yoldan sapanların) törətdikləri əməllərə görə məhv edəcəksən?" – deməməniz üçündür.**[3]

Bu ayələr Fitrət ayəsinin şərhdir. Ayədəki dialoq, ləfzi, həqiqi yox, təkvinidir. Təkvini şəhadət, insanın fitrətən Allahın varlığına şəhadət verməsidir. Yəni **insan bu həqiqəti (tövhidi) təsdiq etmək qabiliyyəti üzərində yaradılıb.** Əgər nəfsani meylləri kənara qoyub yaradılışa diqqət etsə, fitrətən şəhadət verəcəkdir ki, Allah var və birdir....

---

1. "Məfahimul-Quran", Ayətullah əl-üzma Şeyx Cəfər Sübhani, c. 1, səh. 68.
2. "Əl-Kafi", Şeyx Kuleyni, c. 2. Kitabul-iman vəl-kufr, babu fitrətil-xəlq əlat-təvhid, hədis: 1; "Məfahimul-Quran", Ayətullah əl-üzma Şeyx Cəfər Sübhani, c. 1, səh. 68; "Əl-Kafi", Şeyx Kuleyni, c. 2. Kitabul-iman vəl-kufr, babu fitrətil-xəlq əlat-təvhid, hədis: 4; "Təfsiru Əli ibn İbrahim əl-Qummi", c. 2, səh. 155; "Əd-Durrus-səmin fiş-şəhadətis-salisəti bi vilayəti Əmiril-muminin (ə.)", Ayətullah əl-üzma Şeyx Xəlil Mübəşşir Kaşani, səh. 287; "Usulul-Kafi", Şeyx Kuleyni, c. 1, hədis: 35.
3. Əraf surəsi, 172-174-cü ayələr.

Bunu da qeyd edək ki, bəzi İslam alimləri bu ayə[1] və həmçinin bəzi hədislərə əsaslanaraq "zərr" adlı aləmin varlığına etiqad etmişlər. Lakin bir çox alimlər belə bir aləmin mövcudluğunu qəbul etməmişlər. Məsələn, Şeyx Mufid (r.ə.)[2], Şeyx Tusi (r.ə.)[3], Şeyx Təbərsi (r.ə.),[4] Seyid Mürtəza Ələmul-huda (r.ə.),[5] Əllamə Muhəmmədismayıl Xacuyi[6] (r.ə.),[7] Əllamə Şərafuddin Amili (r.ə.),[8] Ayətullah əl-üzma Şeyx Cəfər Sübhani (h.),[9] Ayətullah əl-üzma Şeyx Nasir Məkarim Şirazi (r.ə.)[10], Ayətullah əl-üzma Seyid Muhəmmədhüseyn Fəzlullah (r.ə.),[11] Ayətullah əl-üzma Şeyx Muhəmmədəli Gerami (h.)[12] və s. kimi İslam alimləri, belə bir aləmin varlığını qəbul etməmiş və bəziləri ayədəki şəhadətin təkvini şəhadət olduğunu demişlər.

Fitri və xilqət nizamı arasındakı təkvini danışığı, insanların başa düşdüyü ləfzi danışıq şəklində çatdırmaq gözəl bir bəyan üslubudur. Allah-taala buyurur: **"Sonra Allah tüstü halında olan göyə üz tutdu (göyü yaratmaq qərarına gəldi). Ona**

---

1. Əraf surəsi, 172-174-cü ayələr.
2. "Təshihu etiqadil-İmamiyyə", Şeyx Mufid, səh. 83.
3. "Ət-Tibyan fi təfsiril-Quran", Şeyx Tusi, c. 5. Əraf surəsi 172-174-cü ayələrin təfsiri.
4 ."Təfsiru cəvamiil-cami", Şeyx Təbərsi, c. 1, səh. 719.
5. "Əl-Əmali", Seyid Mürtəza Ələmul-Huda, c. 1, səh. 28-29.
6. O, Şeyx Mehdi Nəraqinin (r.ə.) ustadlarından olub.
7. "Cəmiuş-Şətat", Əllamə Muhəmmədismayıl Mazandarani Xacuyi, səh. 69. "Ər-Rəsailul-etiqadiyyə",c. 2, səh. 329.
8. "Fəlsəfətul-misaq vəl-Vilayət", Əllamə Seyid Əbdül-Hüseyn Şərafuddin Amili, səh. 16-18.
9. "Məfahimul-Quran", Ayətullah əl-üzma Şeyx Cəfər Sübhani, c. 1, səh. 31.
10. "Təfsire Numune", Ayətullah əl-üzma Şeyx Nasir Məkarim Şirazi, Əraf surəsi 172-174-cü ayələrin təfsiri.
11. "Təfsir min vəhyul-Quran", Ayətullah əl-üzma Seyid Muhəmmədhüseyn Fəzlullah, Əraf surəsi 172-174-cü ayələrin təfsiri.
12. www.ayat-gerami.ir

**(göyə) və yerə belə buyurdu: 'İstər-istəməz vücuda gəlin!' Onlar da: 'İstəyərək (Allahın əmrinə itaət edərək) vücuda gəldik!' – deyə cavab verdilər.”**[1]
Məlumdur ki, burada yer və göyə söz ilə xitab edilməyib. Yer və göy təkvini olaraq Allahın iradəsi qarşısında təslimdirlər.
Digər ayədə buyrulur: **“Rəbbin bal arısına belə vəhy (təlqin) etdi: “Dağlarda, ağaclarda və (insanların) qurduqları çardaqlarda (evlərin damında, üzümlüklərdə) özünə evlər tik (pətəklər sal); Sonra bütün meyvələrdən ye və Rəbbinin sənə göstərdiyi yolla rahat (asanlıqla) get! (Və ya: “Rəbbinin yollarını itaətlə tut!”) (O arıların) qarınlarından insanlar üçün şəfa olan müxtəlif rəngli (ağ, sarı, qırmızı) bal çıxar. Şübhəsiz ki, bunda düşünüb dərk edənlər üçün bir ibrət vardır!”**[2]
Məlumdur ki, hər bir bal arası yaradılarkən, bir-bir onlara söz ilə bu xitab edilmir. Bal arısı və həmçinin digər məxluqlar, onlar üçün təkvini olaraq müəyyən edilən istiqamətlə hərəkət edirlər. Allah-taala buyurur: **“(Musa) dedi: “Rəbbimiz hər şeyə Öz xilqətini verən, sonra da ona doğru yolu göstərəndir!””**[3]
Buna əsasən də, insandan alınan şəhadət təkvini şəhadətdir. Bu (təkvini şəhadət), əvvəldə danışdığımız “fitrət üzərində yaradılma”dır. Əgər belə olmasaydı, o zaman insan qiyamət günü, belə mərifətinin olmamasını özü üçün üzr olaraq dəlil gətirərdi.
Buradan belə nəticə əldə edirik ki, Allahın varlığı o qədər aşkardır ki, özünə və kainata yönələn hər bir insan, kainat və özü haqda, nəfsani istəkləri bir kənara qoyaraq təfəkkür etsə, Rəbbinin “Mən sizin Rəbbiniz deyiləmmi?” sualını eşidəcək

1. Fussilət surəsi, 11-ci ayə.
2. Nəhl surəsi, 68-69-cu ayələr.
3. Taha surəsi, 49-50-ci ayələr.

və Onun sualına “bəli” deyə cavab verəcəkdir. Çünki Allahın varlığı fitrətlə təsdiqlənir.
Ayətullah Misbah Yəzdi (h.) belə buyurur: **“Əgər diqqətimizi ətrafdan kəsib, öz daxilimizə yönəldə bilsək, Allahla fitri rabitəni taparıq. Bütün ariflər bu addımı atmağı təklif edir. İrfani seyr-sülukda, İlahi mərifətin əldə olunmasında insanın öz daxilinə diqqəti xüsusi yer tutur”.**[1]

**Fitrətin insanın fərdi həyatındakı rolu**

Fitrət ayəsinin[2] **“فَأَقِمْ وَجْهَكَ”** yəni, **“üzünü döndər”** hissəsi əməl ilə əlaqəli olub, fitrətlə yaşamaq əmridir. Allah-taalanın istəyi budur ki, insan hərəkət etsin, diqqətini[3], içindən gələn tövhid nidasına tərəf çevirsin və pak fitrətinə uyğun yaşasın. Həzrət İbrahim (ə.s.) belə deyirdi: **“Mən, həqiqətən, batildən haqqa tapınaraq (dönərək) üzümü göyləri və yeri yaradana çevirdim. Mən (Allaha) şərik qoşanlardan deyiləm!'”**[4]
Bir ayədən məlum olur ki, Allah-taala hər şeyi yaradıb və onun üçün “istiqamət seyri” təyin edib. Əgər hər bir yaradılmış varlıq onun üçün müəyyən edilmiş istiqamətdə hərəkət edərsə istənilən nəticəyə çatacaq. Ayədə belə buyrulur:
**“(Firon:) “Sizin Rəbbiniz kimdir, ya Musa?” –deyə soruşdu. (Musa) belə cavab verdi: “Rəbbimiz hər şeyə Öz xilqətini verən, sonra da ona doğru yolu göstərəndir!””**[5]
Bütün yaradılmış varlıqlar fitrətləri ilə yaşadıqları üçün əsl qabiliyyətlərini üzə çıxardıb, kamil olurlar. Yəni öz istedadlarını son nöqtəyə çatdırırlar. Məsələn, bir xurma ağacı

1. www.mesbahyazdi.ir
2. Rum surəsi, 30-cu ayə.
3. Ərəblər insanın diqqəti bir nöqtəyə yönəldikdə “üz tutdu” deyirlər
4. Ənam surəsi, 79-cu ayə.
5. Taha surəsi, 49-50.-ci ayələr.

onun üçün təyin olunan istiqamətlə hərəkət (seyr) edir və nəticəyə çatır. Beləliklə nəticə olan xurma meyvəsini ən gözəl şəkildə təqdim edir. Quş, heyvan, həşərat və s. bütün yaradılmış varlıqlar öz seyrlərini kamil bir şəkildə tamamlayırlar.

Buna əsasən də bütün yaradılmış varlıqların başlanğıcı və (öz qabiliyyətləri həddində) hərəkət seyri vardır (toxum meyvə olur, canlı bala böyüyüb başa çatır və s.). Həmçinin insanın da, bədən və ruhunun başlanğıcı və kamalata doğru hərəkət seyri var. Lakin bədəni üçün son olsa da, ruhu üçün sonluq yoxdur.

Ayətullah Mürtəza Mütəhhəri (r.ə.) buyurmuşdur ki: "Ariflər insanda olan eşq və məhəbbət hissinə böyük əhəmiyyət verirlər. Onların nəzərincə, eşq bütün varlıqlarda mövcuddur. O cümlədən hava, torpaq, od, külək və atom zərrəciklərində belə, eşq cərəyanı mövcuddur. Ümumiyyətlə həqiqət eşq deməkdir. Ondan başqa hər bir şey həqiqət üzərində zahir olan bir məcazdır. Mövləvi deyir: Yəni eşq bir dərya, asiman isə onun üzərindəki köpüyə və ya Züleyxanın Yusif eşqinə düşməsinə bənzəyir.

Hafiz deyir: Biz bu qapıya cah-cəlal xatirinə deyil, hadisələrin çətinliyi üzündən gəlmişik. Eşq yolunun yolçusuyuq, yoxluq aləmindən varlıq dünyasına qədəm qoymuşuq.

Hafizin bu beyti "Səhifeyi-Səccadiyyə"-nin bir cümləsinin tərcüməsidir. Həmin cümlədə həmd-sənadan sonra buyurulur: **"Allah-taala aləmi heçdən (heç bir nümunəsi olmadan) yaratdı. Sonra isə onu Özünün eşq və məhəbbət yoluna yönəldərək həyat bəxş etdi".**

Ariflərin nəzərincə eşq, hətta ucalaraq Allah-taalaya yetişə bilən bir qüvvədir. Arifin həqiqi məşuqu Allahdır[1].

Şəhid Mütəhhəri (r.ə.) həmçinin belə buyurmuşdur: "İnsan məhdud və fani bir şeyin aşiqi ola bilməz. O, mütləq bir kamal

---

1. "İnsan tanıma", Ustad Şəhid Mürtəza Mütəhhəri, səh. 115-116.

sahibini axtarır və bundan başqa heç bir şeyə aşiq ola bilməz. İnsanın məşuqu ancaq və ancaq Allah ola bilər. Hətta Allahı danıb, inkar edən şəxslər də, özlərindən xəbərsiz halda və fitrətən Allahı sevirlər, amma zahirdə onu itiriblər.
İnsanın dərdi ancaq və ancaq Allah dərdidir. O, bunu düzgün başa düşsə, ibadətləri Əli (ə.)-ın aşiqcəsinə etdiyi ibadətlər tək olacaqdır”.[1]

**Fitrətin insanın ictimai həyatındakı rolu**
Bura qədər deyilənlərdən nəticə əldə edirik ki, insanların səadəti fitrət qanunlarına əsasən yaşamalarındadır. Fitrət qanunları insanın fitrətində olan həqiqətlərdir. Ayədə buyrulur: **“Allah həmin fitri din əsasında insanları yaratmışdır”.** Belə bir fitrət dini yaşanmadıqda, insanlar arasında bir çox fəsad və problemlər yaranır. Şəxsi dünəyəvi maraqlar, tamahlar, bu uğurdakı çəkişmələr, bunun nəticəsindəki qorxu, təşviş və zülmlər, bir cəmiyyətin rahatlığını əlindən alan amillərdir. Müxtəlif cəmiyyətlərdə müşahidə olunan cinayətlər, haqsız qətllər və digər bütün mənfi hallar (qanunsuz nikahlar (zina), sələm, oğurluqlar, boşanmalar, abortlar, intiharlar və s.), insanların fitrət nizamına əsasən yaşamamalarından qaynaqlanır. Elə bir fitrət nizamı ki, aləmə rəhmət və məhəbbət saçır, insanları çirkinliklərdən, pisliklərdən uzaqlaşdırıb, onları yaxşılığa dəvət edir. Allah-taala buyurur: **“Həqiqətən, Allah (Quranda insanlara) ədalətli olmağı, yaxşılıq etməyi, qohumlara (haqqını) verməyi (kasıb qohum-əqrəbaya şəriətin vacib bildiyi tərzdə əl tutmağı) buyurar, zina etməyi, pis işlər görməyi və zülm etməyi isə**

1. “İnsan tanıma”, Ustad Şəhid Mürtəza Mütəhhəri, səh. 119-120.

**qadağan edir. (Allah) sizə düşünüb ibrət alasınız deyə, belə öyüd-nəsihət verir!”**[1]

Ayətullah Mürtəza Mütəhhəri (r.ə.) buyurmuşdur: “Cəmiyyətdə narahatlıq və problem yaradan məsələlər təbiət və fitrətin əleyhinə atılan addımlardır, nəinki, digər məsələlər”.[2]

1. Nəhl surəsi, 90-cı ayə.
2. “İslamda qadın hüquq sistemi”, Şəhid Mürtəza Mütəhhəri, səh. 25.

**Nəticə**

Tövbə qurtuluşdur. Tövbə ilə insan fitrətinə dönür, fitrəti ilə yaşadıqda isə ruhi qabiliyyətləri üzə çıxır və get-gedə inkişaf edir.

Fitrət qanunları ilə yaşamaq istəyən, fitrət aləmi ilə tanış olmalıdır. Bu tanışlıq onu, maqnit kimi bu aləmə cəzb edəcəkdir. Belə olduqda o, bu aləmdə seyr etmək istəyəcəkdir. Çünki bu halda özünə dönər və bu dönüşlə Sahibini istəyər. Zənnimizcə bu yazıda biz, az da olsa buna (yəni, fitrət aləmi ilə tanışlıq haqda məlumat verməyə) nail olduq. Müvəffəq edən Allahdır. Həmd aləmlərin Rəbbinə məxsusdur.

## İstifadə olunan ədəbiyyat


1. Qurani-Kərim.
2. Əl-Kutubul-ərbəə, Tənzim edən: Sadiq Bərzgər Befrui, Naşir: Muəssisətu Ənsariyan, Mətbəə: Negin, Qum.
3. "Ət-Təvhid fi təfsiri surətit-təvhid", Ayətullah şeyx Xəlil Mübəşşir Kaşani, 1-ci çap, ş.1396-cı il, Tehran, Naşir: Şirkəte çap və nəşr beynəl-miləl.
4. Təshihu etiqadil-İmamiyyə, Şeyx Mufid, mühəqqiq: Hüseyn Dərgahi, Naşir: Əl-mutəmərul-aləmi li-Əlfiyyətiş-Şeyx əl-Mufid, 1-ci çap, Mətbəə: Mehr, Qum, h.q.1413-cü il.
5. Əl-Etiqadat fi dinil-İmamiyyə, Şeyx Səduq, Təhqiq: İsam Əbdus-Seyyid, 2-ci çap, çap tarixi: m.1993-cü il. Naşir: Darul-mufid lit-təbaəti və nəşri vət-təvzi, Livan-Beyrut.
6. Əl-Məsailus-Sərəviyyə, Şeyx Mufid, Təhqiq: Saib Əbdül-Həmid, Naşir: Əl-mutəmərul-aləmi li-Əlfiyyətiş-Şeyx əl-Mufid, 1-ci çap, Mətbəə: Mehr, h.q.1413-cü il.
7. Kitabu Firdəvsil-əxbar, Şirveyh ibn Şəhrdar ibn Şirveyh Deyləmi, Naşir: "Darul-kitabil-ərəbiyyi", Beyrut, 1-ci çap, m.1987-ci il (h.1407-ci il).
8. Əl-Ənzarut-Təfsiriyyə, Ayətullah əl-üzma Şəhid Seyid Muhəmmədsadiq Sədr, Naşir: Əl-Muhibbin, Mətbəə: Yasin, Qum, 1-ci çap, h.q.1429-cu il.
9. Ləməhatun fil-kitabi vəl-hədisi vəl-məzhəb, Ayətullah əl-üzma Şeyx Lütfullah Safi Qulpayqani, Mətbəə: Saminul-hucəc (ə.), 1-ci çap, h.q.1434-cü il.
10. Əd-Durrus-səmin fiş-şəhadətis-salisəti bi vilayəti Əmiril-muminin (ə.), Ayətullah əl-üzma Şeyx Xəlil

Mübəşşir Kaşani, 1-ci çap, Beyrut, əl-Alami müəssisəsi.
11. Məfahimul-Quran, Ayətullah əl-üzma Şeyx Cəfər Sübhani, (mühazirələri) Yazan: Cəfər Hadi, 3-cü çap, h.q.1421-ci il, Naşir: İmam Sadiq müəsisəsi.
12. Cureyi əz dərya, Ayətullah Seyyid Musa Şubeyri Zəncani, Naşir: İntişaraate muasseseye ketabşenasiye Şie, 5-ci çap, yay – 1392-ci ş.
13. Fəlsəfətul-misaq vəl-Vilayət, Əllamə Seyid Əbdül-Hüseyn Şərafuddin Amili, "Muəssisətu Ali-Beyt (ə.) li-ihyait-turas", Beyrut, m.2011-ci il (h.q.1432-ci il).
14. Hədisşünasi, Ayətullah əl-üzma Cəfər Sübhani, (ərəbcədən) mütərcim: Muhsin Əhmədvənd, Çap: Zeytun, 1-ci çap, Qum, ş.1387-ci il.
15. Cayqahe aləme zərr və ərvah dər fitrəte tovhidiye insan, Muhəmməd Biyabani Əskuyi, 1-ci çap, ş.1394-cü il, Naşir: İntişarate Nəbə, Tehran.
16. Zəmzəme irfan, Ayətullah Reyşəhri, Naşir: Sazmane çap və nəşre Darul-Hədis, 7-ci çap, ş.1392-ci il, Mətbəə: Darul-Hədis.
17. İn şərhe bi nəhayət, Dər məhzəre Ayətullah hacı şeyx Xəlil Mübəşşir Kaşani (h), cild 1, Vəhid Bərzi, 1-ci çap, Nəşr: Tehran, nəşre Salman pak, ş.1394-cü il.
18. "Hədise sərv" ("İn şərhe bi nəhayət", cild 2.), Dər məhzəre fəqihe Əhli-Beyt Ayətullah hacı şeyx Xəlil Mübəşşir Kaşani (h), müəllif: Vəhid Bərzi, Naşir: İntişarate Qaime Ali Əli (ə.), 1-ci çap, 1397-ci il.
19. Sirrul-xəliqəti və fəlsəfətul-həyat, Ayətullah Seyid Adil Ələvi, Nəşr: Əl-muəssəsətul-İslamiyyətul-ammətu lit-təbliğ vəl-irşad, Qum, Mətbəə: Ən-Nehzətu, 2-ci çap, h.q.1420-ci il.

20. Risaleye Liqaullah, Ayətullah Mirzə Cavad Məlimi Təbrizi, Naşir: İntişarate Əşkzər, Qum. 1388-ci il.
21. Səhihul-Buxari, Buxari, Darul-kutubul-ilmiyyə – Beyrut, 3-cü çap, m.2005-ci il.
22. Ruhe mucərrəd, Ayətullah Əllamə Seyid Muhəmməd Hüseyni Tehrani, 14-cü çap, h.q. 1435-ci il, Çap: "Çapxaneye Daneşqahe Məşhəd".
23. Seyr-o suluk, Ayətullah Əli Rizayi Tehrani, 1-ci çap, Naşir: Müəllif, ş.1393-cü il, Qum.
24. Əməle irfani dər portu elme vəhyani, Ayətullah Cavadi Amuli, Naşir: Mərkəze nəşre Esra, üçüncü çap, h/ş. 1393-cü il.
25. İstiftaat, Ayətullah əl-üzma Şeyx Muhəmmədəli Gerami, 3-cü cild, 1-ci çap, ş.1390, çap: Hafiz.
26. Arapça – Türkçe sözlük, Serdar Mutçalı, Dağarcık yayınları, 1995-ci il, İstanbul.
27. Kamil insan, Ustad Şəhid Mürtəza Mütəhhəri, mütərcim: Ağabala Mehdiyev, Naşir: Mədyən, birinci çap, 2001-ci il.
28. Fitrət, Mürtəza Mütəhhəri, mütərcim: Ağabala Mehdiyev, "Parlaq İmzalar" Nəşriyyatı- 2017-ci il.

# Qurani-Kərimdə peyğəmbərə (s) və Əhli-beytə (ə) təqlid (Əllamə Təba-təbainin əl-Mizan təfsirinə istinadla

**Akif Rəhimov**[1]

## Abstarkt

Təqlid və itaət mahiyyətcə eynilik təşkil edir, ona görə Qurani -Kərimdə itaət barəsində gələn ayələrə təqlid məsləsi kimi baxa bilərik. Qurani –Kərimdə isə islam Peyğəmbərinə (s) və həmçinin başqa digər peyğəmbərlərə (ə) itaət mövzusunda ayələr olduqca çoxdur. Araşdırma apararkən bu ayələrdən hansının əhkami, hansının vilayət məsələsi və hansı ayələrin sadəcə islam maarifində təqlid olduğunu müəyyən etmək bizim mövzunun əhatə dairəsini təşkil edir. Ona görə Əhli –beytə (ə) təqlidimizin bəlli olması üçün bu ayələr müzakirə olunmalı və onların təfsirlərinə qismən də olsa nəzər yetirilməlidir. Qurani-Kərimi tilavət edirkən biz bir çox ayələrdə itaət sözünə rast gəlirik və bu itaət kəlməsi həm müsbət və həm mənfi mənada işədilir. Həm itaət və həmdə təqlid mahiyət etibarı ilə özündə tabeçilik mövhumunu daşıdığından, itaətə dair ayələrə biz eyni zamanda təqlid kimi də baxa bilərik. Bu araşdırmaları aparmamışdan öncə, Peyğəmbər və Əhli –beytə (ə) olan təqlidə belə bir tərif verə bilərik: Peyğəmbərə (s) və Əhli –beytə (ə) təqlid - Allah –təalaya itaət, Peyğəmbər (s) və Əhli –beyt İmamlarına tabe

1. İslam Araşdırmaları fakültəsinin məzunu, İslam Araşdırmaları institutu, Əl-Mustafa Beynəlxalq Virtual Universiteti, Qum, İran.

olmaq, bütün məsələlərdə onlara etibar etməklə onların arxasınca getmək və onları rəhbər və nümunə olaraq götürməyə deyilir.ə

**Açar sözlər:** Quran, Peyğəmbər (s), Əhli-beyt (ə), Təba-təbai, əl-Mizan, təqlid, itaət

## Müqəddimə

Biz indiyə kimi təqlidi ancaq fiqhi termin kimi tanıyırdıq, bu isə müctəhidlərə təqliddən ibarət idi. Bu təqlidin ancaq zahiri cəhəti idi. Ancaq müctəhidlərə təqlidin əsil mahiyyətini təşkil edən onun batini cəhəti, əslində Alahın, Onun Peyğəmbərinin (s) və Əhli –beyt İmamlarının (ə) itaətində və tabeçiliyində olmaq deməkdir. Buradan belə bir nəticə hasil olur ki, biz müctəhidlərə olan təqlidimizə, sadəcə hər hansı fəqihə olan təqlid kimi yox, Allah-təalanın itaətində qalmaqla, Peyğəmbər (s) və Əhli-beytin (ə) itaət və təqlidində olmaq kimi qəbul etməliyik. Bunun başqa anlam yolu da yoxdur. Bizim müctəhidlərə təqlidimizi ancaq onun zahiri ilə qəbul edərək tanımağımız, bir çoxlarında buna qarşı əks münasibətin yaranmasına gətirib çıxarır ki, bu da bir çoxlarının təqliddən qaçmağına səbəb olur. Bu səbəbdən Peyğəmbər (s) və Əhli –beytə (ə) təqlid məsələsini Qurani –Kərim cəhətindən araşdırmağımıza bir ehtiyac duyulur.

# Qurani–Kərimdə vilayət məsələlərində Peyğəmbər (s) və Əhli-beytə (ə) təqlid

Nisa surəsinin 59-cu ayəsi ilə başlamaq istəyirəm , çünkı Peyğəmbərə (s) və Əhli-beytə (ə) təqlid mövzusunda bundan yaxşı ayə görmürəm : "Ey iman gətirən kəslər, Allaha itaət edin , Peyğəmbərə və sizlərdən olan əmr sahiblərinə də itaət edin! Əgər bir şey barəsində mücadilə etsəniz, Allaha və axirət gününə iman gətiribsinizsə, onu Allaha və Peyğəmbərə həvalə edin! Bu, daha xeyirli və nəticə baxımından daha yaxşıdır" [1]. Əllamə Təbatəbai, özünün ***"Əl-Mizan" təfsirində*** bu ayədə gələn itaət barəsində belə şərh verir : " Şübhə etməmək lazımdır ki, uca Allahın bizdən özünə istədiyi itaət, Peyğəmbəri yolu ilə bizə vəhy etdiyi məlumatlara və qanunlara itaət etməmizdir.ıl

Peyğəmbərə gəlincə onun iki funksiyası var. Biri Allahın ona Quran xaricində vəhyi mesaclara söykənən təşrii qanun qoyma funksiyasıdır. Bu mesajlar Quranın qoyduğu ana prinsiplərinin və Quran ilə əlaqədar və bağlı olan detallarda Peyğəmbərin insanlara etdiyi şərhlərdir. Necə ki, Allah belə buyurur : " İnsanlara onlara göndəriləni izah üçün ...Sənə də Quranı nazil etdik "[2]. İkinci funksiyası isə doğru bildiyi görüş şərhləridir. Bu da onun hökm (mühakimə) və hökümət xüsusundakı vilayəti ilə əlaqədardır. Necə ki, uca Allah bununla əlaqədar olaraq belə buyurur : " Allahın sənə göstərdiyi şəkildə insanlar arasında hökm edəsən..."[3].[4]

Müəllif itaət barəsində şərhlərini davam etdirərək son nəticədə

1. Qurani-Kərim, "Nisa" surəsi, ayə 59 .
2. Qurani –Kərim, "Nəhl" surəsi, ayə 44 .
3. Qurani Kərim, "Nisə" surəsi, ayə 105.
4. Əllamə Təbatəbai, " Əl-Mizan təfsiri", c. 4, səh. 543-544

belə bir fikir irəli sürür:
"Şübhə edilməməsi lazım olan başqa bir xüsus da budur: "Allaha itaət edin , Peyğəmbərə və özünüzdən olan əmr sahiblərinə itaət edin" ayəsində əmr edilən itaət mütləq olub heç bir şərtə bağlanmamış və heç bir qeydlə də məhdudlaşdırılmamışdır"[1]. ə
Məkarim Şirazi özünün "Təfsir – Nümunə" əsərində ayədə gələn, "Ey iman gətirən kəslər , Allaha itaət edin , Peyğəmbərə və sizlərdən olan əmr sahiblərinə itaət edin !" itaət barəsində belə bir fikir irəli sürür: """azi
"Ayədə əvvəlcə imanlı şəxslərə Allahdan itaət etməyə göstəriş verilir. Aydın olduğu kimi imanlı bir fərdin bütün itaətləri, gərək Allaha itaət etməklə tamamlansın və hər cür rəhbərlik onun pak zatından sərçeşmə alsın və onun göstərişlərinə əsasən olsun . Çünki bütün kainatın hakimi və maliki odur və hər cür hakimiyyət və malikiyyət onun fərmanı ilə omalıdır . İkinci mərhələdə Peyğəmbərdən(s) itaət etməyə göstəriş verir. Peyğəmbər məsumdur və heç bir həva və həvəs üzündən söz deməz. Peyğəmbər Allahın insanlar arasında nümayəndəsidir və onun sözü Allahın sözüdür. Bu məqam və mənsəbi Allah özü ona vermişdir. Beləliklə Allahdan itaət etməklik, onun xaliqiyyətini və müqəddəs zatının hakimiyyətini istəməkdir. Lakin Peyğəmbərdən(s) itaət etmək Allahın göstərişi ilə vacib olur. Başqa sözlə desək Allahın itaəti zat səbəbi ilə vacibdir. Və Peyğəmbərin itaəti isə başqasının səbəbi ilə vacibdir. Üçüncü mərhələdə " ulul - əmrdən " itaət etməyə göstəriş verir

1. Burada, səh 547.

ki, bu da islam cəmiyyətini, xalqın dinini və dünyasını qorumaq üçündür”[1].

## Araşdırma

Əvvəla onu qeyd etmək lazımdır ki, yuxarıdakı ayənin zahirinə nəzər yetirdikdə, burada itaət sözü iki dəfə işlədilmişdir. Alaha itaət barəsindəki ifadə ayrı qeyd olunmuşdur, Peyğəmbərə(s) və əmr sahiblərinə itaət ifadəsi isə birgə qeyd olunaraq bizim diqqətimizi özünə cəlb edir. İlk öncə onu deməliyik ki, ayədə Peyğəmbərə(s) və əmr sahiblərinə olan itaətin birgə qeyd olunması bu itaətin eyni səviyyədə olmasına dəlalət edir. *Əllamə Təbatəbainin* də bu barədə fikri belədir[2]. Bu isə onu göstərir ki, əmr sahibləri elə şəxslərdir ki, onların səviyyəsi Peyğəmbər(s) səviyyəsindədir və Peyğəmbərə (s) itaətin vacibliyi nə qədərdirsə, onlara da itaətin vacibliyi o qədərdir. Ancaq ümumilikdə Allah – təala öz itaətindən sonra onların itaətini qeyd etməsi isə, onlara itaətin elə Allaha itaətin olduğunu və eyni zamanda onların hamısının məsum olmaqlarını göstərir[3]. Çünki ancaq məsum şəxslərdən olan itaət Allaha itaət ilə eyni səviyyədə ola bilər. Əlbətdə şiə və sünni təfsir alimləri ümumən bu ayə və əmr sahibləri barəsində müxtəlif fikirlər söyləmişlər və biz bu barədə sonrakı araşdırmalarımızda fikir söyləyəcəyik. Biz əvvəlki “külliyyat ” fəslində təqlid ilə itaəti arşdırarkən, göstərdik ki, həm təqlid və həm də itaətdə tabeçilik olduğundan bu iki məfhum demək olar ki, eynidir, ancaq bir fərqlə ki, hər itaət təqlid olduğu kimi, hər təqlid itaət deyil.

---

1. Məkarim Şirazi, “Təfsi – Nümunə”, c, 6, 1- ci hissə, səh. 250
2. Əllamə Təbatəbai, “El-Mizan” Fi təfsiril Kuran, c. 4, səh 547
3. Burada, səh . 547.

Qurani-Kərimi təlavət edirkən biz bir çox ayələrdə itaət sözünə rast gəlirik və bu itaət kəlməsi həm müsbət və həm mənfi mənada işədilir. Həm itaət və həmdə təqlid mahiyət etibarı ilə özündə tabeçilik mövhumunu daşıdığından, itaətə dair ayələrə biz eyni zamanda təqlid kimi də baxa bilərik. Bircə Allaha itaət məsələsində təqlid ifadəsinin işlədilməsinin nə dərəcədə düzgün olub-olmaması məsələsi qalır. Görəsən Allah barəsində də təqlid sözününü işlədə bilərikmi ? Əgər Allahın arxasınca gedib, onu izləyirik desək, belə təqlid əlbəttə bir az məcazi məna daşımış olar. Çünki insan bu şəkildə təqlidi ancaq, özü kimi bəşərin arxasınca gedərək onu icra edə bilər, əgər Allahın sifətləri və əxlaqı barəsində oxşarlıq mənasında təqlid ifadəsini işlətsək, onda bu mənada təqlid sözünü istifadə edə bilərik. Digər tərəfdən bizə belə bir hədisdə məlumdur: “Allahın əxlaqı ilə əxlaqlanın”[1]. Bundan digər başqa yerlərdə Allaha itaət sözünü işlətmək daha münasib ifadədir. Fəslin əvvəlində təqlidə verdiyimiz tərifdən bildiyimiz kimi, təqlidin bir mənası da kiməsə özünü oxşatmaq, özünə bir örnək olaraq nümunə götürmək mənasıdır. Bu barədə biz daha geniş şəkildə söhbət açacağıq. Yuxarıda izah etdiklərimizə əsasən, əgər Peyğəmbər (s) və Əhli – beyt barəsində itaət sözünün yerinə təqlid sözünü tətbiq etsək, onda Peyğəmbərə(s) və Əhli – beytə təqlidimiz elə Allaha itaətdir deyə bilərik.lAllaha və onun Peyğımərinə (s) itaət barəsində ayələrə isə Quranı – Kərimin bir çox yerlərində rast gəlirik . Misal üçün buna dair aşağıdakı ayələri göstərə bilərik:gggg

“Peyğəmbərə itaət edən şəxs şübhəsiz ki , Allaha itaət etmiş olur , hər kim üz döndərsə , biz səni onlara gözətçi təyin etməmişik” [2].

---

1.Əllamə Məhəmməd Baqir Məclisi, Biharul-ənvar, c. 1, səh. 58
2. Qurani-Kərim, ”Nisa” surəsi, ayə 80

Başqa bir yerdə yenə belə buyurylur: “Allahın və Peyğəmbərin itaətində olun ! Bəlkə sizə rəhm edilsin”[1]

Bu da ona dəlalət edir ki , Peyğəmbərə (s) və onun ardınca Əhli – beytə (ə) olan təqlid Quranı – Kərimin və eyni zamanda islam dininin ehtivasın təşkil edir. Ancaq burada Peyğəmbər (s) və Əhli – beytə (ə) olan təqlid ilə fəqihlərə olan təqlidin fərqini izah etmək yerinə düşər. Peyğəmbər (s) və Əhli – beytə (ə) (məsum İmamlara) olan təqlid ilə ələm mücdəhidə olan təqlid arasında müəyyən fərqlər var və bu fərq də ondan ibarətdir ki, risalələrdə qeyd olunduğu kimi, fəqihlərə təqlid firuddində dinin zəruri və qəti olmayan hökmlərindədir, və üsuliddin məslələrində bizim onlara təqlidimiz yoxdur, ancaq Peyğəmbər və məsum İmamlara (ə) olan təqlidimiz isə mütləq təqliddir. Yəni firuiddinə dair məslələrdən savayı üsuliddinin bəzi məsələlərində biz Peyğəmbər(s) Əhli – beytdən (ə) təqlid edirik. Məsələn Qurani-Kərimdə Allahı, onun peyğəmbərlərini, məsum imamları düzgün tanımaqda və digər məsələlərdə bizim təfsirlərə, müxtəlif nəqli dəlillərə ehtiyacımız var. Eyni zamanda, Qurani- Kərimdə Allahın əli, üzü, ayağı, ərşi barədə, məad haqqında ayələr mövcuddur ki, onların düzgün araşdırılmasına və nəticə çıxarılmasına ehtiyac var. Bütün bunlar barədə məlumatı biz Peyğəmbərdən (s) əxz edir və ondan öyrənirik. Elə götürək Allahın təkliyinə dair tövhid barədə ilk bilgiləri, özünün peyğəmbərliyini bizə çatdıran Peyğəmbərin (s) özüdür. Düzdür Allaha və Onun peyğəmbərinə olan ilk iman gətirməyimizdə Peyğəmbər (s) ancaq bir vasitəçi rolunda olsa da, üsulidinin məad, ədl və imamət məsələləri kimi digər məslələrində bilgiləri biz artıq

---

1. Qurani-Kərim, “Ali-İmran” surəsi, ayə 132

Peyğəmbərə(ə) təqlid vasitəsi ilə əldə etmiş oluruq. Mütləq təqlid termini fikri, həmçinin Peyğəmbərə (s) və "əmr sahibləri" hesab etdiyimiz Əhli – beytə (ə) qeyd–şərtsiz itaət sözü ilə bağlı ayənin *"Əl – Mizan" təfsirindəki* fikrə uyğun gəlir. Bu da, digər şəxslərdən fərqli olaraq, Peyğəmbər (s) və Əhli – beyt İmamlarının(ə) məsumiyyətindən irəli gələn bir məsələdir. Məsumluq deyəndə isə, biz belə hesab edirik ki, bütün peyğəmbərlər və islam Peyğəmbəri (s) də daxil olmaqla və Əhli – beyt İmamları elə bir qüvvəyə malik olmuşlar ki, onları hər bir günahdan, xəta və səhvlərdən saxlayır və onlara məsumluq dərəcəsi verir. Ancaq digər şəxslərdə isə belə bir xüsusiyyət yoxdur. Məhz məsumluq xüsusiyyətinin onlarda olub, bizdə olmaması bizə onlara mütləq təqlid yolu ilə itaəti vacib edir.nn nnnnn nnnnnnnn

Mütləq təqlid dedikdə, başqa bir mənada onlara tam təslimiyyəti nəzərdə tutulur. Yəni hər bir işimizdə biz özümüzü Peyğəmbər (s) və Əhli – beyt İmamlarına (ə) tam təslim etməliyik. Burada artıq onların fikirləri və verdiyi hökmlərin qarşısında bizim öz fikir və rəy bildirməyimizin yeri yoxdur. Əks halda biz onların və eyni zamanda isə Allahın itaətindən çıxmış oluruq. Bu barədə Allah – təalə Qurani – Kərimdə belə buyurur : "Allah və onun Rəsulu, bir işə hökm etdikləri zaman, heç bir mömin kişi və qadına yaraşmaz ki, özləri barəsində ayrı bir iş seçsinlər. Kim Allah və onun Rəsuluna asi olsa, açıq–aydın bir azğınlığa düşmüş olur"[1] . 1111111111111111111111111111

Digər bir ayədə: "Amma belə deyildir, sənin Rəbbinə and olsun ki , onlar öz aralarında baş verən ixtilaflarda səni hakim etməyincə və verdiyin hökmlərə görə dilgir olmadan sənə tam boyun əyməyincə iman gətirməzlər"[2] Və yaxud başqa bir

1. Qurani-Kərim, "Əhzab" surəsi, ayə 36.
2. Qurani-Kərim, "Nisa" surəsi, ayə 65.

yerdə isə belə buyurulur : Allah və Onun mələkləri Peyğəmbərə salavat göndərirlər . Ey iman gətirənlər! Ona salavat göndərin və ona təslim olub salam edin!”[1] Yuxarıda deyildiyi kimi əgər Peyğəmbər (s) və Əhli – beyt İmamları (ə) məsumluq sifətinə malik olmasaydılar, necə ki, əhli sünnənin alimləri belə hesab edrirlər, onda onlar bir çox səhv və günahlara yol verərdilər ki, nəticədə onları təqlid edən şəxslər zəlalətə uğrayar və Allahın itaətindən çıxmış olardılar. Bu isə Allahın öz peyğəmbərləri(ə) vasitəsi ilə icra etdiyi rəsulluq missiyasının uğursuzluqla nəticələnməsi və insanların hidayət məsələsinin puça çıxmasına səbəb olardı. Biz burada, yeni bir termin kimi “mütləq təqlid” terminini irəli sürərək, ona belə bir tərif verə bilərik. ***Mütləq təqlid*** – həm üsulidin və həmdə firüiddin məsələlərində Peyğəmbərə (s) və ondan sonra məsum İmamlara (ə) olan təqliddir”.
İndi, ayədə təqlidi vacib olan əmr sahiblərinin kimlər olduğu və onların məsumiyyəti barəsində dəlilləri nəzərdən keçirək .

Əllamə Təbatəbai, “Əl-Mizan” təfsiri kitabında bu barədə belə qeyd edir: “Şübhə edilməməsi lazım olan başqa bir xüsus da budur: “Allaha itaət edin , Peyğəmbərə və özünüzdən olan əmr sahiblərinə itaət edin” ayəsində əmr edilən itaət mütləq olub heç bir şərtə bağlanmamış və heç bir qeydlə də məhdudlaşdırılmamışdır. Bu da Peyğəmbərimizin (s) gerçəkdə Allahın hökmünün əksinə əmr edib, yasaqlamayacağına bir dəlildir. Əks halda uca Allahın ona itaət etməyi zəruri etməsi ziddiyyətli olardı. Peyğəmbərin hökmü ilə Allahın hökmü arasındakı uyğunlaşma isə, ancaq Peyğəmbərin(s) məsumiyyət sifəti ilə reallaşa bilər. Bu söz əmr sahibləri haqqında da eyni

1. Qurani-Kərim, “Əhzab” surəsi, ayə 56.

ilə etibarlıdır[1].lƏllamə Təbatəbai əmr sahiblərinin də Peyğəmbər (s) kimi məsumiyyət sifətlərinə malik olduqlarını sübut etdikdən sonra , əmr sahiblərinin kim olduqları barəsində belə buyurur: “Yuxarıda etdiyimiz şərhlərdən ortaya belə çıxdı ki, “sizdən olan ululəmr” ifadəsini hal və əqd əhlindən meydana gəlmiş bir heyətə şamil etməyin mənası yoxdur. Çünki nə şəkildə istəyiriksə yozaq, nəticədə bu heyət ictimai bir təşkilatdır. Əmr sahibləri dedikdə isə məqsəd ancaq, ümmətin içindən olan müəyyən fərdlər və kəslərdir. Bu kəslər sözlərində günahsızdırlar və itaət edilmələri zəruridir. Onların kim olduqlarının bilinməsi üçün də Allah tərəfindən Allahın öz sözü ilə və ya Peyğəmbərin dili ilə dəqiq şəkildə ifadə etmələrinə ehtiyac vardır. Bu səbəbdən əmr sahibləri anlayışı, Əhli- beyt İmamları kanalı ilə nəql edilən və əmr sahiblərinin özlərinin olduğunu açıqlayan rəvayətlərlə müəyyənləşdirilir[2].

Daha sonra Əllamə Təbatəbai rəvayət bəhsində bu rəvayətlərdən bəzilərini qeyd edir və biz bunlardan ikisini sizin nəzərinizə çatdırırıq.ı1-ci rəvayət: Tefsir-ul Burhanda İbn-i Babeveyhin öz rəvayət zinciri ile Peyğəmbər (s) sahabəsi Cabir ibn Abdullah Ənsaridən  belə nəql olunur: “Ya əyyuhəlləzinə əmənu ...” ayəsi nazil olan vaxt mən soruşdum ki , ey  Allahın rəsulu, biz Allahı və onun rəsulunu tanıyırıq. Bəs itaəti sizə itaətlə bir sıraya qoyulan əmr sahibləri kimdir ? Həzrət buyurdu ki, ey Cabir, onlar mənim canişinlərim, məndən sonra müsəlmanlar üçün məsum imamlardır”[3].llll    ö 2-ci rəvayət : Təfsiril Əyyaşidə Əbu Basir tərəfindən nəql edilir : “ İmam Baqir (ə) belə buyurur : “Bu ayə ( yəni  Allaha itaət edin... ayəsi) Hz. Əli (ə) haqqında nazil olmuşdur”. Əbu

1. Əllamə Təbatəbai, “ Əl-Mizan təfsiri”, c. 4, səh. 547
2. Burada, səh. 560.
3. Əllamə Təbatəbai, “Əl-Mizan təfsiri”, c. 4, səh. 575

basir deyir ki : "Ona dedim ki , insanlar (sünnilər) bizə belə deyirlər : " Elə olsaydı, Allahın Quranda Hz. Əli (ə) ilə Əhli – beyti adla zikr etməsinə nə mane olurdu?". İmam Baqir(ə) dedi ki, belə deyənlərə belə deyin : " Allah, Peyğəmbərinə (s) namaz qılmağı əmr etdi, lakin namazın üç və ya dörd rükət olacağını bildirmədi. Bunu Peyğəmbərimiz müsəlmanlara təfsir etdi. Yenə Allah həcc əmrini endirdi, lakin Kəbənin yeddi dəfə təvaf edilməsini söyləmədi. Bunu da onlara Rəsulullah (s) təfsir etdi. Yenə Allah, "Allaha itaət edin , Peyğəmbərə (s) və özünüzdən olan əmr sahiblərinə itaət edin" ayəsini endirdi . Ayə Hz. Əli (ə), Həsən(ə) və Hüseyn(ə) (Allahın salamı olsun onlara) haqqında endi . Peyğəmbərimiz (s) də Hz. Əli (ə) haqqında belə buyurdu: "Mən kimin mövlasıyamsa , Əli də onun mövlasıdır". Yenə Rəsulullah (s) buyurdu : " Sizə Quranı və Əhli-beytimi vəsiyyət edirəm. Mən Allahdan bunların bir-birindən ayrılmadan hovuzun başında mənə gətirilməsini istədim. Allah da bu istəyimi qəbul etdi".[1]

## Araşdırma

Əlbəttdə, bizim məqsədimiz fəqihlər tərəfindən ayələrin təfsirini vermək , onları şərh etməkdən ibarət deyil , məqsəd fikirləri əsas məqamlara yönəltmək və Qurani –Kərimdə vilayət və hakimiyyət məsələlərində kimləri təqlid edəcəklərimizi bizə göstəriş verildiyini müəyyənləşdirməkdir. Yuxarıda və Qurani-Kərimin digər yerlərində gəlmiş ayələr və rəvayətlər təqlid edəcəyimiz şəxslərin Peyğəmbər (s) və onun Əhli- beyti olan məsum İmamlar (ə) olduğunu bizə bəlli edir. Bura Maidə surəsinin 55 –ci və Əhzab surəsinin isə təthir ayəsini də əlavə etmək olar: "Sizin əsil vəliniz (sahibiniz)

---

1. Burada, səh. 578.

Allah , onun Peyğəmbəri və iman gətirənlərdir : o kəslər ki , namaz qılır və ruku halında ikən zəkat verir”[1]. Təthir ayəsində isə Əhli-beytin məsumiyyətinə işarə olunaraq belə deyilir: “Evlərinizdə qalın ! İlk cahiliyyət qadınları kimi bəzənib-düzənib qənşərə çıxmayın ! Namaz qılın , zəkat verin, Allaha və onun Rəsulina itaət edin ! Allah siz Əhli-beytdən pisliyi uzaqlaşdırmaq və sizi pak – pakizə etmək istəyir”[2] .

Bir çox mücdəhidlərin təfsirinə əsasən , yuxarıdakı ayənin Əli (ə) -a, aşağıdakı ayə isə Əhli-beyt İmamlarının məsumiyyətinə aid edildiyi vurğulanır. Yuxarıda da qeyd etdiyimiz kimi məqsədimiz təqlid edəcəyimiz şəxsləri müəyyələşdirmək olduğundan, ancaq ayələrin təfsirlərindən çıxan nəticə, əqli və məntiqi dəlillər ilə sizi tanış etmək istərdim. Maidə surəsinin 55- ci ayəsinə nəzər yetirdikdə görürük ki, ayədə Allah, Peyğəmbər (s ) və iman gətirənlər hamısı eyni ilə “vəli” sözünə bağlanmışdır. “Vəli” sözünü isə əhli sünnə təfsirçiləri “dost” kimi, şiə təfsirçiləri isə “rəhbər” kimi götürülməsini iddia edirlər və bu məsələ hələ indiyə kimi mübahisə mövzusu olaraq qalır. Bu sözün ərəb dilçiliyi nöqteyi – nəzərindən nə olduğunu söz mövzusu olaraq gəlin lüğət alimlərinin öhdəsində qoyaq. Mən və mənim kimi milyonlarla müsəlmanın işi, Allahın rəhbər olaraq bizə verdiyi əqlimizi işə salaraq ayələr və bizim dövrümüzə gəlib çatan hədislər müstəvisində araşdırma aparıb həqiqəti üzə çıxarmaqdır. Və bu həqiqət müstəvisində kimin arxasınca gedəcək və kimi təqlid edəcəklərimizi müəyyən etməkdir. O Peyğəmbər(s) və ondan sonra o canişinlərə ki, hər işlərində məsumdurlar, düz yola hidayət olmuşlar, elmin mənbəyidirlər və düz yola da

1. Qurani-Kərim, ”Maidə” surəsi, ayə 55, səh 117.
2. Qurani-Kərim, “ Əhzab” surəsi, ayə 33, səh 422 .

hidayət edirlər, yoxsa o kəslərə ki, özləri hidayət olunmağa möhtacdırlar. Yuxarıdakı ayələrin araşdırılması və həqiqətin üzə çıxarılmasında, bəzi nəqli və əqli dəlillərin bizə yardımıçı olacağını deyərdik . "Maidə" surəsinin 55- ci ayəsinin Əli ibn Əbutalib haqqında nazil olduğu barəsində bizim dövrə gəlib çatmış və bir çox ravilər tərəfindən nəql olunmuş bir çox hədislər vardır . Onlardan birini sizin nəzərinizə çatdırıram. Hədis İmam Həsən (ə) Müctəbadan nəql olunmuşdur : "Əmmar Yasər belə deyirdi : "Yoxsul bir şəxs Əli ibn Əbutalib namazın rukusunda olarkən ona yaxınlaşıb kömək istədi. İmam elə həmin vəziyyətdə barmağındakı üzüyü çıxararaq ona verdi. Həmin vaxt Peyğəmbər (s) məscidə daxil olaraq əhvalatdan xəbər tutdu. Ayə nazil oldu. Peyğəmbər (s) həmin ayəni bizim üçün oxudu"[1]. "Vəli" sözü barəsində əvvəla onu demək lazımdır ki, bu sözü Allah-təala həm özü barəsində və həmdə Peyğəmbər və iman gətirənlər barəsində işlədir və "Nisa" surəsi, 59 –cu ayədə gələn "itaət" kəlməsindən fərqli olaraq bir dəfə işlədilir. "Vəli" sözünü Allah –təala həm özü barəsində və daha sonra Peyğəmbər (s) və iman gətirənlər barəsində bir dəfə işlətməsi bu sözün dost, köməkçi kimi mənalardan fərqli olaraq xüsusi məna daşıdığını bizə bəlli edir. Digər tərəfdən Allah-təala "vəli" sözünü özü ilə bir cərgədə həm Peyğəmbər (s) və həmdə iman gətirənlərin barəsində işlətməsi, ona dəlalət edir ki, bu iman gətirənlərdə adi siravi iman gətirənlər deyil. Bu xüsusi məna isə bizim anladığımız dost və köməkçi mənasında ola bilməz. Ona görə ki, bizə məxsus sifətlər ilə Allah-təalaya məxsus sifətlər eyni deyil və bu bizim "vəli" barədə yürütdüyümüz mühakimələrdən tam fərqlidir və bu vəlayət və rəhbərlik mənasında ola bilər. Bu

---

1. Əllamə Təbatəbai, Əl- Mizan təfsiri c. 6, səh. 16

iddianı biz Əllamə Təbatəbainin "Əl-Mizan" təfsirində də müşahidə etmiş oluruq.
Əllamə Təbatəbai "Əl-Mizan" təfsirində Allah-təalanın vəlayəti barəsində belə söyləyir: "Uca Allahın Quranda özünə aid etdiyi vəlayət növləri bunlardır: Onun "təkvini (yaratma) vəlayəti" və "təşrii vəlayəti". Bunlara "həqiqi vəlayət" və "etibari vəlayət"də deyilə bilər. Uca Allah Peyğəmbərə (s) məxsus vəlayət növü olaraq teşrii vəlayəti zikr edir. Təşrii vəlayət isə qanun qoymağı, haqqa çağırmağı, ümməti öyrətməni, onlara hökm etməyi və aralarında hökm verməyi ehtiva edir . Bu ayələrdə buyurulduğu kimi: "Peyğəmbər, möminlər üzərində özlərindən daha çox səlahiyyət sahibidir." [1] Bu ayələr də eyni mənadadır: "Biz sənə haqq olaraq kitabı endirdik ki, insanlar arasında Allahın sənə göstərdiyi kimi hökm verəsin."[2] "Sən insanları qətiliklə doğru yola çatdırasan."[3], "Allah, onlara özlərindən olan və onlara Allahın ayələrini oxuyan, onları təmizləyən, özlərinə kitabı və hikməti öyrədən bir peyğəmbər göndərdi."[4] , "Sənə də bu Quranı endirdik ki, insanlara endiriləni onlara açıqlayasan."[5] , "Allaha itaət edin, Peyğəmbərə itaət edin."[6] "Allah və Elçisi bir işdə hökm verdikləri zaman artıq mömin bir kişi və qadının, işlərini öz istəyinə görə təyin etmə haqqı yoxdur."[7] , "Onların arasında Allahın endirdiyiylə hökm et. Onların həva-həvəslərinə uyma. Diqqət yetir də Allahın endirdiyinin bir qisimindən səni azdırmasınlar."[8] Lakin daha əvvəl də söylədiyimiz kimi uca

1. Qurani –Kərim, Əhzab surəsi, ayə 6.
2. Qurani-Kərim, "Nisə" surəsi, ayə 105.
3. Qurani-Kərim, "Şura" surəsi, ayə 52
4. Qurani-Kərim, «Cümə" surəsi, ayə 2.
5. Qurani-Kərim, "Nəhl" surəsi, ayə 44.
6. Qurani-Kərim, "Nisə" surəsi, ayə 59.
7. Qurani-Kərim, "Əhzab" surəsi, ayə 36.
8. Qurani-Kərim, "Maidə" surəsi, ayə 49.

Allah, ümmətə köməkçi olma mənasındakı vəliliyi Peyğəmbər əfəndimizə (s) izafə etməmişdir. Bütün bunlardan çıxan ortaq nəticəyə görə Peyğəmbərimizin(s), ümməti Allaha sövq etmə, onları idarə etmə və aralarında hökm vermə mövzusunda onlar üzərində vəlilik səlahiyyəti vardır. Onlar da ona mütləq mənada itaət etməklə öhdəçiliklidirlər. Buna görə Peyğəmbərimizin (s) vəliliyi Allahın teşrii vəliliyinin əhatəsinə girər. Bununla bunu nəzərdə tuturuq: Peyğəmbərimizə (s) ümmətin öndəri olaraq itaət etmək fərzdir. Çünki ona itaət, Allaha itaət və onun vəlayəti Allahın vəlayətidir. Az əvvəl oxuduğumuz ayələrin bir qisimi bunun dəlilidir. Bu ayələr kimi: *"Allaha itaət edin, Peyğəmbərə itaət edin."*[1] *"Allah və Peyğəmbər bir işdə hökm verdikləri zaman..."*[2] Bu mənadakı digər ayələr də elədir. "Sizin vəliniz ancaq Allah, ONun Elçisi və... möminlərdir."[3] ayəsində Allaha və ONun Rəsuluna ətf edilərək möminlər üçün söz mövzusu edilən vəlilik də, Allah və Peyğəmbərimiz üçün sabit olan bu mənadakı vəliliyin eynisidir. Çünki ayənin axışı, bu vəliliyin bir vəlilik olduğunu və bu vəliliyin uca Allahdan asılı olaraq və Allahın icazəsi ilə də Peyğəmbərin və ayədə sözü keçən möminlərin haqqı olduğunu göstərir. Əgər ayədə Allaha izafə edilən vəlilik, möminlərə izafə edilən vəlilikdən başqa növdə olsaydı, səhv anlama ehtimalını ortadan qaldırmaq üçün möminlər üçün başqa bir vəlilik zikr edilməsi uyğun oldurdu. Buna bənzər vəziyyətlərdə olduğu kimi. Necə ki uca Allah belə buyurur: "O sizin üçün xeyirli bir qulaqdır. Allaha inanar, möminlərə inanar." [4] Bu ayədə "inanmaq" sözü təkrarlanmış; çünki hər iki

---

1. Qurani-Kərim, "Nisə" surəsi, ayə 59.
2. Qurani-Kərim, "Əhzab" surəsi, ayə 36
3. Qurani-Kərim, " Maidə" surəsi, ayə 55
4. Qurani –Kərim, "Tövbə" surəsi, ayə 61

yerdəki mənası bir-birindən fərqlidir. Bunun bənzərini "Allaha itaət edin, Peyğəmbərə itaət edin." [1]ayəsində də görürük.”[2].

“Vəli” sözü mübahisələrə səbəb olduğu kimi , “ iman gətirənlər” sözünün niyə cəm formasında gəlməyi də çoxlu mübahisələr yaratmışdlr. Həm sünni və həm də şiə alimləri bu barədə müxtəlif fikirlər irəli sürmüşlər. Əlbəttə yuxarıda dediyimiz kimi, ayədə Allah, Peyğəmbər və iman gətirənlər “vəli” sözünə bağlanmışdır. Bunu əksəriyyət qəbul edir və bu sözün “dost” və ya “ rəhbər” kimi qəbul edilməsinin də “ iman gətrənlər” sözünün tək və ya cəmdə qəbuluna təsiri vardır . Əqlimiz ona işarə edir ki, əgər “vəli” sözünü “dost” kimi qəbul etsək , onda “iman gətirənlər” sözünü cəm halında götürə bilərik və buna oxşar ayələrə Qurani – Kərimdə biz çox rast gəlirik. Ancaq bu sözü “rəhbər” mənasında götürsək , necə ki, bu Əllamə Təbatəbainin “Əl-Mizan” təfsiri ilə bizə sübut olundu, onda “iman gətirənlər” cəm şəklində gəlməyinə baxmayaraq biz onu tək şəxsə aid edə bilərik, necə ki, Qurani-Kərimdə bir çox ayələrində bir nəfər şəxsə aid olmasına baxmayaraq ayə cəm formasında verilmişdir. Digər tərəfdən isə, bütün “ruku halında olan iman gətirənlər” bizim rəhbərimiz ola bilməz . Rəhbər sözü bir nəfər şəxsə və yaxud bir dəstə şəxsə aid ola bilər ki, onlar da Peyğəmbər (s) ilə eyni səviyyəli şəxslər olmalıdırlar. Və həmçinin “Nisə” surəsinin 59-cu ayəsində olduğu kimi, bu şəxslərin Allah-təalanın adından sonra gəlməsi və Allah-təalanın onları bizim üçün rəhbər görməsi onların məsumiyyətindən xəbər verir. Ona görə ki, Allah-təala vilayət və hakimiyyət kimi belə bir vacib və məsuliyyətli məsələni hər adamın öhdəsində qoya bilməz. Həm də bu ayənin Əli (ə) – aid olması barəsindəki hədislər

1. Qurani-Kərim, “Nisə” surəsi, ayə 59
2. Əllamə Təbatəbai,Əl- Mizan” təfsiri c. 6, səh. 16 -17.

həm sünni və həm də şiyə mənbələrində həddən artıq çox gəlmişdir və digər Quran ayələri və hədislər işığında öz gücünü daha da artırır. "İman gətirənlər"in cəm şəklində gəlməsini başqa prizmadan nəzər yetirsək, adı çəkilən rəhbərlərin təkcə Əli (ə) ilə bitmədiyinə, digər Əhli-beyt İmamlarına (ə) də şamil olduğu nəticəsinə gəlirik. Aşağıda Əhli-beyt İmamların dilindən gətirəcəyimiz hədis buna bir dəlildir: " Əhməd b . İsa, Əbu Abdullahdan (Cəfəri Sadiq (ə)) : "***Sizin himadəyarınız ancaq Allah, Rəsulu və iman edənlərdir***" [1] ayəsi ilə əlaqədar olaraq belə rəvayət etmişdir: "Sizə ən layiq olan və sizin işlərinizi, özünüzü və mallarınızı idarə etməyə ən çox haqq sahibi olanlar Allah, Rəsulu və imam gətirənlərdir. Burada keçən iman gətirənlərdə məqsəd, Əli (ə) və onun nəslindən qiyamət gününə qədər gələcək İmamlardır. Sonra Allah onları vəsf etmiş və belə buyurmuşdur: " ***Onlar ki, ram olaraq namazı qılar, zəkatı verirlər***"[2]. Əmirəlmöminin (ə) bir gün zöhr namazını qılarkən, ikinci rükətdə ruku halında əynində min dinar dəyərində bir əba var idi. Bu əbanı Nəcaşi Peyğəmbərə (s) hədiyyə etmiş, Peyğəmbərimiz (s) də Əliyə (ə) geyindirmişdi. Bir dilənçi gəldi və belə dedi: "Əssəlamu aleykə ey Allahın dostu və möminlərə canlarından yaxın olan kəs! Bu miskinə bir sədəqə ver". Əli (ə) əbanı əynindən aşağı doğru sürüşdürdü və ona götürüb geyinməsini işarə etdi. Buna görə onun haqqında bu ayə nazil odu. Əzzə və Cəllə olan Allah onun uşaqlarının verdikləri sədəqələri də onun sədəqəsinə qatdı və hamısını bir hesab etdi. Buna görə də onun nəslindən İmamlıq məqamına çatan bir kəs, onun kimi bu keyfiyyətə sahib olur. Beləcə

1. Qurani –Kərim, "Maidə" surəsi, ayə 55
2. Qurani-Kərim, "Maidə" surəsi, ayə 55.

bütün İmamlar ruku vəziyyətində sədəqə vermiş olurlar. Əmirəlmömininindən (ə) sədəqə istəyən dilənçi mələk idi. Onun nəslindən gələn İmamlardan sədəqə istəyən dilənçilər də mələklərdən olurlar”[1]

1. Əllamə Kuleyni, “Usuli Kafi”, c. 1, hədis 754, səh. 482

## Nəticə

Həm şiə və həm də sünni mənbələrində qeyd olunmuş Qədir-Xum hadisəsi hamıya bəllidir. Bu hadisə Maidə surəsinin 67-ci ayəsi ilə əlaqədardır və Peyğəmbərimizin (s ) axırıncı vida həcc mərasimində Qədir-Xum deyilən yerdə nazil olmuşdur. Ayə belədir:

“Ey Peyğəmbər! Öz Rəbbinin tərəfindən sənə nazil olunmuşu tamamilə çatdır, çatdırmasan Allahın risalətini yerinə yetirmiş olmazsan. Allah səni insanların (şərrindən) qoruyacaqdır. Allah kafir qövmləri (doğru yola) yönəltməz “[1].

Bir çox təfsir alimlərinin iddia etdiklərinə görə, ayə nazil olan kimi Peyğəmbər(s) təxirə salmadan bütün müsəlmanları Qədir-Xum deyilən yerdə cəm edərək , uzun xütbədən sonra Əli (ə )-ın əlini göyə qaldıraraq belə xitab edir : “ Mən kimin mövlasıyamsa, Əli də onun mövlasıdır. Allahım ona dost olana dost, düşmən olana düşmən ol və ona kömək edənə kömək ol” [2]. Bu hadisə ilə əlaqədar hamı Hz. Əlini (ə) təbrik edir, sonra “Maidə” surəsindəki ayə nazil olur:

“Bu gün kafir olanlar dininizdən bütün ümidlərini kəsiblər, daha onlardan qorxmayın, Məndən qorxun! Bu gün dininizi kamil etdim, sizə olan nemətimi tamamladım, din olaraq sizin üçün islamı bəyənib seçdim“[3]. Bu hadisə ilə əlaqədar rəvayətlər də, çoxlu mübahisələr mənbəyinə çevrilmişdir .

---

1. Qurani-Kərim, ”Maidə” surəsi, ayə 67
2. Mir Həmid Hüseyn Hindi “ Əbaqətul ənvar “ kitabı, Əhməd b. Hənbəl, “ Müsnəd”, c. 4, səh. 379, hədis 19321.
3. Qurani-Kərim, ”Maidə” surəsi, ayə 3

Sünni təfsirçiləri iddia edirlər ki, Peyğəmbər "mövla" deməklə, Əli (ə ) –a "dost" olduğunu söyləmişdir, şiə təfsirçiləri isə " mövla" sözünün " rəhbər" olduğunu hesab etmişlər. Burada da əksəriyyətin təsdiq edə biləcəyi iki əqli dəlil meydana çıxır:
Birinci dəlil ondan ibarətdir ki , o çatdırılması nə vacib məsələdir ki , Allah onun çatdırılmaması ilə Peyğəmbərimizin (s) neçə illik risalətinin sona çatmadığını iddia edir. Bir halda ki, bildiyimiz kimi "Maidə"surəsi Mədinə surələrindəndir və bu ayə axırıncı vida həccində nazil olmuşdur. Digər tərəfdən, ayədə Allahın Peyğəmbəri (s) insanların şərrindən qoruması ifadəsi, bu məsələnin çatdırılmasının vacibliyini daha da şiddətləndirir.lİkinci dəlilimiz isə ondan ibarətdir ki, bu necə olur ki, Peyğəmbər(s) o qədər insanları qızmar səhranın ortasına yığır və onu Əli (ə) – a dost olduğunu bəyan edir. Bu ağıla heç cürə sığmır və nə Allah tərəfindən əmr olunası və nə də Peyğəmbər (s) tərəfindən yerinə yertiriləsi bir işdir. Bir halda ki, bəlli bir hədisə görə, Peyğəmbər (s) arxada bir uşağın ağlaması ilə, camaat namazının uzadılmamasına göstəriş verir. Mən deyərdim ki, bu Allah – təalanı və Peyğəmbəri (s) layiqincə qiymətləndirməmək, onun məqamını alçaltmaq və onları düzgün tanımamaqdan irəli gələn bir məsələdir. Məhz Allahı, Onun peyğəmbərlərini və imamlarını düzgün tanımamağın nəticəsidir ki, indi bütün müsəlman ümməti parçalanmaya məruz qalmışdır. Yuxarıdakı ayə , hədis və əqli dəlilləri bir yerə cəm edərək tutuşduranda, "vəli" sözünün həqiqətən rəhbər mənasında olması qənaətinə gəlirik.

Ancaq Qurani –Kərimdə vilayət və hakimiyyət məsələlərində təqlid barəsində ayə bununla bitmir. Bunu biz Qurani – Kərimdə gəlmiş başqa bir ayənin timsalında müşahidə edirik:

“Onlara əmin-amanlıq yaxud qorxunc bir xəbər gəldiyi zaman dərhal onu yayırlar; halbuki əgər bunu Peyğəmbərə və öz əmr sahiblərinə həvalə etsəydilər, həmin xəbərin mahiyyətinə qadir olanlar bilərdilər. Əgər Allahın sizə fəzl-kərəmi və mərhəməti olmasaydı, az bir dəstədən başqa şeytana uyardız”[1].

1 . Qurani-Kərim, ”Nisə” surəsi, ayə 83

## İstifadə olunan ədəbiyyat


1. Qurani –Kərim (ərəbcə)
2. Qurani –Kərim (ərəbcə və tərcüməsi) mütərcim: Rəsul İsmayılzadə Duzal, nəşriyyat: “Qurani-Kərimi bütün dillərə tərcümə mərkəzi” 2000-ci il.
3. Ayətullahul –uzma Əllamə Seyyid Məhəmmədhüseyn Təbatəbai , “Əl-Mizan Qurani-Kərimin təfsiri” Bakı şəh. “Qələm” nəşriyyatı, 2011-ci il.
4. Əbəqatul-ənvarın xülasəsi, Hüseyn əl-Hindi, “Müəssəsətul-bəsə”, 1390 hicri-qəməri, ikinci çap.
5. Əl-Kafi, Məhəmməd ibnYəqub Kuleyni Razi, tədqiq: Əli Əkbər Qəffari, Beyrut, Darüs-səb və Darüt-təarüf, 1401 hicri-qəməri, dördüncü çap.
6. Müsnədi ibn Hənbəl, Əhməd ibn Məhəmməd Şeybani (İbn Hənbəl), tədqiq: Abdullah Məhəmməd Dərviş, Beyrut, Darül-fikr, 1414 hicri-qəməri, ikinci çap.
7. Ayətullahul –uzma Məkarim Şirazi , “Təfsiri –Nümunə”, Ayətullahul –uzma Məkarim Şirazi, Dinin fəxri nəşriyyatı, mütərcim: Rza Şükürov, Bakı şəh. 2002 -ci il.

# Qadınların ictimai mövqeyi quranda

**Aynur Əzimova**[1]

## Absrtakt

Müasir dövrdə aparılan geniş mədəni-maariflənmə işlərinə baxmayaraq, hələ də qadın, eləcə də kişinin hüquq və məsuliyyətləri düzgün və aydın şəkildə açıqlanmamışdır. Bunun başlıca səbəbi kimi bəşəriyyətin düçar olduğu və bu vaxta qədər öz həllini tapmamış bir sıra problemlər, o cümlədən, qadın-kişi münasibətlərinin hüdudlarının müəyyənləşdirilməməsi, psixoloji problemlər, təcavüzkarlıqlar və s. hesab oluna bilər. Uzun illər boyu Avropa və Amerika ictimaiyyətində qadınların təbii hüquqları tapdalanmış, bunun ardınca isə onları "qadınlara dəyər və azadlıq vermək" adı altında heç bir çərçivəyə sığmayan cinsi münasibətlərə sövq etdirmişlər.

Əziz İslam Peyğəmbəri (s. ə. s) qızı Fatimeyi-Zəhranın (s. ə) əllərindən öpürdü. Əsla bunu duyğulardan irəli gələn bir hərəkət kimi dəyərləndirməyin. Xanım Fatimeyi-Zəhra (s .ə) kamil bir insan olduğu üçün o Həzrət (s. ə. s) ona belə ehtiram göstərir. İslamda qadının dəyəri onun mənəvi yüksəlişi və kamilliyi ilə ölçülür. Məhz bu səbəbdən, qadınların ictimai məsuliyyətləri və elmi tərəqqisi də bu istiqamətdə olmalıdır.

**Açar kəlmələr:** Quran, Qadın, Dəyər, Cəmiyyət

---

1 - İslam Araşdırmaları fakültəsinin məzunu, İslam Araşdırmaları institutu, Əl-Mustafa Beynəlxalq Virtual Universiteti, Qum, İran.

## Qurani Kərimdə qadın hüquq subyekti kimi

Qurani Kərimdə qadınların sosial vəziyyəti iki aspektdə dəyərləndirilmişdir:

1. İslamdan öncəki dövrdə qadın; 2. İslamda qadın. Burada qadınların hüquq və vəzifələri, eyni zamanda kişinin qadın qarşısında daşıdığı vəzifələrə yer verilmişdir. Bir növ mövcud olan bu hüquq və vəzifələr sinallaqmatik xarakter daşıyır. İslam hüququnun tətbiqində yaranan problemləri daha dəqiq həll etmək üçün bu hüquq münasibətlərinin subyekti olan qadınların sahib olduğu hüquqların nəzərdən keçirilməsi zəruridir.

1. Yaşamaq hüququ – İslamın bərqərar olması doğulan qız uşaqlarını öldürmək adətini zamanla sıradan çıxardı. Kiçik qızların yaşamaq hüququ onların təbii hüquqlarından biri olub, Quranda öz əksini müxtəlif formalarda tapmışdır: “ O, istədiyini yaradır, istədiyinə ancaq qız, istədiyinə də ancaq oğlan verir.”[1]

2. Cəmiyyətdə iştirak etmək hüququ – İslamdan öncə bəzi qadınların cəmiyyətdə mövqeləri var idi, lakin bu sadəcə varlı və əsilzadə nəslinə mənsub olanlara aid idi. Bu cür qadınlardan biri Məhəmməd Peyğəmbərin (s. ə. s.) birinci həyat yoldaşı Xədicə xanım idi ki, o, Məkkədə qadınlardan və bəzi kişilərdən üstün mövqeyə malik idi.

İslam yarandıqdan sonra isə təbəqəsindən asılı olmayaraq, bütün qadınlara bu hüquq tanındı. Məhəmməd Peyğəmbərə (s. ə. s.) beyət edən qadınlar özlərinə ictimai sferada yer tapdılar. Bəziləri bu sahədə xeyli aktiv olmuş, bəziləri isə kişilərdən geri qalmayan tərzdə islahatçı tədbirlər həyata keçirmişdir.

3. Ayrı-seçkiliyə məruz qalmamaq hüququ – Bir qayda olaraq həm qadınlar arasında bərabərliyi, həm də qadın və kişi arasındakı bərabərliyi özündə əks etdirir. Kimliyindən,

---

1. Şura surəsi, ayə 49

statusundan və mövqeyindən asılı olmayaraq bütün qadınlara eyni dərəcədə hüquqların tanınması belə sübut olunmuşdur:
"... Allah yanında ən hörmətli olanınız Allahdan ən çox qorxanınızdır (pis əməllərdən ən çox çəkinəninizdir)..."[1]
İslam üçün qadın və yaxud kişi olmaq yox, önəmli olan yaxşı və təmiz bir insan ola bilməkdir. Əgər ki, İslam hüququ kişilərin mənafeyinə xitab edən bir sistem olsaydı, Qurani Kərimdə "Kişilər" adlanan bir surəyə rast gələrdik. Lakin sonuncu səmavi din kişilərdən çox qadınların qorunmasına, onların qiymətli tutulmasına önəm göstərdiyi üçün Nisə, yəni "Qadınlar" adlanan surədə qadınların mövqeyini tənzimləyir.

4. Seçmək və seçilmək hüququ – Quranda belə qeyd olunur:
"Ey Peyğəmbər! Mömin qadınlar Allaha heç bir şərik qoşmayacaqlarına, oğurluq və zina etməyəcəklərinə, uşaqlarını öldürməyəcəklərinə, əlləri ilə ayaqları arasından olanı yalanla ört-basdır etməyəcəklərinə (ərlərindən olmayan uşaqlarını onlara isnad etməyəcəklərinə) və heç bir yaxşı işdə sənə qarşı çıxmayacaqlarına dair sənə beyət etmək üçün yanına gəldikləri zaman onların beyətini qəbul et və Allahdan onlar üçün bağışlanma dilə. Həqiqətən, Allah Bağışlayandır, Rəhmlidir."[2]
Beyət etmək qadınların azad bir şəkildə öz rəhbərlərini seçməsi anlamına gəlir və bu hüquq İslamın bərqərar olduğu ilk dövrlərdə meydana gəlmişdir.
Quranda qeyd olunur ki, kişi və qadınlara hər bir işdə məsuliyyət eyni dərəcədə verilir. Nisa surəsi 58-ci ayədə göstərilir: "Həqiqətən, Allah sizə əmanətləri sahiblərinə qaytarmanızı və insanlar arasında hökm verərkən ədalətlə

---

1. Hucurat surəsi, ayə 13
2. Mumtəhənə surəsi, ayə 12

hökm vermənizi əmr edir. Allahın sizə verdiyi bu öyüd-nəsihət necə də gözəldir! Şübhəsiz ki, Allah Eşidəndir, Görəndir."

5. Təhsil hüququ – Qurani Kərimdə Ələq surəsinin birinci ayəsinin "Oxu!" deyə başlamasının mənası ondadır ki, Allah hər bir cins üçün elmi və öyrənməyi vacib bilmişdir. Qadınlar İslamın gəlişi ilə oxu və yazı qaydalarını öyrənmiş və öyrətməyə başlamışlar.

6. İqtisadi müstəqillik hüququ – Qadın öz ixtiyarında olan irsdən, özünə aid olan maldan istədiyi kimi istifadə edə bilər.[1]

7. Xərclərini tələb etmək hüququ – Qadının bu hüququ kişilərin vəzifəsi olaraq formalaşmışdır. Yəni kişi öz qadınının bütün xərclərini (yemək, içmək, geyim və s.) ödəməlidir. Kişi imkanı olduğu halda qadının xərclərini təmin etmirsə, qadının istədiyi vasitələrlə ərindən ehtiyaclarını ödəməyi tələb etmək hüququ var. Buna nail olmadıqda, məhkəməyə müraciət edə bilər.[2] Bu, məhkəmə müdafiəsi hüququnu ortaya çıxarır.

8. Nikahda sərbəstlik hüququ – İslamda qadının izdivacı öz əlindədir, bu məsələdə hər hansı bir məcburiyyət yolverilməzdir.[3] Əgər nikah əqdində qarşılıqlı razılıq olmazsa, İslam baxımından bu müqavilə etibarlı hesab olunmur.

9. Miras hüququ – Bu hüquq Nisa surəsində öz əksini dəqiq qaydada tapmışdır. Surədə qeyd olunur ki, bir oğlan övladının payı iki qız övladının payına bərabərdir[4]. Bu, ailənin strukturu ilə bağlıdır və İslamda maddi məsələlər üzrə məsuliyyət kişiyə verilmiş bir öhdəlikdir. Ona görə də, bu qayda qadınlara qarşı ayrı-seçkilik nəzərdə tutmur.

---

1. Əbdürrəhman Yusifpur, "İslam dinində qadın məsələsi", səh. 12
2. Əbdürrəhman Yusifpur, "İslam dinində qadın məsələsi", səh. 13
3. Əbdürrəhman Yusifpur, "İslam dinində qadın məsələsi", səh. 16
4. Nisə surəsi, ayə 11-12.

10. Eyni haqq və cəzanın verilməsi[1] - Təqsirli olan hər bir şəxsə müdafiə, səmimi peşmançılıq qaydasında təqsirini etiraf etmək hüququ və törətdiyi əmələ görə məsuliyyət prinsipi nəzərə alınmaqla cəza tədbirləri tətbiq olunur:

"Allaha və Peyğəmbərinə qarşı vuruşanların, yer üzündə fitnə-fəsad salmağa çalışanların cəzası ancaq öldürülmək, çarmıxa çəkilmək, ya da əl-ayaqlarının çarpazvari (sağ əllərilə sol ayaqlarını) kəsilməsi, yaxud da yaşadıqları yerdən sürgün olunmalıdırlar. Bu (cəza) onlar üçün dünyada bir rüsvayçılıqdır. Axirətdə isə onları böyük bir əzab gözləyir. Sizin əlinizə keçməmişdən əvvəl tövbə edənlər müstəsnadır. Bilin ki, Allah bağışlayandır, rəhm edəndir!" [2].

**İslam dini baxımından qadının dəyəri**

Vaxtilə Roma imperiyasına hakim ideologiya bu gün Qərb mədəniyyətinin əsasını təşkil edir. Qadını hədsiz dərəcədə alçaltdığına görə biz bu ideologiyanı ittiham edirik. Baxın, Qərb dünyasının qadına verdiyi dəyər, əslində, bəşərin ən aşağı təbii istəyi olan cinsi meyillərin təmini istiqamətindədir.

Bu gün dünyada həllolunmaz bir problemə çevrilən ailə məsələsi qadınların məsuliyyət və vəzifələrinin onlara lazımi şəkildə tanıtdırılmaması, qadın-kişi münasibətlərinin hüdudlarının müəyyən edilməməsi, eləcə də bu iki cinsin səciyyəvi xüsusiyyətlərinin düzgün şəkildə tanınmamasından irəli gəlir. Bu problemin həllində isə bizə ən doğru yolu göstərən ilahi vəhy və göstərişlərdir. Quran öyüd-nəsihətlə yanaşı, qadınların mənəvi yüksəlişini təmin etmək məqsədilə onlara nümunəvi və ideal qadın simaları da təqdim edir.

---

1. Filologiya elmləri doktoru Lalə Mönsümova, "İslamda Qadının Statusu". 2 (10) "Dövlət və Din" İctimai fikir toplusu, 110, 115, (2009).
2. Əl-Maidə surəsi, ayə 33-34.

Bizim cəmiyyətdə İslami dəyərlər dirçəlməlidir. Məsələn, qadınların hicabı İslami dəyərlərdən biridir. Bizim hicab məsələsi üzərində bu qədər ciddi surətdə dayanmamızın səbəbi odur ki, qadınlar yalnız və yalnız hicablarına riayət etməklə kamilliyin ən uca mərtəbələrinə yetişə və azğınlıq təhlükələrindən amanda qala bilərlər.

Qadınlar bilsinlər ki, hicaba riayət etmək yüksək mənəvi və elmi məqamlara çatmaqda onlara yardım edir. Qadının hicab məsələsi əsla qərbin mədəni təzyiqlərinə məruz qalmamalı və müsəlman qadınlar yad mədəniyyətlərin təsiri altına düşməməlidirlər. Əlbəttə, təkcə çadra hicablı geyim sayılmır. Lakin çadra bizim üçün ən kamil və milli hicablı geyim tərzidir. Hicab müsəlman qadınların siyasi, ictimai və mədəni sahələrdə fəaliyyəti ilə ziddiyyət təşkil etmir.

Qadınlar elmin müxtəlif sahələrində öz istedadlarını çiçəkləndirməlidirlər. Onlar savadlanmalı və yüksək elmi dərəcələrə nail olmaq üçün səy göstərməlidirlər. Qadınların əxlaqsızlığa sürüklənməsi isə onların savadlanmasına əngəl olan ən başlıca amildir.

Ailə bütöv bir cəmiyyəti təşkil edən kiçik cəmiyyətlərdir. Qadın bu kiçik cəmiyyətin əsas sütununu təşkil edir və onun aparıcı qüvvələrindən sayılır. Ailə mühiti istedadların çiçəklənməsi üçün əlverişli bir mühitdir və belə bir mühitdə qadın ixtisasından asılı olmayaraq, öz evdarlıq vəzifələrinin öhdəsindən layiqincə gəlməlidir. [1]

---

1. Ali Rəhbər Ayətullah Xameneyinin "Qadınların ictimai-mədəni birliyi" təşkilatının üzvləri və "islami hicab" qurultayının iştirakçıları ilə görüşündə söylədiyi nitqdən bir parça – 4/10/1370 hicri-şəmsi ili.

## Qadınlar Allahın əmanətidir

Qadınlar Uca Allahın bizə əmanətidir. Buna görə bu əmanəti qorumaq və himayə etmək vəzifəsi də kişinin borcudur. Əziz Peyğəmbərimiz (s. ə. s) Vida Xütbəsində "Qadınlar sizə Allahın bir əmanətidir" buyuraraq bizə yüklənən məsuliyyəti bir daha xatırlatmışdır.

İslamiyyət ana olduğuna görə qadına ən yüksək və çox möhtərəm bir məqam qazandırmışdır. Tarixin fərqli dövrlərində zillət və həqarət içində yaşayan qadın layiq olduğu ən yüksək şərəfi İslam dini gəldikdən sonra qazanmışdır. İslamiyyət gəlmədən əvvəl qadınların vəziyyətinə nəzər salarıqsa, görərik ki, istər Ərəbistanda, istərsə də digər başqa ölkələrdə qadınların vəziyyəti çox ağır idi. Qadına insan gözü ilə baxılmır, öz hüquqlarından məhrum, heç bir haqqa sahib olmayan dəyərsiz bir əşya kimi tanınır, kişinin şəhvətinə məhkum bir əsir, adi bir xidmətçi kimi qiymətləndirilir və bütün günahların başı hesab olunurdu. İslamiyyətdən əvvəl qadın o qədər dəyərsiz sayılırdı ki, hətta ölən ərinin mülkü arasında bir miras əyşası kimi bölünürdü. Qadınla öncə atasının, evləndikdən sonra ərinin, əri öldükdən sonra da oğlunun əsiri kimi rəftar edilirdi. Qız uşaqları vəhşicəsinə diri-diri torpağa basdırılır, qız övladı olanlar bunu özünə bir rəzillik sayırdı. İranda və Zərdüştlükdə qadın o qədər alçaldılmışdı ki, hətta ana və bacı ilə evlənmək kimi iyrənc əxlaqsızlığa icazə verilmişdi. Bir çox başqa ölkələrdə və millətlərdə də qadın eyni haqsızlıqlara məruz qalmışdı. Bir sözlə qadın kişinin malı hesab olunur və onun üzərində istədiyi ixtiyara sahib idi.

Bu gün isə qadın haqları dırnaqarası qorunduğu halda, yenə də qadınlar istismar edilməkdə, maşın, sabun, şampun, dərman və s. kimi əşyaların tanıdılmasında açıq-saçıqlıqla reklam

vasitəsi kimi istifadə olunmaqdadırlar. "İslam qadını əzir" deyərək dinimizə iftira atan Avropa və avropasayağı düşünən insanlar cavab versin! Bəs bunun harası qadın haqqıdır?! Bəs bu necə qadın haqqını qormaqdır?!

Qadına ən layiq olduğu yeri və dəyəri yalnız İslam dini vermişdir. İslam dini qadının cəmiyyətdəki yerini çox gözəl və layiqli bir şəkildə təyin edib, çirkinliklərdən qurtararaq aşağılardan yüksəklərə qaldırmışdır. Həzrət Peyğəmbər "Cənnət anaların ayaqları altındadır" buyuraraq qadına verilən ən böyük qiyməti və mərtəbəni dilə gətirmişdir. Qadın insanı dünyaya gətirən və yetişdirən möhtərəm bir varlıqdır. İslamda qadın ərinin həyat yoldaşı, onun hüzur qaynağı və dayağıdır. İslam nəzərində qadın şəfqət, mərhəmət, hörmət duyulmalı olan və nəzakət tələb edən nəcib və təmiz bir varlıqdır. Peyğəmbərimiz (s. ə. s) qadınların incə, zərif və kübar varlıqlar olduqlarına işarə edərək onların heç vaxt incidilməməsini və qırılmamasını şiddətlə tövsiyə etmişdir: "Sizin ən xeyirliniz qadınlarına qarşı ən yaxşı və nəzakətli davrananınızdır". Qadına qarşı kobud davranmaq, əziyyət etmək, haqqını tapdamaq müsəlmana yaraşmaz.

Qadın vəfanın, fədakarlığın, comərdliyin, qarşılıqsız əsirgəmək[1] və sevməyin simvoludur. Bugünün qadını sabah bir anadır. Ona görə uca dinimiz qadına və ana sevgisinə xüsusi bir yer verərək, cənnəti anaların ayaqları altına sərmiş, vaxtında qılınan namazdan sonra ən gözəl işin anaya yaxşılıq etmək olduğunu, Allahın rizasını qazanmağın, cənnətə qovuşmağın ən rahat yolunun anaya xidmətdən və ananı lazımınca sevməkdən ibarət olduğunu bildirmişdir. İslamiyyət qadını qorumaq məqsədilə əgər evlidirsə əri, evli deyilsə atasının ona baxmaq və ehtiyaclarını təmin etmək məsuliyyətini yükləmişdir.

1. Burada: Rəhmi gəlib qorumaq, saxlamaq, hifz etmək, himayə etmək.

İslam inancında qadınlar ilin sadəcə bir günündə sevilib, digər zamanlarda ehmal ediləcək varlıqlar deyil. Qadın ilin hər günü, ömür boyu qorunmağa, sevgiyə, hörmətə, himayə edilməyə, hədiyyə alınmağa və xidmət göstərilməyə layiq ən incə və zərif varlıqdır. Qadınlar və analar baş tacıdır. Dinimiz qız uşaqlarının gələcəyin anaları olmaları yönündən onlara qarşı davranışlarımız və onların tərbiyələri üzərində ciddi bir həssaslıqla durmuşdur. Qız uşaqlarını böyüdüb gözəl şəkildə tərbiyə edənə cənnət, həm də cənnətdə ən gözəl məqam; Peyğəmbərimizə qonşu olma məqamı vəd edilmişdir. Dinimizin qadına verdiyi yüksək qiyməti yenə Peyğəmbərimizin bu hədisi-şərifi ilə daha aydın görürük. Buyurulur ki: "Möminlərin iman yönündən ən kamilləri əxlaqca ən gözəl olanlarıdır. Sizin ən xeyirliniz qadınlarına qarşı ən yaxşı və nəzakətli davrananlarınızdır." "Qadınlar xüsusunda Allahdan çəkinin. Çünki onlar sizə Allahın bir əmanəti olaraq verilmişdir." "Qadınlar haqqında bir-birinizə xeyir tövsiyə edin."

Uca Rəbbimiz Qurani-Kərimdə buyurur: "...Onlar sizin üçün bir libas, siz də onlar üçün bir libassınız..."[1]

"... (Kişilərin) qadınlar üzərində (şəriətə) müvafiq haqları olduğu kimi onların da (kişilər üzərində) haqları vardır. ..."[2]

Həqiqi səadətə şübhəsiz ki, ancaq və ancaq Allah və Rəsulunun əmr və tövsiyələrinə tabe olmaqla qovuşmaq mümkündür. Analarını, həyat yoldaşlarını layiqi ilə sevənlər, onları hər gün və hər zaman xatırlayıb, anaların xeyir-dualarını

1. Əl-Bəqərə surəsi, ayə: 187
2. Əl-Bəqərə surəsi, ayə: 228

alıb, dünya və axirət xoşbəxtliyinə nail olanlar nə xoşbəxtdirlər?! [1]

Ailə məsələlərində kişinin hakim olması haqda Quranda belə buyurulmuşdur: "... kişilər qadınlar üzərində himayəçidirlər."[2] Amma ayənin həqiqi mənası bu deyil ki, kişilər qadınların üzərində hakimdirlər və hər nə istəsələr edə bilərlər. Əksinə təfsirçilərin və lüğətşünasların nəzərlərinə əsasən "qivam" kəlməsinin mənası başçı, ailənin işinə yardımçı və bu kimi sinonimlərdir. Amma əgər ailəyə kiçik bir dövlət kimi baxsaq və onu kiçik bir ictimaiyyət kimi qiymətləndirsək, təbii ki, bu kiçik dövlətə böyük bir dövlət kimi başçı və arxalana biləcəyi kimsə lazımdır. Bu başçılıq hər tərəfdən bu ağır məsuliyyətə qabiliyyəti və gücü çatan bir nəfərə həvalə edilməlidir. Təbii ki, bu işin öhdəsindən hər cəhətdə qadından qüdrətli olan kişi gələ bilər, çünki:

1- Kişi çətinliklər müqabilində dözümlü və səbirli, qadın isə atifəli (emosianal xüsusiyyətə malik), hissiyyata qapılan incə və kövrək bir məxluqdur.

2- Həmçinin fiziki cəhətdən də qadın kişidən olduqca zəif və incədir.

3- Bundan əlavə ailənin gəliri və mənfəəti, habelə gündəlik tələbatı kişinin öhdəsində olduğu üçün başçılıq da onun əsas məsuliyyətlərindən biridir.

Qurani- Kərimin nəzərində kişinin ailədə olan hakimliyi və başçılığı yalnız Allahın razılığı, icazəsi və ədaləti çərçivəsində olmalıdır. Amma  məqam baxımından yalnız iman və təqva sahibləri Allah-Taalanın hüzurunda fəzilətlidirlər. Yəni insanların üstünlüyü onların hansı cinsdən olmasında deyil, əksinə onların nə qədər təqvalı olmasındadır. Qurani-Kərimin

1. İrfan Jurnalı, n. 2. səh. 34
2. Ən-Nisa surəsi, ayə: 34

nəzərində kişinin ailədə olan başçılığı və hakimiyyəti ona heç bir üstünlük vermir. Yəni kişinin bu işi heç də onun uca məqam sahibi olmasını çatdırmır. Yuxarıda qeyd etdiyimiz ayədən də kimsə üstünlük və hakimlik başa düşürsə, məlumdur ki, ayədə olan "qivam" kəlməsini düzgün təfsir edə və mənalandıra bilməmişdir. Mövzunun əsli mətləblərini araşdırmazdan öncə, (qəvvamiyyət sözünün mənasına) qadının İslam dinində hansı məqam və şəxsiyyətə malik olmasını araşdırmağı vacib bildik.

1) Qadın evin əsas təməli kimi:

Məlumdur ki, qadın ailənin əsasını təşkil edən iki nəfərdən biri olmaqla yanaşı dünya ictimaiyyətinin də (demək olar ki,) yarıdan çoxunu təşkil edən bir varlıqdır. Əgər tarixin səhifələrinə baxsaq qadına qarşı bir çox amansız məhkəmələrin şahidi olarıq. Yəni tarix boyunca qadın ictimai səhnələrdən təcrid edilmiş və bir sıra məhrumiyyətlərə məruz qalmışdır. Düzdür ki, bəzi vaxtlar müxtəlif ölkələrdə və ya tayfalarda qadına azadlıq verilmişdir. Amma onların zəif məxluq olduqları üçün daim zülmə məruz qalmaları inkar olunmazdır. Məsələn: Qadınların cahil ərəb tayfalarında qul kimi işlədilməsi, qız uşaqlarının diri- diri basdırılması, öldürülməsi, bazarlarda satılması və sair kimi misallar göstərmək olar.[1] Bütün bu saydıqlarımız qadının tarix səhifələrində olan acı xatirələridir. Həmçinin qadınlara qarşı olan radikal fikirli kişiləri və ailədə qolunun gücündən istifadə edən ailə başçılarını bu gün də ictimai səhnələrdə müşahidə edirik.

Sadəcə bu bir neçə misalı burada qeyd etməklə İslam dininin qadına qarşı olan hüsnü- rəğbətini açıqlamaq istəyirik.

---

1. Quranda Pəjuheşlər, səh. 25-26, yay. Bahar, 1380

2) Ərəb yarımadasında İslam günəşinin doğması İslam dünyasında qadının qədir- qiymətini bəyan etdi.
Böyük İslam dininin, Peyğəmbər sünnətinin və Əhli- beytin təlimlərində qadın öz məqamını, həmçinin ictimai şəxsiyyətini tapdı. Mərhum Ayətullah Xomeyni bu barədə deyir: "İslam dini kişinin və qadının inkişafı üçün çalışır. İslam dini gəldikdən sonra qadına nə qədər xidmət etdiyini Allah bilir. İslam dini təlimlərində qadına verilən hüquq və xidmət kişiyə olunmayıb."[1] İslam dini qadınları kişilərin müqabilində bərabər qərar verməklə onların hüququnu ucaltdı. Amma bir sıra əhkam məsələləri vardır ki, onların bəzisi kişilərə və bəzisi də qadınlara aiddir. Bu o demək deyil ki, İslam dini qadınla kişinin arasında fərq qoyur.[2]
3) Birlikdə yaradılış:
Qurani-Kərimin bəyanına əsasən, qadın və kişi insan olaraq iki dəstəyə ayrılsalar da, onların insanlıqda və fəzilətdə heç bir fərqləri yoxdur. Qurani- Kərim bu barədə buyurur:
"Allah sizi tək bir nəfərdən yaratdı. Sonra onun özündə həmtayını yaratdı..."[3]
4) Eyni zamanda qadınla kişinin ağıl və dərrakə baxımından da heç bir fərqləri yoxdur:
" Sizi tək bir candan xəlq edən, ünsiyyət bağlayıb rahatlıq tapsın deyə ondan onun zövcəsini yaradan Odur..."[4]
"De! O elə bir kəsdir ki, sizi yaradıb və sizə göz, qulaq və qəlb verib."[5]

---

1. Nur səhifəsi, c. 3, səh. 82
2. Nur səhifəsi, c. 3, səh. 82
3. Zümər surəsi, ayə 6
4. Əraf surəsi, ayə189
5. Əl-Mülk surəsi, ayə 23

Təfsirçilər və alimlər yuxarıdakı ayəni belə təfsir edirlər ki, "ayənin əsil mənası bunu çatdırır ki, insan başqa yaranmışlardan ağıl və təfəkkür baxımından üstündür."[1]

5) Ailə həyatında qadınla kişinin eyni hüquqa malik olmaları:

Qurani-Kərimin bəyanına əsasən qadına ailə həyatında verilmiş hüquq kişinin xeyri üçündür. Baxmayaraq ki, bəzi məsələlərdə az da olsa fərq nəzərə çarpır. Misal üçün: Nəfəqə[2] (qadının və uşaqların gündəlik təminatı) kişinin öhdəsindədir və ya qadının yaşaması üçün yeri kişi hazırlamalıdır və sair. Qurani-Kərim bu barədə buyurur: "Şəriət qanunlarına əsasən kişilərin qadınlar üzərində hüquqları olduğu kimi, qadınların da kişilərin üzərində hüquqları vardır."[3]

Təfsirçilərimiz bu ayəyə istinad edərək qadınla kişinin hüququnun bir olduğunu bəyan edirlər:

6) "Qivam" sözünün lüğətdəki mənası başçı, gözətçi və mühafizəkar"dır.

Bu söz bəzən islah və qorumaq mənalarında da işlədilə bilir. Qurani-Kərim buyurur: "Kişilər qadınların başçısıdır (mühafizəkarıdır)."[4]

Bir çox Quran təfsirçiləri "qivam" sözünü başçı və qoruyucu kimi mənalandırmışlar. Misal üçün "qivam" bir isimdir ki, öz

---

1. İbn Xaldun, Əbdürrəhman, "İbn Xaldun müqəddiməsi", c. 2, səh. 60.
2. Nəfəqə - ehtiyacı olanlara göstərilən təmənnasız yardım deməkdir. Sədəqə də infaqa aiddir. Şəriətdə ailə başçısının öz ailə üzvləri üçün xərclədiyi pula, eləcə də, yardıma ehtiyacı olan şəxslər üçün bunu verməyə borclu olan adamlardan alınan məbləğə (alimentə) də nəfəqə deyirlər. Öz həyat yoldaşının nəfəqəsini təmin etmək kişinin borcudur. Yetikinlik yaşına çatmamış övladların da nəfəqəsini ata verməlidir. Həzrət Mühəmməd Peyğəmbər (s. ə. s) insanın öz yaxınlarına (ailə üzvlərinə, valideynə, yaxın qohumlara, qonşulara) etdıyi nəfəqənin ən üstün nəfəqə olduğunu bildirmişdir.
3. Bəqərə surəsi, ayə 228
4. Fəxri Razi, "Kəbir təfsiri", c. 10, səh. 88

işində ciddiyyətli olan şəxsə deyərlər, belə ki, kimsə desə ki, bu kişi o qadının "qəyyumudur" , yəni onun gündəlik tələbatını ödəyən və mühafizəkarıdır.[1]

7) "Qivam" sözünün bu : «الرجال قوامون على النساء» və digər ayələrdə olan mənalarına diqqət yetirsək, belə nəticə ala bilərik ki, ayənin əsas hədəfi kişinin ailəyə başçılıq etməsi və ailədə olan nizam- intizamın ciddiyyətini qorumalı olmasını çatdırmaqdır, nəinki, kişinin ailəyə zülm etməsini və ya padşahlıq etməsini dəstəkləmək. Əksinə kişiyə ailəyə rəhbərlik etmək və vahid tərbiyəli nizamı yaratmaq vəzifəsini verməklə onun məsuliyyətini artırır.[2] Çünki hər bir ailəni kiçik bir cəmiyyət və icma şəklində qəbul etsək, təbiidir ki, böyük cəmiyyətlər kimi burada da rəhbərin və ya təşkilatçının olması vacibdir. Bundan əlavə kişinin cismi və ruhi qabiliyyəti nəzərə alınaraq ailənin gündəlik tələbatı İslam qanunlarına əsasən onun üzərinə qoyulub. Kişinin fiziki gücü və iradəsi, ona pul qazanmaq və ailənin tələbatını ödəmək kimi məsuliyyətli işlərə kömək etmək üçün ailənin başçılığı və məsuliyyəti də onun üzərinə qoyulmuşdur.

Əlbəttə bunu da qeyd edək ki, mümkündür qeyd etdiyimiz qüdrət və qabiliyyət hər hansı bir qadında da olsun. Lakin nəzərə almaq lazımdır ki, hər hansı bir qanun yazıldıqda orada azlıqlar deyil, ümumi toplum nəzərdə tutulur. Bu səbəbdən də kişilər bu məsələlərdə qadınlardan daha üstün olduqları üçün bu vəzifələr kişinin öhdəsinə qoyulmuşdur.

Əziz Peyğəmbərimizdən (s. ə. s) kişinin qadından üstün olmasının səbəbini soruşduqda, o Həzrət (s. ə. s) belə cavab verdi: "Kişinin qadından üstün olan fəziləti, suyun yerdən üstün olan fəziləti kimidir. Çünki suyun vasitəsi ilə torpaq dirilir ( beləliklə, torpağın üzərindəkilər də dirilir). Kişilər

---

1. “Nümunə təfsiri”, c. 3, səh. 411- 116
2. Feyz Kaşani, “Safi təfsiri”, c. 1, səh. 448

qadınların həyatını dirildir, onlara şadlıq bəxş edir və onların artmasında əsas rol ifa edir. Sonra isə Peyğəmbər " الرجال قوامون على النساء" ayəsini zikr edir.[1]

İmam Sadiq (ə) bu barədə buyurur: "Kişinin ailədə olan başçılığı, onun üçün böyük səadətdir."[2] Bu iki rəvayətdən belə nəticə alırıq ki, kişinin ailədə olan rəhbərliyi, onun və ailənin səadətinə xidmətdən başqa bir şey deyildir.

8) Ailədə rəhbərlik məsələsində kişilər qadınlardan iki nəzərə görə fərqlənir:

A - Əgər kişini cinsi və fiziki baxımdan təhlil etsək bu məsələ özü-özlüyündə aydınlaşacaq. Bundan əlavə hər bir icmanın və ya ailənin gözəl və səadət içində yaşaması üçün ümdə lazım olan budur ki, hər kəs öz qabiliyyətinin əhatəsində hərəkət etsin. Yəni ailədə hər kəs öz atifi və fiziki gücünə uyğun özünə vəzifə seçsin və onu səmimi yerinə yetirsin. Belə olan halda ailənin rəhbərliyi yenə də kişinin öhdəsinə düşəcəkdir[3].

Allah-Taala bütün insanları müxtəlif qüdrətə və istedada malik olaraq yaratmışdır. Əgər bütün insanlar eyni gücə və istedada malik olsa idilər , bütün yaradılış sistemi aradan gedərdi. Bundan əlavə dünyada olan bütün işlər bir- birindən fərqli olaraq özünü büruzə verir. Bu səbəbdən də, fərqli işlər üçün fərqli istedada malik olan insanlar lazımdır. Nəticə budur ki, dünyada hər bir şeyin seçilməsi və fərqli olması istedadların inkişafına xidmət edir.

Kişi və qadın arasında olan fərq də bu qanun əsasındadır. Bunu da qeyd edək ki, bu fərqlilik, bunların heç biri üçün fəzilət və üstünlük deyil, çünki kişi və qadın iki müxtəlif sinif

---

1. Şeyx Hürr Amili, "Vəsailuş-Şiə", c. 15, səh. 251
2. Nasir Məkarim Şirazi, "Nümunə təfsiri", c. 3, səh. 370- 371
3. Cavadi Amuli, "Zən dər ayineye cəlal və camal", səh. 364- 369

olaraq müqayisə olunursa burada heç bir fəzilətdən danışmağa dəyməz. Başqa sözlə desək, üstünlük fərq və fərq üstünlük sayılmaz. Deməli, Nisa surəsinin 34-cü ayəsinə əsasən kişiyə verilən vəzifə onun üçün heç bir fəzilət meyarı və ölçüsü ola bilməz[1].

B - Bu mövzuda ikinci bir fikir də budur ki, kişi və qadın sinifləri arasında olan fərq, ərlə- arvad qanunlarına əsaslanmır. Əksinə ümumi bir qayda olaraq kişi və qadın mövzusunda öz əksini tapır. Dünya insanları arasında olan bu qanun, dünyada mövcud olan hakimiyyət və məhkəmə prinsiplərinə bənzəyir. Çünki bütün dünya insanları bu prinsip əsasında öz həyatlarını tənzimləyirlər. Əlbəttə bu qanunlarda da kişilər yaradılış qanunlarına əsasən qadınlardan üstündürlər. Bunu da qeyd edək ki, kişinin bu vəzifədə olması qadının ictimai və fərdi azadlıqdan məhrum olması demək deyil, yəni bu məsələlərin heç bir fərdi və ictimai azadlığa dəxli yoxdur.

1. Əllamə Təba-Təbai, “Əl mizan təfsiri”, c. 4, ayə 34

**Nəticə**

Mətndə danışılan "qəvvamiyyət" sözündən belə nəticə alırıq ki, deməli, kişinin ailədə olan bu məsuliyyəti heç də, onun (şəxsiyyət baxımından) qadından üstün olması demək deyil. Əksinə kişinin ailədə olan bu vəzifəsi onun ruhi və fiziki baxımdan daha da layiq olduğu üzündəndir. Həmçinin kişinin ailə üzərində olan məsuliyyəti ona ailə qanunları çərçivəsi xaricində hər hansı bir işi görməyə imkan vermir, çünki o ailənin zalım padşahı deyil. Sadəcə ailənin gündəlik tələbatları və qadın-kişi münasibətlərinə düzgün riayət etmək onun öhdəsindədir, beləliklə, kişiyə bu vəzifənin tapşırılması o demək deyil ki, kişilər qadınlardan "üstündür" və ya "axirətdə üstün olacaqlar". Buna əsas səbəbdə budur ki, islam dini qanunları insanın təkamülə çatması üçün kişi və qadının arasında heç bir fərq qoymamışdır. Başqa sözlə desək təkamülə çatmaqda heç bir cinsiyyətin rolu yoxdur. İnsanlar yalnız əməli saleh olmaqla, Allaha yaxınlaşmaqla, təqvalı olub pis işlərdən çəkinməklə və aqil olaraq iman gətirməklə əldə edə bilərlər. Allah-Taala yanında heç bir cinsiyyətin üstünlüyü yoxdur, tənha üstün bəndələr təqva sahibləridir.

## İstifadə olunan ədəbiyyat

1. Quran-Kərim
2. Əl-Mizan fi təfsiril-Quran, Seyyid Məhəmmədhüseyn Təba-təbai, Qum, İsmailiyyan nəşriyyati, 1394 hicri-qəməri, üçüncü çap.
3. Ayətullahul –uzma Məkarim Şirazi , "Təfsiri – Nümunə", Ayətullahul –uzma Məkarim Şirazi, Dinin fəxri nəşriyyatı, mütərcim: Rza Şükürov, Bakı şəh. 2002 -ci il.
4. Təfsiri-Kəbir, Fəxrəddin Razi, Tehran, Əsatir nəşriyyatı, 1379 hicri-şəmsi.
5. Təfdiri Safi, Məhəmməd Möhsin ibn şah Mürtəza Feyz Kaşani, (1091 h. q.), Qum, Cəmaətül-müdərrisin, 1383 hicri-qəməri, birinci çap.
6. Biharül-ənvar, Məhəmmədbaqir ibn Məhəmmədtəqi Məclisi (Əllamə Məclisi), Beyrut, Vəfa müəssisəsi, 1403 hicri-qəməri, ikinci çap.
7. Vəsailüş-şiə, Məhəmməd ibn Həsən Hürr Amuli, tədqiq: Alül-beyt müəssisəsi, Qum, Alül-beyt müəssisəsi, 1409 hicri-qəməri, birinci çap.
8. Əl-Kafi, Məhəmməd ibnYəqub Kuleyni Razi, tədqiq: Əli Əkbər Qəffari, Beyrut, Darüs-səb və Darüt-təarüf, 1401 hicri-qəməri, dördüncü çap.
9. Təhzibül-əhkam fi şəhril- müqnəə, Məhəmməd ibn Həsən Tusi (Şeyx Tusi), Beyrut, Darüt-təaruf, 1401 hicri-qəməri, birinci çap
10. Əbdürrəhman Yusifpur, "İslam dinində qadın məsələsi" (1995-ci il)
11. Müstədrəkül-vəsail və müstənbətül-məsail, Mirza Hüseyn Nəvəri Təbərsi, Alil-beyt (əleyhis-səlam) müəssisəsi, 1407 hicri-qəməri, birinci çap

# Ailənin səmərəliliyində əxlaqi fəzilətlərin rolu

**Fariz Babayev**[1]

## Abstrakt

Əxlaqa və əxlaq qaydalarına uyğun hərəkətlərə riayət etmək şəxsi həyatda xüsusi bir məsələ deyil ki, yalnız axirətə faydalı olan müqəddəs, ruhi və mənəvi bir məsələ olsun, əksinə bütün əxlaqi məsələlər insanın maddi və mənəvi həyatına təsir göstərir, belə ki, o olmadan insan həyatı öz mənasını itirəcək. Hərçənd, fərdin həyatında da əxlaq olmadan incəlik, çiçəklənmə və gözəllik olmayacaq, ancaq fərdi həyatdan daha vacib ailə və ictimai həyatdır ki, əxlaqi məsələlərin onda yoxluğu və ya solğunluğu arzuolunmaz bir sonluğa aparar, ailənin səmərəliliyini pozar.[2] Ailədə mənəvi dəstək olmadan qaydalara və qanunlara uymağa çalışmaq, demək olar ki, heç bir yerdə səmərəli deyil. İnanc və əxlaq qarşısında ən yaxşı zamin, ailə mərkəzində qayda və qaydaların icrasıdır və səmərəliliyini də təmin edir.

**Açar sözlər:** Ailə, sevgi, səmərə, islam, din, faydalı, inkişaf

---

1. İslam Araşdırmaları fakültəsinin məzunu, İslam Araşdırmaları institutu, Əl-Mustafa Beynəlxalq Virtual Universiteti, Qum, İran.
2. Məkarim Şirazi, 1998.

## Müqəddimə

Ailə uşağın tərbiyəsi üçün ilkin mühitdir. Əxlaqi fəzilətlər bu mühitdə boy atır və insan əxlaqının təməl daşı ailədə qoyulur. Uşaq bir çox əxlaqi xüsusiyyət və davranışları atasından, anasından, bacısından, qardaşından və ailədə birlikdə yaşadıqlarından öyrənir. Dürüstlük, etibarlılıq, qarşılıqlı hörmət, minnətdarlıq, xeyirxahlıq, mehribanlıq, səxavət, cəsarət, iffət və bu kimi bir çox davranışlar ailə üzvləri tərəfindən bir-birinə ötürülür. Fəzilətin ilk dərslərini uşaqlarına öyrədən ailədir, böyüklər də uzun və davamlı yoldaşlıqları sayəsində bir-birlərinin əxlaqi keyfiyyətlərinin formalaşmasına təsir göstərir. Beləliklə, öz səmərəliliyini sübut etmək, üzvlərinin təkamülü və inkişafına zəmin yaratmaq üçün ilk növbədə ailə mühiti əxlaqi fəzilətlərlə bəzədilməlidir.

### 1. Ailədə sevgi

İslama görə, ideal insan cəmiyyətinin təşkilində ən böyük rol eşqdir. Məsum imamlardan (ə) sevgiyə dair nəql olunan hədislər, ideal İslam cəmiyyətinin insanların bir-birinə olan sevgisi əsasında qurulmuş bir cəmiyyət olduğunu açıq şəkildə sübut edir. Sevgi, layiqli insan yetişdirməyin ən təsirli faktoru olmaqla yanaşı fərdi, sosial, maddi və mənəvi hədəflərə çatmaq üçün ən təsirli vasitədir. Sevgi o qədər şirin və xoşdur ki, onun köməyi ilə həyatın bütün acılarını və bir çox zəifliklərini, nizamsızlıqlarını, kiçikdən böyüyə fərdi və sosial

problemlərini kompensasiya etmək olar. Bir hədisdə həzrət Süleyman buyurur: “Sevgidən şirin heç nə yoxdur”.[1]

İslam Peyğəmbərinin (s) baxışıında dostluq qurulduqdan sonra problemlərə və çatışmazlıqlara asanlıqla dözülür. O həzrət bu xüsusda kinayəli şəkildə buyurur: “Heç bir məclis iki dostun oturması üçün dar deyil”.[2] Eşq elementi, dini proqramların həyata keçirilməsi və insanların doğru yola yönəldilməsi üçün o qədər təsirli hesab edilmişdir ki, İmam Baqir (ə) İslam dinini məhəbbətdən başqa bir şey bilmir. Uca Allah Rum surəsində sevgi və məhəbbəti isə qüdrətin və böyük nemətlərin təsiri hesab etmiş, bəndələrinə minnət qoyaraq belə buyurmuşdur:

“Ünsiyyətdə rahatlıq tapasınız deyə, sizin üçün özünüzdən zövcələr yaratması, aranıza məhəbbət və mərhəmət salması da Onun dəlillərindəndir. Həqiqətən, bunda düşünənlər üçün ibrətamiz dəlillər vardır”.[3]

Bütün insanlar dostluğa və sevgiyə ehtiyac duyur və başqaları tərəfindən sevilmək istəyirlər. İnsan başqaları tərəfindən sevilmədiyini biləndə özünü tənha və çarəsiz hesab edir, bu üzdən istedadını inkişaf etdirə və kamillik yolunda addımlaya bilmir. Bu instinktiv hiss daha çox birlikdə ailə təşkil edən, “mən”dən çıxıb “biz”ə çatan kişi və qadında hiss olunur.

Kişi ilə qadın arasındakı qarşılıqlı sevgi həyatı təşviq edir və ailə birliyini gücləndirir. İslam Peyğəmbəri (s) buyurur: "Sizin

---

1. Məhəmmədi Reyşəhri, Quranda dostluq, hədis. 38
2.Məhəmmədi Reyşəhri, Quranda dostluq, hədis. 38
3. Rum, ayə 21

ən yaxşı qadınlarınız sevgi və məhəbbət sahibi olan qadınlardır”.[1] Kişilərə gəldikdə isə buyurur: “Kim bizim dostlarımızdan biridirsə, həyat yoldaşını daha çox sevər və eləcə də kişinin imanı da nə qədər kamil olarsa, həyat yoldaşını da bir o qədər sevər”.[2]

Şekspir də deyir: “Qadında qəlbimi əfsunlayan şey gözəlliyi deyil, xeyirxahlığıdır. Mən daha mehriban bir qadına üstünlük verirəm”.[3]

Sevginin olduğu və cütlüklərin rahatlıq, rifah və bir-birlərinə maraq içində yaşadıqları ailələrdə uşaqlarını daha çox qabiliyyətlə böyüdə bilərlər. Bir uşaq sevgi və şəfqət dolu bir ocaqda böyüdüyü zaman ruhu da dincəlir, yaxşı inkişaf edir və valideynlərindən nümunə götürərək gələcəkdə xeyirxah və səmərəli bir həyat yoldaşı olacaq, eyni zamanda səmərəli bir ailə quracaq. Bu səmərəlilik nəsildən -nəsilə ötürülür, nəticədə canlı və səmərəli bir cəmiyyət formalaşır.

Ailənin səmərəsizliyinə və emosional boşanmaya səbəb olan şey, üzvləri arasında sevginin azlığı və ya olmamasıdır. Sevgi olmadıqda ailə üzvləri ocağa və bir-birinə bağlı olmur, psixoloji olaraq da bir-birindən ayrı yaşayırlar. Sevgi bu dünyada cazibə qanunu mislidir. Atomlardan qalaktikalara qədər kainatın cazibə qanunu ilə idarə olunduğu kimi, ev və ailə də sevgi qanunu ilə idarə olunur.

Cazibə qanunu dünyadan bir anlıq çıxarılsa, nizamı pozulacaq və ümumiyyətlə təbiət aləmi məhv olacaq. Evdəki

1. Məclisi, Bihar əl-ənvar, c. 103, səh. 235.
2. Məclisi, Bihar əl-ənvar, c. 103, səh. 223 və 228.
3. Əminin nəqlinə əsasən, 2007.

sevgidə belədir, orada olmasa o ev məhvə məhkumdur. Ailədə sevgi yoxdursa və üzvlərinin sevgiyə olan ehtiyacı ödənmirsə, heç bir üzv istənilən öhdəliklərini yerinə yetirə bilməz və nəticədə ailənin funksionallığı, səmərəliliyi səmərəsizliyə çevriləcək. Bir binanın tərkib hissələri palçıq olmadan bir-birinə yapışmadığı və bina ayaqda durmadığı kimi, palçığı sevgi və mərhəmət olan ailə sistemi və təməli də onsuz bərpa ola bilməz.[1] Sevgi yoxsulluğu çəkən kişi və ya qadın ailənin xoşbəxtliyini, rifahını təmin etmək üçün səy göstərməz, fədakarlıq etməz, əksinə enerjisini ailədə və cəmiyyətdə nizamsızlığa və xaosa səbəb ola biləcək şeylərə sərf edər. Məhsuldarlığa səbəb olan şeylərdən biri də cütlüklər arasında qarşılıqlı güvən və bir-birinə sədaqətdir, sevgi olmadıqda sədaqət və güvən hissi də reallaşmır.

Onu da qeyd etmək lazımdır ki, səmimi sevgi və dostluq yetərli deyil; "həyat yoldaşımı ürəkdən sevirəm" deyib, amma əməl və davranışda bunu göstərməmək səmərəliliyə zəmanət vermir. Daha doğrusu, həm bu sevgi davranışlarda müşahidə olunmalı və təsirləri görülməli, həm də dini təlimlərə əsasən dilə gətirilməli və həyat yoldaşına onu sevdiyini bildirməlidir. Sevgini ifadə onun daha güclü olmasına və çoxalmasına səbəb olur. İmam Sadiq (ə) buyurur: "Birini sevdiyin zaman ona sevdiyini bildir".[2] İslam Peyğəmbəri (s) də buyurur: "Kişi

1. Məzahiri, 2004.
2. Məclisi, Bihar əl-ənvar, c. 103, c. 47, səh. 181

həyat yoldaşına: “Səni sevirəm” – deyərsə, bu söz heç vaxt qəlbindən çıxmaz”.[1]

## 2. Ailə üzvlərinə ehtiram

İslamın insanlarla əlaqə yaratmağa dair bağlı vacib təlimlərindən biri, onların ləyaqətinə və dəyərinə diqqət yetirmək, habelə onu başqalarına öyrətmək olmuşdur. Hətta mömin və müsəlman olmayanlara qarşı belə bu mövqeyi sərgiləməyə çalışmışdır. Peyğəmbər (s) və məsum imamların (ə) bu gözəl əxlaqı, cahillik dönəmində Peyğəmbərə (s) və dinə qarşı çıxan inadkar insanların Peyğəmbər (s) və Əhli-beytinin (ə) nəcib əxlaqına heyran olmasına və İslamı qəbul etməsinə səbəb olmuşdu. Kiçik və rol oynayan bir cəmiyyət olan ailədə bu İslam ədəbiyyatına riayət etmək, əhəmiyyətli təsirlər buraxır və sağlam və səmərəli bir mühitin yaradılmasına təsir göstərir. Kiçik və rol oynayıcı bir cəmiyyət olan ailədə bu İslam ədəbinə riayət, əhəmiyyətli təsirlər buraxır və sağlam, səmərəli bir mühitin yaradılmasında təsirli olur.

## 3. Ailə üzvlərinin qarşılıqlı hörməti

Bütün normal insanlar özlərini və bütün cəhətlərini sevirlər; zədələnməsinə dözmürlər, varlıq cəhətlərindən onlara təcavüz edən amillərə mənfi reaksiya verirlər və onu qorumaq üçün səylərini əsirgəmirlər. Şəxsiyyət və özünə hörmət hər kəsin, xüsusən həyat yoldaşına və ailə üzvlərinə hörmət etməsini istəyən hər kəsin varlığının əsl, əsas cəhətlərindən biridir,

1. Hürr Amuli, Mustədrək əl-vəsail, c. 20, s. 23

kimsə onun şəxsiyyətinə hörmət etmirsə, ona sevgisi azalır və aralarında fasilə yaranır. Əslində ailə üzvlərinin ləyaqətini və şəxsiyyətini qorumaq, qarşılaşmalarda göstərilən hörmətdən asılıdır.

Qarşılıqlı hörmət insanların münasibətlərini və yaxınlığını gücləndirir. Bir kişi ilə bir qadın arasında heç bir fərq yoxdur və hər ikisinin də qarşılıqlı hörmətə ehtiyacı var. Cütlüklərin bir-biri ilə olan dostluq, yaxınlıq və çox özəl münasibətləri səbəbindən heç vaxt bir-birlərinə hörməti gözardı etməməlidirlər. Bundan fərqli olaraq həyat yoldaşı və uşaqlar, bu səbəbdən, habelə münasibətlərinin adi və soyuq bir əlaqəyə çevrilməməsi üçün bir-birlərinə hörmət etmək, şəxsiyyətini qorumaq məcburiyyətindədirlər. Dini mənbələrdə kişilərin qadınlara hörmət qoyması onların hüquqlarından biri sayılır,[1] həmçinin ərinə hörmət etməyən qadınlar lənətlənmişdir.[2]

Ailə üzvlərinin davranışlarının möhtərəm və nəzakətli olduğu bir ailədə münasibətlər səmimi və yaxın olacaq. Səmimi münasibətlər bir çox anomaliya və nizamsızlıqların qarşısını alır. Belə bir ailə həyatı coşğu və maraqla idarə edir, bununla da istedadların çiçəklənməsi, üzvlərinin təkamülü və səmərəliliyi üçün zəmin yaradır.

Digər tərəfdən insanlara qarşı hörmətsizlik onlarda həqarət hissi yaradır. Ailə üzvlərində həqarət hissi, səmərəsizliyə

---

1. Məclisi, Bihar əl-ənvar, c. 71, səh. 4
2. Məclisi, Bihar əl-ənvar, c. 103, c. 100, səh. 253

gətirib çıxarır və kamala mane olur. İmam Əli (ə) buyurur: Nəfsi alçalmış insandan daha xeyir gözləmə, nəfsi alçaq və xar olanların öz xeyirlərinə də ümidvar olma![1]

## 4. Ailədə mülayimlik

Digər insanlara qarşı mülayimlik, onlara ehtiram qoymaq prinsipinə əsasən məna tapır. Əmirəlmöminin Əli (ə), Allahın Peyğəmbərinin (s) mülayimliyini təsvir edərkən dedi: Peyğəmbər (s) həmişə (və bütün insanlara qarşı) xoşüzlü və xoşxasiyyətli idi, davranışlarında heç bir şiddət və ya yekəxanalıq müşahidə edilməmişdi.[2]

Allah Rəsulunun (ə) məktəbinin yetirməsi, ənənə və davranışlarının davamçısı olan İmam Əli, əməli işlərinin, ailə və ictimai həyatının sərlövhəsini mülayimlik etmiş və buyurmuşdu: İşlərində mülayimlik sünnəsini, dostluq və yumşaqlıq üslubunu önə çəkən şəxs, başqalarından gözlədiyinə nail olacaq; çünki mülayimlik ixtilafların, düşmənçiliklərin, kin-küdurətlərin və qısqanclıqların yayılmasını əngəlləyən əxlaqi, sosial və İslami bir davranışdır; dostluq və mülayimliklə müxalifətlərin kəskinliyi azalır.

O həzrət şirin həyatın, səmərəli ailənin gerçəkləşməsinin bir-birinə qarşı mülayimlikdən asılı olduğuna inanırdı. Həmçinin buyurur: Ağıllı və tədbirli adam, bu mövzudan tam bəhrələnən, həyat yoldaşı və uşaqları ilə münasibətlərində mülayimlikdən ağıllı və ehtiyatlı istifadə edərək düzgün, nizamlı və sağlam bir həyat sürəndir.

---

1. Məclisi, Bihar əl-ənvar, c. 103, səh. 237
2. Təbərsi, Məkarim əl-əxlaq, səh. 14.

## 5. Sağlamlaşdırma və səmərəli ailə

Bütün millətlər və mədəniyyətlər arasında insanlar, duyğu və emosiyalarını ifadə etmək, görüşdən məmnun olmaq və bir-birləri ilə söhbətə başlamaq üçün xüsusi bir yol icad ediblər; söz və jestlərlə bu məqsədi şərti olaraq çatdırırlar. İslam ənənəsində də bu məqsəd bir-birinə salam vermək, əl sıxmaq və qucaqlaşmaqla həyata keçirilir. İmam Sadiq (ə) bu xüsusda buyurur: Salam, ümmətimizin salamlamağıdır.[1] Salam vermək Qurani-Kərimin ilahi göstərişlərindəndir. Allah buyurur: Nə vaxt evlərə daxil olsanız, bir -birinizə salam verin, bu da Allahın pak və mübarək salamı və nemətidir.[2]

Dini təlimlər ilk addımı salamla başlayan əlaqəni və eləcə də bu vacib məsələnin ailənin və insan cəmiyyətinin ruh sağlamlığındakı, təhlükəsizliyindəki yerini xüsusi vurğulayır. İslamda möminlərə bir-birlərinə salam vermələri əmr edilir və xüsusi vurğulanır. Peyğəmbər (s) qadınlara və uşaqlara da salam verirdi. Salam sağlamlıq ilə eyni kökdəndir və bunun mənası, salam verən tərəfindən müxatəblərə heç bir təhlükə və təhdid olmadığı deməkdir. Bu, müsəlman ailə üzvlərinin görüşdükləri zaman salam və iltifat olaraq istifadə etdikləri İslam şüarıdır. Hansı ki, başqa qəbilələrdə və millətlərdə fərqli formalardadır. İnsanlıq, xüsusən də ailə münasibətlərinin başlanğıcında İslamın salama tövsiyəsi, bəşər fitrətinə uyğundur.

---

1. Məclisi, Bihar əl-ənvar, c. 6, səh. 46
2. Nur, ayə 61

## 6. Mərhəmət və mehribanlıq

İslam Peyğəmbəri (s) buyurub: Kim başqalarına mərhəmət etməzsə, Allah da ona rəhm etməz.[1] Həmçinin, mərhəmətli olmayan kəs, mərhəmət gözləməsin.[2] Ailə və ictimai münasibətlər ünsiyyət mühitində sevgi və mərhəmətlə islah olunur. O, rəhmət elçisi idi və qətiyyətlə buyururdu: Kiçiklərimizə (uşaqlara) rəhm etməyən və böyükümüzə hörmət etməyən bizdən deyil.[3]

Mehriban davranış insan ruhunu hər cür pislikdən təmizləyir və sağlamlığını təmin edir. Bu saflıq və sağlamlıq sayəsində, asudə və əmin-amanlıqla, bütün səyini insanlıq istedadlarının inkişafına və çiçəklənməsinə istifadə edir, psixoloji və mənəvi zərərlərə qarşı qala təki möhkəm durur və yadların canına girməsinə icazə vermir. İmam Sadiq (ə) Allah Rəsulundan (s) nəql edir: Kim möminlərə mehriban sözləri ilə hörmət edər və kədərini aradan qaldırarsa, bu hal və duyğu onun içində qaldığı müddətcə Allahın mərhəmətinə şamil olar.[4]

Peyğəmbər və məsum imamlar böyüklərə və uşaqlara qarşı mərhəmət göstərmiş, uşaqları sevməyə böyük əhəmiyyət vermişlər. Buna görə də İmam (ə) buyurub: Övladlarınıza ləyaqətlə yanaşın və onlarla gözəl əxlaqla ünsiyyət qurun.[5] Uşaqlara hörmət etməyi və ehtiramla yanaşmağı vurğulaması, onların zati ləyaqətini əzəməmək üçündür. Davranış, uşaqları müstəqil, azadə, şərəfli və fəzilətli edən gözəl əxlaq və

---

1. Təfsir İbn Kəsir, c. 7, səh. 298
2. Məclisi, Bihar əl-ənvar, c. 43, səh. 295
3. Hürr Amuli, Mustədrək əl-vəsail, c. 8, səh. 467
4. Hürr Amuli, Mustədrək əl-vəsail, c. 11, səh. 591
5. Əl-Müttəqi, Kənz əl-ummal, c. 16, səh. 256

hörmətə əsaslanır. Uşaq ləyaqət gördüsə və əsl şəxsiyyətinə hörmət edildisə, o, şəxsiyyətli və fəzilətli olar, bunun əksi olaraq alçaldılıb təhqir olunarsa, daxilindəki potensial fəzilətlərin inkişafı dayanar, təhrifə səbəb olar, habelə ailənin və ailə üzvlərinin səmərəliliyinin artmasına mane olar. Bəzən də ailənin bir üzvünün başqalarına mənfi təsiri bütün ailənin böhran keçirməsinə və düz yoldan sapmasına səbəb olur.

Peyğəmbər (s) buyurur: Uşağınızın adını çəkdiyiniz zaman onu əzizləyin, oturacağı yeri genişləndirin (hörmət edin) və ona qarşı acı davranmayın.[1]

O həzrət, bütün uşaqları əzizləyirdi, azyaşlı bir uşağı duadan və ya adlandırmaqdan ötrü gətirdikdə, Peyğəmbər (s) ehtiram olaraq onu qucağına alırdı. Bəzən elə olurdu ki, uşaq Peyğəmbərin qucağında idrar edirdi; uşağın davranışını müşahidə edənlər ona çığırır (və idrarını dayandırmağa tələsdilər), amma Peyğəmbər (s) onları çəkindirər və buyurardı: Uşağın idrar etməsinə şiddətlə mane olmayın. Dua və ya ad qoyma bitdikdə uşağın valideynləri sevinclə uşağı götürdülər və uşağın sidiyindən dolayı Peyğəmbərdə (s) ən kiçik bir inciklik hiss etmirdilər. Peyğəmbər (s) ətrafdakılar çıxanda paltarını təmizləyərdi.[2] Bu davranışı ilə başqalarına Allah Rəsulunun (s) ətəyindən nəcasət təmizlənəcəyini, ancaq uşağın təbii hərəkətinə qarşı sərt bir reaksiyanın onun qəlbindən çıxmayacağını və ruhi sağlamlığını təhlükəyə atacağını öyrətdi. Peyğəmbər (s) bu yolla uşaqlara hörmət edir

1. Səbzəvari, Cami əl-əxbar, səh. 124
2. Təbərsi, Məkarim əl-əxlaq, səh. 25

və onlarla mehriban davranırdı. Başqa bir rəvayətdə, Peyğəmbərin (s) namazı və uşaqlara etdiyi mehribanlıq nəql olunub. Belə ki, Peyğəmbərin (s) camaat namazına gəldiyi günlərin birində, o vaxt kiçik bir uşaq olan İmam Həsən (ə) də məscidə gəlir. Peyğəmbər (s) onu yanında otuzdurdu və özü namaza durdu. Namazın ortasında səcdələrdən biri çox uzun çəkdi. Rəvayəti nəql edən deyir: Səcdədən başımı qaldırdığımda gördüm ki, Həsən yerindən durub Peyğəmbərin (s) çiyninə minmişdi. Namaz bitdikdən sonra namaz qılanlar soruşdular: Ey Allahın Rəsulu (s), səndən belə səcdə görməmişik, sənə vəhy çatdığını düşündük. Həzrət (s) cavabında buyurdu: Vəhy gəlməmişdi, oğlum Həsən səcdə edərkən çiynimə minmişdi, tələsib uşağı yerə qoymaq istəmirdim, odur ki, çiyinlərimdən enənə qədər gözlədim.[1]

Uşağa qarşı mehribanlıq dini mənbələrin, dini göstərişlərin bu qədər diqqət mərkəzindədirsə, üstəlik arzuolunan təsirlər daşıyırsa, şübhəsiz ki, böyüklərə, habelə zehni inkişaf mərhələsinə çatmış və başqalarının davranışlarını analiz edən həyat yoldaşına qarşı mehribanlıq daha səmərəli təsirlərə gətirib çıxaracaq. Həyat yoldaşları bir-birlərinə qarşı mehribanlıq hiss etdikdə, ailə sistemini daha səmərəli etmək çalışacaqlar. Beləliklə, mehribanlıq və mərhəmət nəinki uşaqlara, həm də böyüklərə lazımdır, onu duymaqdan zövq alırlar, xoşbəxtliyə, indiyə və gələcəyə ümidə səbəb olur, nəticədə inkişafa və kamilliyə yol açacaq.

---

1. Məclisi, Bihar əl-ənvar, c. 43, səh. 294.

## 7. Səbir və ailə səmərəliliyi

İnsanın dünya həyatı bir çox problem və təzadlarla doludur və əgər ona qarşı dursa, səbir və müqavimət göstərsə, şübhəsiz ki, qalib gələcək, yox əgər mənfi hadisələr qarşısında səbirsiz olsa, diz çöksə, heç vaxt məqsədinə çatmayacaq. Buna görə də dini mənbələrdə səbir və qələbə yanaşı qeyd edilmişdir. Qurani-Kərimdə səbir mücahidlərin Allah yolunda qalib gəlməsi üçün vacib şərtlərdən biri sayılmışdır. Allah mücahidlərə buyurur: Əgər aranızda iyirmi səbirli kişi olsa, kafirlərdən iki yüzünə qalib gələr; əgər aranızda yüz səbirli kişi olsa, kafirlərdən mininə qalib gələr.[1] O Allah ki, səbri çətinliklə üzləşmə qabiliyyətini və gücünü artıran bir faktor sayır. Uca Allah tərəfindən səbir və onun fərdi, sosial və ailə həyatına təsiri haqqında yetmiş ayə nazil edilmişdir və bəzi təfsirçilərə görə heç bir insan fəzilətinə bu qədər təkid edilməmişdir. Bu onu göstərir ki, Quran bu əxlaqi və əməli fəzilətə böyük əhəmiyyət verir, onu bütün fəzilətlərin və bütün xoşbəxtliklərin xəmiri, hər hansı bir xoşbəxtliyə və firavanlığa nail olmaq vasitəsi hesab edir. Əgər insan və ailə səbirə malik olmazda və buna əməl etməzsə, heç vaxt səadətə çatmayacaq və səmərəli olmayacaq.[2]

---

1. Ənfal, ayə 65
2. Məkarim Şirazi, 2004.

İmam Əli (ə) əməldəki səbri bədəndəki baş hesab edir və buyurur ki, baş bədəndən ayrıldığında bədən xarab olduğu kimi, səbir də əməllərdə olmadıqda əməllər xarab olur.[1]

Ailədə bəzən üzvlər uğursuzluqlarla üzləşir və ya arzularının həyata keçməsi üçün vaxt lazımdır. Həmçinin, bəzən fiziki xəsarətlər alırlar və bir çox hallarda aralarındakı əlaqənin pozulması ailədaxili qarşıdurmalara, qeyri-münasib davranışlara zəmin yaranmasına səbəb olur. Ailə üzvləri özlərini idarə edə bilmirlərsə, problemlərə qarşı səbir və dözümlülük yoxdursa, ailə ciddi travma alacaq; bu halda fərdin öz ehtiyacları qarşılanmayacaq, üstəlik başqaları üçün də problem yaradacaq. Stres, təzyiqlər qarsşısında səbirsizliyin ilk məhsuludur. Səbirli bir insan, hadisələr qarşısında səbirli olmaqla ailənin uğurunu və səmərəliliyini qoruyub saxlaya bilər, halbuki başqalarının yersiz davranışlarına dərhal və düşüncəsiz reaksiya vermək peşmanlığa gətirib çıxarır. Ancaq səbr, insana doğru zamanda və səhv edənin davranışına qarşı doğru davranış, reaksiya göstərməyə imkan verir.

Bir ailə üzvlərinin uzun müddət birgə olması səbəbiylə aralarında ixtilafların olması təbiidir. Əgər üzvlərdən hər biri yalnız öz istəklərini düşünmək, onlara çatmaq, fərdi ehtiyaclarını ödəmək və çatışmazlıqlar qarşısında səbirsizlik göstərmək istəyirsə, xoşbəxtliyinə və məqsədlərinə çata bilməz.

---

1. Məhəmmədi Reyşəhri, Mizan əl-hikmət, hədis. 10064

## 8. Ailədə dürüstlük

Dürüstlüyün əhəmiyyətinə dair Qurani-Kərimdə misilsiz şərhlər vardır. Allah möminlərin dürüstlüyünün bu dünyada onlara kömək edəcəyini və Qiyamət günü onları xilas edəcəyini söyləyir; mükafatını cənnət və doğrulardan razılığı sayır.[1] Hədislərdə də bu əxlaqi fəzilətə böyük əhəmiyyət verilmiş, bütün insan fəzilətlərinin dürüstlükdən və həqiqətdən qaynaqlandığı, bütün yaxşılıqların açarının həqiqət,[2] bütün pisliklərin başının isə yalan və yalançılıq olduğu nəql edilmişdir.[3] İmam Sadiq (ə) həqiqəti ətraf aləmi işıqlandıran bir nur kimi, onun şüası düşən hər şeyi qüsursuz olaraq işıqlandıran bir günəş misli qəbul edir.[4]

Quran təlimlərinə və hədislərə görə, həqiqət və dürüstlük insan həyatının bütün sahələrinin səmərəliyində təsirlidir. Buna diqqət insanın bu böyük əxlaqi fəzilətə yönəlmək, onu həyatında tətbiq etmək motivasiyasını artırır. Dürüstlük fəzilətinin ilk təsiri kollektiv əməkdaşlıqlarda inam və etimad qazanmaq məsələsidir. İnsan həyatının əsasını qrup və kollektiv iş təşkil edir və kollektiv əməkdaşlıq olmadan vacib və dəyərli işlər həyata keçmir və ya zəif inkişaf edir, yaxud da ləngiyir.

Kollektiv işin inkişafı, öz növbəsində, qrup üzvləri arasında etibar və güvən olmadan mümkün deyil, aralarında dürüstlük

1. Maidə, ayə 119
2. Məclisi, Bihar əl-ənvar, c. 68, səh. 9
3. Məhəmmədi Reyşəhri, Müntəxəbi Mizan əl-hikmət, səh. 439
4. Yenə orada, səh. 10

və etimadlılıq üstünlük təşkil edərsə güvən və etibar da əldə edilir. Həmçinin elmi, mədəni, tərbiyəvi, hüquqi, iqtisadi və s. fəaliyyətlər arasında heç bir fərq yoxdur. Alim, pedaqoq, menecer, siyasətçi, uşaq və həyat yoldaşı bir neçə dəfə başqalarına və münasibətdə olduğu insanlara yalan danışarsa, nüfuzunu və dəyərini sürətlə itirər, cəmiyyətin, xüsusən də kiçik ailə cəmiyyətinin səmərəliliyi azalar və ya pozular.[1]

Dürüstlük ruhi sağlamlığı təmin edir və insana cəsarət verir, yalan və yalançılıq isə insanı həmişə qorxu vəziyyətinə salır, daima yalanlarının ifşa olunacağından qorxur. Ruhi sağlamlığı olmayan bir insan, ailənin səmərəliliyinə doğru ciddi addımlar ata bilməz.

Psixoloji analizdə dürüstlük, nitqinin və davranışının məzmununa zidd heç bir marağı və ya niyyətinin olmadığı danışıq və rəftara deyilir; yəni fərd açıq və aydın danışır. Bir şəxs sözlü və ya fiziki ünsiyyətdə sədaqətli olmadıqda, ziddiyyətli və ya iki səviyyəli bir ünsiyyət qurulur, belə ki, şəxsin nitqinin məzmunu bir şeydir, qalan varlığı isə başqa bir şeyi ifadə edir, yaxud davranış və danışığından marağı, niyyəti başqa bir şeydir.[2]

Bu səbəbdən ailədəki münasibətlərin sağlamlığını, habelə ailənin inkişafını və səmərəliliyini qazanmaq üçün səs tonu, göz təması, baxışlar, bədən duruşu və bədən hərəkətləri kimi şifahi və fiziki əlaqələr aydın, şəffaf olmalı və insanı çaşdırmamalıdır. Şəxsin sözləri nəinki üzün vəziyyəti, bədən mövqeyi və səs tonu ilə uyğun gəlməli, həm də niyyətini və

1. Məkarim Şirazi, 1998.
2. Salarifər, 2006.

şüuraltı vəziyyətləri izah etməlidir. Əslində, insanın emosional, duyğusal, davranış və idrak da daxil olmaqla bütün psixoloji ölçüləri bir həqiqəti göstərməlidir. Bu cür dürüst, səmərəli və normal ünsiyyət ailə üzvlərinə sədaqətli, məsuliyyətli, ləyaqətli, yaradıcı olmağa, kamala çatmağa və problemlərin öhdəsindən gəlməklə ailə məhsuldarlığını artırmağa imkan verir.[1]

### 9. Ailə üzvlərinin pozitiv düşüncəsi

Pozitiv düşüncə, Allaha, özünə, insanlara, hadisələrə, cisimlərə və fövqəltəbii aləmə və ümumiyyətlə təbii aləmə qarşı optimist və pozitiv münasibətlərin birləşməsidir və buna əsasən insan qabiliyyətlərinə uyğun olaraq kainatdan və onda baş verənlərdən yaxşı nəticələr gözləyir. Bu tərifə əsasən, insanlar, həyatın bütün vacib sahələrində problemlərlə qarşılaşdıqda, ümumilikdə yaxşı nəticələrin (pisin əksinə) ortaya çıxacağı gözləyirlər.[2] Optimizm, bir insanın ən yaxşı nəticələr gözləmək və bir vəziyyətin ümidverici tərəflərinə diqqət yetirmək meylini əks etdirir.

Dini mənbələr, Allahın mərhəməti haqqında nikbinliyə və Allahın işlərinə olan ümidə böyük əhəmiyyət verir. Məsum imamın (ə) bir hədisində oxuyuruq ki, "İnsan Allah və Onun işləri haqqında bədbin olduqda məyusluq, ümidsizlik və bədbinliyə məhkum olur".[3] Əslində mömin Allaha imanı və güvəni olduğuna görə onun haqqında nikbindir və əməllərə,

1. Salarifər, 2006.
2. Scheier and Garver, 1985, Dunavolddan nəql edirlər, 1997.
3. Məclisi, Bihar əl-ənvar, c. 5, səh. 48

nəticələrə, gələcəyə nikbin və ümidlə yanaşır, çünki Allahın hər şeyin idarəsində rolu var və müsəlman şəxs Allah haqqında nikbindir və bəndələrinin mənfəətlərinə uyğun olaraq hər şeyi idarə etdiyinə inanır. Bu səbəbdən müvəffəq olacağına pozitiv baxa bilər - Allahın yardımı ilə əməllərindən yaxşı nəticə alacaq, Allah ona dişləmələrdən və bəlalardan qorunmağa, çətinlikləri dəf etməyə kömək edər. Deməli, müsəlman bir ailə üzvünün nikbinliyi əbəs yerə və səbəbsiz deyil, Allahın mərhəmətinə və lütfünə güvəndiyinə görədir.

Həyat məsələlərinə müsbət baxışı və xoşagəlməz hadisələri optimist şəkildə izah etməsi problemləri həll etmək bacarığına təsir göstərir. Bədbin izahlar isə insanların neqativ emosional vəziyyətə düşməsinə səbəb ola bilər. Bu vəziyyətdə fiziki xəstəliklərin üzə çıxması ehtimalı da artır, xəstəlik də öz növbəsində səmərəli həyat prosesinə mənfi təsir qoyur. Pozitiv baxış insanı problemin həllindən ötrü planlar qurmağa vadar edir. Bu planlar üzərində hərəkət edərək, işlərin adətən, onun istədiyi kimi getməsini gözləyir və bu, onun səyini iki qat artırır.[1]

Bu üzdən, ortaya çıxan problemlərə və bədbəxtliklərə qarşı həyata müsbət baxışın duygusal vəziyyətə təsir etdiyini, ailə üzvlərinin münasibətlərini yaxşılaşdırdığını və ailənin səmərəliliyinə səbəb olduğunu qeyd etmək olar.

Səmərəli ailə üzvləri də Allaha nikbinlik sayəsində bir-birlərinə pozitiv baxır və digər üzvlərə müsbət və konstruktiv yanaşırlar, onlarla münasibət qurarkən düşüncələrə, hərəkətlərə və davranışlara pozitiv baxmağa can atırlar.

1. Di Matteo, Musəvi və həmkarlarının nəqlinə əsasən, 1999.

Dini mənbələrdə başqalarına və ailə üzvlərinə nikbinlik yüksək qiymətləndirilmiş, faydalarına və ünsiyyətin, insan və ailə cəmiyyətinin səmərəliliyində dəyərli təsirlərinə təkid edilmişdir. Pozitiv baxış, başqalarının diqqətini çəkməyin,[1] daxili rahatlığın[2] və kədəri azaltmağın[3] səbəbidir. İmam Əli (ə) buyurur: "İnsanlar haqqında yaxşı düşünmək, ən gözəl xüsusiyyətlərindən və Uca Allahın ən böyük nemətlərindən biridir".[4] Həmçinin o həzrət buyurur: "Kim camaat haqqında yaxşı gümanda olarsa, onların sevgisini qazanar".[5]

1. Məclisi, Bihar əl-ənvar, c. 77, səh. 41
2. Məhəmmədi Reyşəhri, Mizan əl-hikmət, c. 5, səh. 623
3. Yenə orada
4.Amidi, Əbdülvəhhab, Qurər əl-hikəm, hədis. 4834
5. Yenə orada, hədis. 8843

**Nəticə**

Müştərək həyatın və ailə səmərəliliyinin amillərindən biri də qarşılıqlı sevgi və məhəbbətdir. Ailə üzvləri, xüsusən də cütlüklər bir-biri ilə müsbət, konstruktiv şəkildə və pozitiv baxışla ünsiyyət qurduqda, onların ailə ocağı da sağlam və səmərəli olacaqdır. Şirin və zövqlü həyat axtarışında olan cütlük həyat yoldaşına pozitiv və nikbin baxışla baxır, onun müsbət tərəflərini nəzərə alır, qüsur və çatışmazlıqları görməzliyə vuraraq həyatı və davranışları daim gözəl görür, bəzən bəziləri hətta qüsurları belə yaxşı və müsbət görür.

Bradford (1983) 15 yaşdan yuxarı 351 cütlüyü sorğu-suala çəkərək onlardan niyə birlikdə yaşadıqlarını soruşdu. Bu araşdırmanın nəticələri müştərək həyatın davam etməsində aşağıdakı amillərin təsirli olduğunu göstərdi:

a) Həyat yoldaşına müsbət münasibət;
b) Evliliyin müqəddəs bir şey və əbədi bir öhdəlik olduğuna inanmaq;
c) Məqsəd və istəklərin oxşarlığı;
d) Cinsi əlaqədən məmnunluq.

Pozitiv baxışla birbaşa əlaqəli olan şeylərdən biri, bir-birlərinin davranışlarını və çıxışlarını səhv başa düşmənin və yanlış anlamanın meydana gəlməsidir. Anlaşılmazlıq ailə üzvlərinin əlverişli münasibətlərini pozur və narahatlığına səbəb olur. Ailə mübahisələrinin əsas səbəblərindən biri anlaşılmazlıqdır və bu cür anlaşılmazlıq və yanlış təsəvvürlərlə mübarizənin ən yaxşı yolu nikbinlikdir. Nikbinlik yaratmaqdan

ötrü cütlüklər müştərək həyatın başından şübhə əsaslarını ortadan qaldırmaq üçün bir-birlərini yaxşı tanımaq, danışıq və davranışları öyrənmək üçün səy göstərməlidirlər. Eyni zamanda, bütün danışıq və davranışlarda əxlaq kodeksinə və İslam standartlarına riayət etmək lazımdır ki, tanışlıq və davranış bir araya gələrək nikbinlik yaratsın. Bu cür nikbinlik ailədə qarşılıqlı inamı gücləndirir, bir-birlərinin davranışları haqqında mənfi təsəvvürləri azaldır, düzgün anlayışa və yaxın münasibətlərə zəmin yaradır. Bunlar bir araya gətirildikdə, ailə üzvləri əmin-amanlıq içində yaşayacaq və ailənin səmərəliliyi təmin ediləcək.

Nikbinliyin əxlaqi xüsusiyyəti, ailənin səmərəliliyinə səbəb olmaqla yanaşı, cəmiyyətin səmərəliliyi və nikbinliyinə də birbaşa təsir edir; valideynlərin nəsnələrin izahı üçün istifadə etdiyi hər hansı izah metodunu uşaqlar diqqətlə öyrənir, yadda saxlayır və insan cəmiyyətindəki fərdləri ilə münasibətdə istifadə edirlər. Optimist valideynlər cəmiyyətə nikbin uşaqlar gətirir və cəmiyyətdə də eyni şəkildə davranırlar. Beləliklə, insan cəmiyyətinin davranışları nikbinliyə əsaslanır və cəmiyyətin səmərəliliyinin bir amili olacaq.

## İstifadə olunan ədəbiyyat

1. Quran-Kərim
2. Ayətullahul –uzma Məkarim Şirazi , "Təfsiri – Nümunə", Ayətullahul –uzma Məkarim Şirazi, Dinin fəxri nəşriyyatı, mütərcim: Rza Şükürov, Bakı şəh. 2002 -ci il.
3. Biharül-ənvar, Məhəmmədbaqir ibn Məhəmmədtəqi Məclisi (Əllamə Məclisi), Beyrut, Vəfa müəssisəsi, 1403 hicri-qəməri, ikinci çap.
4. Əl-Kafi, Məhəmməd ibnYəqub Kuleyni Razi, tədqiq: Əli Əkbər Qəffari, Beyrut, Darüs-səb və Darüt-təarüf, 1401 hicri-qəməri, dördüncü çap.
5. Müstədrəkül-vəsail və müstənbətül-məsail, Mirza Hüseyn Nəvəri Təbərsi, Alil-beyt (əleyhis-səlam) müəssisəsi, 1407 hicri-qəməri, birinci çap.
6. Tuhəfül-üqul ən Ali-Rəsul(səlləllahü əleyhi və alih), Həsən ibn Əli Hərrani(İbn Şöbə), tədqiq: Əli Əkbər Qəffari, Qum, Nəşrül-islami müəssisəsi, 1404 hicri-qəməri, ikinci çap.
7. Cameül-əxbar (Məaricül-yəqin fi üsulidddin), Məhəmməd ibn Məhəmməd Şəiri Səbzivari, tədqiq: Alül-beyt müəssisəsi, 1414 hicri-qəməri, birinci çap.
8. Məkarimül-əxlaq və məaliha, Fəzl ibn Həsən Təbresi, tədqiq: Əla Ali Cəfər, Qum, Nəşrül-islami müəssisəsi, 1414 hicri-qəməri, birinci çap.
9. Qürərül-hikəm və dürərül-kiləm, Əbdül-vahid Amidi Təmimi, çərh və tərcüməsi.

# İslam psixologiyası

**Faiq Sultanov**[1]

**Xülasə**
Qərb mədəniyyəti, psixologiya nəzəziyyələrinə bir başa təsir göstərmiş və bu məsələ, digər cəmiyətlər və mədəniyyətlər də psixologiyanın əhəmiyyətinin günü-gündən azalmasına səbəb olmuşdur. Bu fəsildə ilk olaraq mədəniyyət əsaslı psixologiyanı ümumi bir hadisə kimi bəhs etdikdən sonra, psixologiyanın İslama dayanaraq necəliyinə, nə olduğuna aydınlıq gətirilmişdir.

**Açar sözlər** – islam; psixologiya; mədəniyyət; tərif; hədəf; metodika.

## Giriş

Nəzəriyyəçilər son iki on illikdə psixologiya nəzəriyyələrinin qlobal və universal olması barəsində şübhəylə yanaşaraq mədəniyətin insan şəxsiyyətinin və onun əxlaqi xüsusiyyətlərinin formalaşmasında rolunu araşdırmışlar. Pol Pedersen psixoanaliz, behaviorizm, humanizm kimi məktəblərdən sonra dördüncü güc olaraq multikultural perspektivo bir məktəb kimi irəli sürdü.[2]

---

1. İslam Araşdırmaları fakültəsinin məzunu, İslam Araşdırmaları institutu, Əl-Mustafa Beynəlxalq Virtual Universiteti, Qum, İran.
2. Pedersen. P, b. (1999). Multiculturalism as a Fouth Force, Philadelphia, PA: Brunner\Mazel.

Onun fikrincə, mədəniyyətlər arasında fərqlilik psixologiya sahəsində mədəniyyət yönümlü nəzəriyyənin irəli sürülməsini zəruri edir. Bu da, psixologiyanın şəxsiyyət, inkişaf, ailə, ruhi pozuntular və xəstəliklər kimi mövzularında mədəniyyət yönümlü nəzəriyyənin və cəmiyyətin mədəniyyətinə uyğun addım atılmasını labüd edir. Ponterotto Roto və həmkarları apardıqları təhqiqatlarda nəticə əldə etdilər ki, psixologiyanın müxtəlif mövzularını müxtəlif cəmiyyətlərdə yaşayan fərdlərin mədəniyyətlərinə uyğun şəkildə araşdırmaq lazımdır.

Günümüzdə, psixoloqlar sürətlə mədəniyyət yönümlü nəzəriyyələrə üz tuturlar. Mədəniyyət dedikdə isə, hər bir millətin tarix boyu əldə etdiyi adət-ənənələr, ictimai normalar, yaşam tərzi, fərdlərin müştərək inancları kimi mənədiyyətlər nəzərdə tutulur. Cəmiyyətin mədəniyyətinə uyğun psixologi nəzəriyyələtin kəşf edilməsinin labüdlüyünə görə, günümüzdə psixologiyanın müxtəlif növ reseptlərinə şahid oluruq.

**Psixologiyanın mədəni aspekti**

Mədəniyyət yönümlü psixologiya fərdlər və cəmiyyətlər üçün hüdudlar təyin edir və bu hüdud və çərçivə əsasında cəmiyyətin şəraiti və ehtiyacları müxtəlif reseptlərdə təqdim edilsin. Biz, burada bunların bir neçə nümunəsinə işarə edəcəyik:

**Feminist psixologiyası**

Feminist psixologiyası mədəniyyət yönümlü psixologiyanın ən bariz nümunələrindən biridir. Feminist psixoloqları hər zaman psixologiyanın qədim nəzəriyyələrini inkar edərək özlərinin yeni nəzəriyyələrini irəli sürürlər. Bu nəzəriyyə isə feminizm dəyərlərini təşkil edir. Feminist psixologiyanın hədəfi, qadının cəmiyyətdəki rolunu daha da qabartmaqdır. Bu nəzəriyyənin tarixi kökləri isə Karen Hornayın[1] fikirlərinə qayıdır. Bu sahədə də müxtəlif kitablar yazılmışdır. Onlardan biri də Reymer və Han Ou-nun yazdığı "Müşavirədə Feminist Əsaslı Müalicə" kitabıdır. Bundan əlavə Ensin və həmkarlarının yazdığı "Feminizmin multikulturalizm psixologiyası: Dəyişiklik, təkamül, uğursuzluq" kitabını göstərmək olar.

**Kommunist psixologiyası**

Sovet hakimiyyətinin kommunizm ideologiyası özünün ən qüdrətli zamanlarında kominizmi fəlsəfəsinə uyğun psixologiyanı təsis etməyə və onun əsasını qoymağa səy göstərdi. Bu mərhələdə kommunist psixologiya sahəsində nəinki nəzəriyyələr irəli sürüldü, hətta bu məktəbdə çox güclü alimlər yetişdi və onlar da böyük elmi dəyişiklikləri cəmiyyətə təqdim edi. Günümüzdə də, bəzi psixoloji təhqiqatlarda onları bəzilərinə istinad edilməkdədir.[2]

Kommunist rejiminin irəli sürdüyü dəyərlər isə, ictimai, iqtisadi, siyasi və tarixi amillərin insan şəxsiyyətinin formalaşmasında rolunun əvəzedilməz olmasıdır. Erik Froum kommunizm və sosializm təfəkkürlərindən təsirlənərək,

---

2. Bəhrami, Hadi, Tənqid və Nəzər proqramı, Marif radiosu, 1385 şəmsi.

ictimai və tarixi amillərin öz təfəkküründə qoyduğu izləri sərgiləmişdir.[1]
Psixologiya mövzularına diqqət yetirsək görərik ki, günümüzdə psixoloji mövzuların dini hadisələrlə birlikdə araşdırılması məsələsi aktual bir mövzu olaraq gündəmdədir. O həddə ki, hər bir dinin ardıclları malik olduğu dinin qaynaqlarına söykənərək özünəməxsus psixologiya nəzəriyyəsi irəli sürürlər. Bunlardan bəzilərini sizlərə təqdim edirik:

**Buddist psixologiyası**
Buddist psixologiyası psixologiya shaəsində meydana gəlmiş son trendlərdən biridir. Misal üçün, Kalu Pahana “Buddist Psixologiyasının Əsasları” kitabını, eləcə də Klakston “Buddist Psixologiyasında Meditasiya”[2]
Pikerinq “Təcrübə Əsasları” kitabında bir çox məqalələrin adını çəkir. Bu məqalələrin yazan şəxslər səy göstərirlər ki, buddist psixologiyanı Buda məktəbi əsasında formalaşdırsınlar. Nisanqa “Budda Əsaslı Psixi Müalicə” kitabını ruhi pozuntuların şərq üslubunda müalicəsi mövzusunda yazmışdır. De Silva “Buddist psixologiya” adlı kitabını isə, buddist psixologiyanın bütün əsasları barəsində olan nəzəriyyələri araşdırmışdır.

1. Fist və Fist, Şəxsiyyət Nəzəriyələti, səh. 222.
2. Claxton, G. (1990). Meditation in buddhist psychology.

**Xristian psixologiyası**

Xristian psixologiya sahəsində bugünə də bor çəx itablar yazılmışdır. Onlardn Robertsin yazdığı “Xristian Psixologiyası Nəzəriyyəsi” kitabını, habelə Ceyms Stalkerin müəlifi olduğu “Xristian Psixologiya” kitabını və Babqan və Babqanın yazdığı “Ruhi-Mənəvi Üslub: Xristianlıq və Ruhu Müaliə Eyniliyi” kitabını göstərmək olar.

**Yəhudi psixologiyası**

Yəhudi psxilogiyasında yəhudilik qaynaqlarına və üsullarına əsasən formalaşmışdır. Bu sahədə yazılmış kitablardan Rabinovitzin yazdığı “Yəhudilik və Psixologiya: İnteraktiv Yanaşma və Ortodoks yəhudilərinin psixi müalicəsi” kitabını, eləcə də Seymur Hamfenin yazdığı “Psixologiya, psixoterapiya və yəhudilik bəhsləri” kitabına işarə etmək olar.

Görünür bu nəzəriyyələrin ortaq nöqtəsi psixologiyada mədəniyyət mövzusuna irəli sürmək və mövcud psixologiyanın digər fərdlərin və cəmiyyətlərin ehtiyaclarına cavab verə bilməməsi məsələsidir.

Bu barədə aparılar təhqiqatların hamısı psixologiyanın bütün mədəniyyətlərə uyğun şəkildə formalaşmasına təkid edir.

**İslam psixologiyası**

Bir çox mədəniyyətlər və cəmiyyətlər kimi, müsəlmanların da özlərinin mədəni və ictimai şəraitlərinə və ehtiyaclarına uyğun bir psixologiyaya ehtiyacları vardır. Hərçənd ki, son illərdə İran, Malayziya, Ərəbistan, İraq və s. kimi müsəlman ölkələrindən olan təhqiqatçılar İslam dəyərlərinə əsaslanan bir psixologiya nəzəriyyəsi formalaşdırmağa çalışırlar. İslam psixologiyasının mahiyyəti nə necəliyi barəsində müxtəlif fikirlər olsada, bütün təhqiqatçılar psixologiya mövzularının

İslami cəmiyyətlərin mədəni şəraiti və etiqadlarına uyğun şəkildə tənzim olunmasını qəbul edirlər.[1]

**İslam psixologiyasına yönəlmənin səbəbləri**

Dünyada insanların dəstə-dəstə İslama üz tutmasını və İran İslam Respublikasının dünada İslami oyanışda fövqəladə rolunu nəzərə alsaq, bu səbəblərdən biri olaraq müsəlmanlar üçün "dini elmlər", "İslami humanitar elmlər", "İslami psixologiya", "İslam iqrisadiyyatı", "İslam sosiologiyası" kimi məfhumların cazibəsini göstərmək olar. Buna əsasən də, əgər İslam elmlərini yeni elmlərin sahib olduğu bacarıqlarla meydana gətirə bilsək, bu zaman müsəlmanların əldən verdikləri əzəmət və gücü yenidən əldə edə bilərik. Bu zaman isə, müsəlmanlar sahib olduqları mədəni və etnik elmlərə söykənərək, habelə qərbin elminə ehtiyac duymadan özünün ali və inkişaf yolunda addımlaya bilər.

Bu həfədlə də, humanitar elmləri islamlaşdırılması və elə İslam İnqilabının ilk vaxtlarında irəli sürüldü və son illərdə də müxtəlif sahələrdə dini elmlərin formalaşması İran İslam Respublikasının hədəflərindən biri olaraq xarakterizə edilməkdədir.

1. Məhəmməd İzzəddin, əl-Təsil əl-İslami lil dərasətil nəfsiyyə

## İslam psixologiyası nədir?

İslam psixologiyası dini elmlərin əhatə etdiyi elmlərdən biridir. Dini elmlər müxtəlif mənalarda istifadə olunur. Bəzi təhqiqatçılar dini elmlərin mənasına uyğun olaraq İslam psixologiyasını aşağıdaki mənalarda təfsir etmişlər:

İslam psixologiyası İslam cəmiyyəti üçün faydalı olan, habelə müsəlmanların psixologi ehtiyaclarını, məsələlərini həll etməyə qadir olan bir elmdir. Bu tərifə əsasən, hətta əgər mövcud psixologiya İsami cəmiyyətin ehtiyaclarını həll edə bilərsə, ona da İslami ünvanı veriləcəkdir. Şəhid Mütəhhərinin dini elmlər barəsində irəli sürdüyü tərif də qeyd etdiyimiz İslami psixologiya ilə uyğunluq təşkil edir. O, dini elmlər barəsində deyir: “Müsəlmanlar üçün faydalı olan və onların problemlərini həll etməyi bacaran hər bir elm dini elmdir. Nəhv, sərf, ərəb leğəti də bu baxışla yanaşılsa hər birisi bir dini elmdir.”[1]

İslam Psixologiyası müsəlman alimləri tərəfindən əsası qoyulmuş nəzəriyə və hüdudlardan ibarət bir elmdir. Bu tərifə əsasən, İslami psixologiya ilə qeyri-İslami psixologiya arasında mahiyyət fərqliliyi yoxdur. Buna əsasən də, əgər İslam dininə etiqadı olan hər bir fərdin düşüncəsinin məhsulu olan psixologiya qanunları və mövzuları hətta əgər İslami cəmiyyətin ehtiyaclarını ödəmək üçün nəzərdə tutulmasa belə, onu İslami adlandırmaq olar. Bu meyara görə isə, bəziləri İslami psixologiyanı “elmul nəfs” (müsəlman alimlərinin nəfsin mayihəti və necəliyi, eləcə də nəfsin gücü və s. barəsində nəzəriyyələri) ilə uyğunlaşdırırlar.

İslami psixologiya öz qanun və mövzularının İslamın mötəbər mətnlərindən (Quran, hədis kimi) əldə edən elmdir. Bu baxışa

---

1. Mürtəza Mütəhhəri, On kəlam, səh. 178-179.

sahib olan insanlar İslam dinini etiqadı olması ilə yanaşı, fiqh, əxlaq, təfsir, kəlam, bir çox tərcübi elmlərin ümumi müddəalarını da bəyan etmişlər.1 Bu nəzəriyyədə psixologiyanın İslami adlandırılması onun mənbələrinə əsasəndir. Buna görə də, əgər psixologiya qanunları Quran və hədislərdən əldə edilərsə, hərçənd onu irəli sürən nəzəriyəçi müsəlman olmas abelə ona İslami deyirlər.
İslami psixologiya müsəlmanlar üzərində aparılmış təcrübə və analizlərdən əldə edilmiş bir elmdir. Buna əsasən də, psixologiyanın İslami olması üçün inkişaf, şəxsiyyət, öyrənmək, ruhi pozuntular və s. kimi müxtəlif mövzularda aparılan psixologi təhqiqatların müsəlmanlar üzərində aparılması gərəkdir.
İslami psixologiya, təcrübə əsaslı üslublardan savayı, əqli, nəqli və şühudi üslublarkimi İslamın qəbul etdiyi üslublardan da istifadə edən bir elmdir. Bu nəzəriyyəyə əsasən isə, bir elmin İslami olmasının ümdə səbəbi onda istifadə olunan təhqiqat üslublarıdır.
İslami psixologiya o elmdir ki, onun ontologiya, epistemologiya, antropologiya fərziyyələri İslam dünyagörüşünə əsaslanmış olsun.
İslam psixologiyası üçün nəzərdə tutulan bu altı mənadan ikisi olduqca məşhurdur:
Birincisi budur ki, müsəlmanlar dini qaynaqlarına (Quran və hədis) müraciət edərək, habelə nəqli dəillərə söykənərək İslamı psixologiyanın əsasını qurmuş olsunlar. Bu zaman, İslami psixologiyanın ən mühüm xüsusiyyəti ontologiya, epistemologiya, antropologiya əsaslarına söykənərək meydana gələcəkdir.
İkincisi budur ki, İslami psixolgiya fəlsəfənin nəfsul elm anlayışı ilə eyni məfhum olduğunu və İbn Sina, Faabi, ibn

---

1. Cavadi Amuli, Mərifət güzgüsündə şəriət, səh. 79-82.

Məskəviyyə, Mola Sədra və digər böyük müsəlman filosofların elmi mirazının təkmil olunmuş variantı kimi qəbul edək.[1]

İslami psixologiya üçün nəzərdə tutulan bu ikinci məna olduqca sadə yanaşmadır. Ancaq, birinci mənanın hər nə qədər müsbət yönləri olsa da, bir tərəfdən də üzərində düşünmək gərəkdir. Həqiqətdə isə, İslami psixologiyanın mövcud psixologiya ilə əlaqəsi demək olar ki, görməməzlikdən gəlinib. Buna görə də, İslami psixologiya barəsində yeni bir tərifin irəli sürülməsi lazımdır.

**İslami psixologiya üçün təklif edilən tərif**

İslami psixologiyanı İslami dəyərlər, inanclar, hədəflər və qaynaqlar əsasında fərdin rəftarı və psixi proseslərini araşdıran elm kimi tərif edə bilərik. Bu tərifin ən təkid etdiyi nöqtə, psixologiya qanunlarının və mövzularının İslam dəyərləri, inanclar, hədəflər və qaynaqlar əsasında formalaşması məsələsidir. Bu tərifə əsasən, İslami psixologiyanın yeni formalaşmış bir elm olması, eləcə də onun yalnız İslamın mötəbər qaynaqlarına (Quran və hədis) söykənməsi lazım deyil. Çünki, İslami psixologiyanın belə tərif edilməsini bir növ mənəmçilik, habelə qəbul edilmiş elmi üsulların ziddinə bir tərif kimi qəbul etmək olar. Çünki, hər bir elmin xüsusiyyətlərindən biri də yığcam xatarketli olmasıdır.[2]

Ümumiyyətlə, Psixologiyanın İslami olmasının meyarı bunlardır:

---

1. Kəcbaf, Məhəmməd Baqir, İslam alimlərinin nəzərində elmun əl-nəfs, səh. 34
2. Humen, Heydər Əli, Davranış elmlərində elmi üslubların öyrənilməsi, səh. 22-27.

Nəzəri baxımdan İslam qaynaqları ilə uyğunluq təşkil etməlidir.
Əməli və praktiki cəhətdən İslam cəmiyyətinin ehtiyaclarına uyğun olmalıdır.
Bu tərif, iki mühüm əsaslar üzərində qurulmuşdu:
İslami psixologiya mövcud psixologiya ilə bir çox cəhətdən fərlənirlər. Eyni zamanda da, bir çox cəhətdən müştəqək nöqtələri vardır.
Psixologiya qanunlarının və mövzularının yeni bir quruluşda və İslami dəyərlər və əsaslara uyğun formada ayırd edə bilərik. Refininq prosesi İslamın qəbul etdiyi üsullardan biridir. Bunun nümunələrini İslamın əvvəllərində ərəbin cəhalət dolu cəmiyyətində olan bəzi normalarda və əxlaqi dəyərlərdə görə bilərik. Tarixə əsasən, İslam yeni bir əxlaqi nizam gətirmək əvəzinə, İslamın ruhu ilə uyğunluq təşkil edən mövcud olan əxlaqi dəyərləri, xüsuən qonaqpərvərliyi, mərdliyi, təvazökarlığı qəbul etdi və bəzi unudulmuş əxlaqi dəyərləri yenidən canlandırdı.
Psixologiya mövzuları barəsində də, bu məsələ öz təsdiqini tapmaqdadır. Çünki, biz deyə bilmərik ki, psixoloqların insan və onun davranışı mövzusunda dediklərinin bütün hamısı yalnışdır və onları kənara qoymaq lazımdır. Əksinə, psixoloqların insan barəsində dedikləri kamil deyil və onu İslam dəyərlərlə kamil etmək lazımdır.[1]
Əgər mövcud psixologiya nəzəriyyələrini İslam dəyərlər və əsaslarla uyğunlaşdırıb yeni bir modeldə təqdim edə bilsək, bu modeldən istifadə etməklə İslami psixoogiyanı inkişaf etdirə bilərik.

1. Malik Bədri, Elmun nəfs əl hədis min mənzuril islami, səh. 331-382.

## İslam psixologiyasının mövzusu

İslam psixologiyası xüsusunda irəli sürülən tərifə əsasən deyə bilərik ki, İslam psixologiyanın mövzusunu insanın psixologi davranışları təşkil edir. Buna əsasən də, psixologiyanın mövzusu bütün davranışlara (daxili və xarici, iradəli və iradəsiz) və insan ruhuna və psixologiyasına aid bütün funksiyalara (tanımaq, iradə, hədəf, inkişaf, bədənin idarəsi, sağlamlıq və xəstəlik) aid olacaqdır. Bu tərtiblə, əgər İslam psixologiyasından söhbət açmaq istəsək, ilk öncə davranışın mahiyyəti, davranışlara təsir edən amillər (irs, fitrət, mühit, ehtiyaclar, hədəflər) habelə psixikanın təbiəti, psixikanın funksiyası, psika ilə bədənin rabitəsi, inkişaf mərhələsi (yaşam, idrak, duyğu və mənəviyyat) aləmdən məlumat əldə etməyin üslubları (hisslər, idrak, öyrənmək, təfəkkür, xəyal, intuisiya, mükaşifə), zehni hallar (fikirlər, inanclar, duyğular, meyllər, məqsədlər) davranışın müxtəlif halları (fərdin özü ilə, başqaları ilə, təbiət və Allah ilə rabitəsi) kimi bəhsləri önə sürmək lazımdır. “Bu məsələ göstərir ki, İslam psixologiyası geniş mövzuları özündə ehtiva edir”.[1]

## İslam psixologiyasının hədəfləri

Psixologiyanın hədəfləri kimi təsvir etmək, bəyan etmək, proqnoz və davranışın idarəsi kimi məsələlər irəli sürülməkdədir. Görəsən bu hədəflər İslam psixologiyasında da öz təsdiqini tapır? Bəzi təhqiqatçılar mövcud psixologiya ilə İslam psixologiyası arasında fərqlilikləri nəzərə alaraq, İslam psixologiyası üçün başqa hədəfləri irəli sürmüşlər. Onlar

---

1. Zərriq, Məruf, elmun nəfsil islami, səh. 3-4.

tərbiyə, davranışın korreskiyası, fitrətin önə çəkilməsi, nəfsi paklıq, insanın səadəti və kamalı kimi hədəfləri İslam psixologiyasının hədəfləri olaraq təyin etmişlər.[1]
Lalə Bəxtiyar özünün "Klassik islam psixologiyası" adlı məqaləsində bu nöqtəyə işarə edərək İslam psixologiyasının əxlaq elminə söykəndiyini və İslam əxlaqının hədəflərinin arxasında olduğunu və buna görə də İslam psixologiyasını əxlaq psixologiyası adlandırmağın mümkünlüyünü bildirir.[2]
Bu nəzəriyyəyə əsasən, əxlaqi yönlərə davranışın dəyər amillərinə olaraq təkid edilir. Hər halda, əgər bu hədəfləri nəzərə alsaq, İslam psixologiyası daha çox əxlaq elminə bənzəyəcəkdir.
Başqa bir tərif budur ki, İslam psixologiası psixologiyanın tərkibində olduğu üçün, onun hədəfləri də psixologiyanın hədəflərinə uyğun olacaqdır. Buna əsasən, psixologyanın ilkin hədəfllərini təsvir etmək, bəyan etmək, proqnoz və davranışın idarəsi təşkil edir. Eyni zamanda da, fitrətin önə çəkilməsi, həyatdan razı qalmaq, müvəffəqiyyət və irəliləyiş, sağlamlıq, ruhu sağlamlıq, əxlaqi pozğunluqların qarşısını almaq, nəsfi paklıq, insanların İlahi razılığa qovuşması kimi hədəflər də İslam psixologiyasında yer alır. İslam paklıq (təhzib və təzkiyə), davranışın korreksiyası və kontrolu məfhumu daxilində yer almaqdadır. Buna əsasən də, təsvir etmək, bəyan etmək, proqnoz və davranışın kontrolu kimi məsələləri İslami psixologiyanın hədəfləri kimi nəzərə almaqla, əxlaqi hədəfləri də özündə ehtiva edə bilər.
İslam psixologiyası ilə mövcud psixologiyanın ən ümdə fərqi budur ki, psixologiyanın təsvir etmək, bəyan etmək, proqnoz və davranışın kontrolu kimi hədəflərindən məqsəd, başqalarını nəzarət altında saxlamaq və ya ən azından insanları həyatdan

1.Xəlci Müvəhhid, Səmavi kəlamla psixologi müalicə, səh. 6769.
2. Lalə Bəxtiyar, Klassik islami psixologiya, səh. 183-192.

daha çox ləzzət aparmasını təmin etməkdir. Halbuki, İslam psixologiyası təsvir etmək, bəyan etmək, proqnoz və davranışın kontrolu kimi hədəflər sadəcə insanın varlıq aləminin başlanğıcı ilə əlaqəsini və sonda Allaha yaxınlaşmaq üçün nəzərdə tutulmuşdur.

**İslam psixologiyasının metodikası**

Təhqiqat metodu həqiqətləri araşdırmaq, eləcə də naməlum məlumatları kəşf etmək, problemlərin həll yollarını ələ gətirmək kimi məqsədlərlə istifadə olunan qanunlar, vasitələr və üslublar toplusudur.[1]

Təhqiqat metodları elmi bəhslərin öyrənilməsi üçün qəbul edilmiş ən əsas vasitədir. Təhqiqat metodu o qədər mühüm bir məsələdir ki, elmi nailiyyətlərin mötəbərliyi həmin istifadə olunmuş metodlardan asılıdır. İslami psixologiya barəsində də bu məsələ öz təsdiqini tapmaqdadır.

İslami psixologiyada təhqiqat metodu barəsində bəhsə başlamamışdan öncə, psixologiya mövzusunda dini qaynaqların və mətnlərin hansı tutuma malik olduğunu və İslami psixologiya elmini əldə etməyimiz üçün hansı addımları atmalı olduğumuzu bilməliyik.

İslami qaynaqlar psixologiya mövzusunda ən zəngin qaynaq hesab edilir. Ayələr və hədislərdə nəfsin həqiqəti və mahiyyəti, eləcə də cisim ilə nəfsin əlaqəsi, ruhun ehtiyacları, meylləri, duyğuları barəsində çox sayda mətləblər gözə çarpır. Əxlaq və fəlsəfə alimləri Qurana və hədisə söykənərək psixologiyanın müxtəlif mövzularında dəyərli məlumatlar toplusu ərsəyə gətirdilər. Keçən on illiklərdə həm İranda və həmdə İrandan xaricdə İslami psixologiya mövzusunda olduqca dəyərli

---

1. Mürtəza İzzəti, Sosial elmlərdə təhqiqat üsulları, səh.25.

təhqiqatlar aparılmışdı. Psixologiya elmi nailiyyətlərinin əksəriyyəti İslam qaynaqları və hədəfləri ilə uyğunluq təşkil edir. Buna görə də, İslami psixologiya üçün lazım olan qaynaqlar kifayət qədər mövcuddur. İslami psixologiya elmini əldə etmək üçün isə, bir neçə addım atılmalıdır:

**Yazılı irsin araşdırılması və yenilənməsi**

İslami psixologiya üçün görülməli olan işlərdən biri də, müsəlman alimlərinin əsərlərini araşdırmaq və onların əsər və düşüncələrində yeniliklərə nail olmaqdır. Əxlaq, fəlsəfə, kəlam və irfan elmlərində bir çox mövzular və bəhslər mövcuddur ki, onlardan psixologiya elmindən istifadə etmək mümkündür.

**Psixologiya mövzularının Quran ayələrindən və hədislərdən, o cümlədən orada keçən hekayələrdən əldə edilməsi**

Quran və hədislərdə ruhun ehtiyacları, duyğuları, eləcə də davranışlar, inkişafın mərhələləri və priseslər, şəxsiyyətin yönləri, ruhi sağlamlıq və ailə ilə bağlı bir çox bəhslər keçmişdir. Habelə, Quran hekayələri fərdlərin şəxsiyyəti və davranışları üçün bir növ nümunə rolunu oynamaqdadır. İslami psixologiya nəzəriyyəsinin formalaşmasında bu mövzulardan istifadə etmək yetərincə faydalı ola bilər.

**İmamların (ə) və dini şəxsiyyətlərin davranışlarını araşdırmaq**

İslami psixologiyanın formalaşması üçün atılan üçüncü addım peyğəmbərlərin (ə), İmamların (ə) və dini şəxsiyyətlərin həyat tərzini öyrənmək və araşdırmaqdır. İslami psixologiyanın inkişafı üçün bu kimi mövzuların öyrənilməsi olduqca mühüm və təsirlidir. Bunun bariz nümunələrindən biri də, Maslovun özünü reallaşdırmaq nəzəriyyəsidir. Bu nəzəriyyə özünü

reallaşdıran fərdlərin xüsusiyyətlərini öyrənməklə əldə edilmişdir.

**Müasir psixologiya elminin nailiyyətlərini araşdırmaq və öyrənmək, eləcə də onlardan optimal şəkildə istifadə etmək**

Digər mühüm bir addım, psixologiya elminin əldə etdiyi nailiyyətləri araşdırmaq və öyrənmək və ondan optimal şəkildə istifadə etməkdir. İşarə edildiyi kimi, psixologiya elminin bir çox nailiyyətlərini yeni bir quruluşda, habelə İslam dəyərləri və əsaslara söykənərək formalaşdırmaq mümkündür. Misal üçün, təcrübə, statistika, fizioloji psixologiya, hislər və idrak, irsi əsaslı psixologiyaya aid qanunlar elə bir qanunlardır ki, bütünbunları İslami psixologiyanın bəyanında və inkişafında rahatlıqla istifadə etmək mümkündür.[1]

***Psixologiyanın müxtəlif mövzularında təcrübi təhqiqatların icrası***

Sonrakı addım isə, İslam qaynaqlardan əldə edilmiş mövzular üzərində təcrübu təhqiqatların icrasıdır. İslam psixologiyası sözün əls mənasında təcrübi təhqiqatların aparılmasını tələb edir. Nəzərə alsaq ki, İslam psixologiyasında bəzi mövzular təcrübi təhqiqatların fövqündə dayanır, ancaq bir çox mövzular təcrübi metodlardan istifadə etməklə onları araşdırmaq mümkündür.

---

1. Malik Bədri, Təsviri kitabşünaslıq, səh. 74.

***İslam psixologiyası tədqiqat metodikası növləri***

İslam psixologiyası mövzularının və bəhslərinin çox və geniş olmasından dolayı, çox saylı tədqiqat metodlarına sahibdir. Bu metodlar aşağıdakılardır:

**Tarixi metod**

Tarixi metod daha çox keçmişdə baş vermiş hədisələrin bəyani və təsviri ilə məşğuldur. Başqa sözlə desək, bu metodda elmi mövzu və məsələlər keçmişə aid məlumatların işığı altında öyrənilir. Həqiqətdə isə, təhqiqatçı tarixi metodlardan istifadə etməklə başqalarının müşahidə nəticəsində əldə etdiyi təhqiqatlarının nəticələrindən istifadə etmək məqsədi daşıyır.[1] Tarixi metod bir növ müşahidəni təkmilləşdirən metoddur.

İslam psixologiyasında tarixi metod əsasən İslamda olan psixologiya təfəkkürlərin, habelə müsəlman alimləri tərəfindən həyata keçirilən psixoloji təhqiqatların, Məsumların (ə), alimlərin yaşam tərzinin, müsəlmanların dini təcrübələrinin, ariflərin mənəvi hallarının araşdırılması üçün istifadə edilir. İslami psixologiyanın bir çox mövzularını tarixi məlumatlardan istifadə etməklə təsvir etmək mümkündür. Quranda da tarixi metoda təkid edilməkdədir. Allah təala Quranda keçmiş ümmətlərin hekayələrini bəyan etməkdən əlavə, onların aqibətləri barəsində mütaliə edilməsinə də əmr edir. ***“…Yer üzündə dolaşıb görün ki, (peyğəmbərləri) yalançı hesab edənlərin axırı necə oldu!”.***[2]

Digər ayədə buyurur: ***“Sizdən əvvəl bir çox vaqilər (ibrətli əhvalatlar) olub keçmişdir. İndi yer üzünü dolaşıb haqqı təkzib edənlərin aqibətinin necə olduğunu görün!”.***[3]

---

1. Mustafa Əzkiya, Dərbane Araste, Əlirza, Təhqiqatın əsas metodları, səh. 294.
2. Nəhl, ayə 36.
3.Ali-İmran, ayə 137.

Başqa bir ayədə isə belə buyurur: ***De: “Yer üzünü gəzib-dolaşın, günahkarların axırının necə olduğuna bir baxın!”.***[1] Bir sözlə, hər hansı bir fərdin ondan geridə qalan sənədlər əsasında həyatı, rəftarı araşırılsa, bunun özü tarixi metodun bir nümunəsidir. Fərdlərin həyat tarixçəsini oxumaqla bir çox faydalı mətləblər ələ gətirmək mümkündür.

---

1. Nəml, ayə 69.

**Məzmun təhlili metodu**

Məzmun təhlili metodu adətən yazılı mətnlər (kitab, məqalə, jurnal), habelə şifahi (müsahibələr, hesabatlar) və təsvir (filmlər) üçün keçərlidir.[1]

Məzmun təhlili metodunun tarixçəsi çox qədim zamanlara qayıdır. Merten və Rurmen (1982) hesab edirlər ki, məzmun təhlili metodu qədim Yunanıstanda ilk öncə mətnlərin təhlili üçün, ancaq sonralar yəni on yeddinci əsrdə Tövrat kitabının təhlili və dərki üçün istifadə olunub.[2]

Müsəlmanlar məzmun təhlili metodundan Quran və hədis mətnlərinin təhlili üçün istifadə edilər. İranlılar isə, bütün bunlardan başqa, fars dilli nəzm və nəsr əsərlərinin təhlili üçün istifadə edirlər.[3] Həmçinin, məzmun təhlili metodu dini mətnlərdən pxisologi qanunların dərki üçün də faydalı ola bilər.

Məzmun təhlili metodu mətnlərdə gizlənmiş mesajların dərki üçün də olduqca münasibdir. Buna görə də, mətn elementləri son dərəcə diqqətlə toplanılır və nizama salınır. Bu elementlər isə kəlimə, cümlə, həmçinin hansısa ayəyə və ya hədisə aid təbirlər ola bilər.

İslami psixologiyada məzmun təhlili metodundan istifadə etmək fərziyyələrin və dini qaynaqlarda mövcud olan mələkələrin ələ gətirilməsi, habelə psixologiyada yer alan müxtəlif mövzular barəsində suallara cavab verilməsi kimi məsələlərə kömək ola bilər. Biz deyə bilərik ki, məzmun təhlili metodu İslami psixologiyada ən əsas metodlardan biridir. Çünki, təhqiqatçılar İslami psixologiya zəminəsində təhqiat

---

1. Hafiz Niya, Məhəmməd Rza, Humanitar elmlərdə təhqiqat metodunun müqəddiməsi, səh. 75.
2. Rəfipur, Sosiologiya Elmində xüsusi təhqiqat üsulları, səh. 110.
3. Həmin.

aparmaq istədikdə, ilk növbədə dini mətnləri (ayə, hədis, əxlaq, təfsir, kəlam, fəlsəfə və s. kitablarını) araşdırmalıdır.
Bəzi təhqiqatçılar məzmun təhlili metodu əvəzinə kitabxana metodu, nəqli metod, mənaşünaslıq kimi başqa təbirlərdən istifadə edirlər.
Quran və hədis məzmununun təhlili metodu İslami psixologiyada ən mühüm metodlardan hesab olunur. Bu metodun bu qədər mötəbər olması onun vəhyə qayıtmasına görədir. Misal üçün, Allahı yad etməklə aramlıq arasında olan əlaqə Quranda açıq-aydın ifadə olunubdur.[1] Vəhyi mötəbər bir qaynaq olaraq qəbul edən şəxslərin nəzərində, bu zəminədə heç bir təcrübəyə ehtiyac yoxdur. Hətta əgər bu məsələ təcrübi olaraq araşdırılsa belə, bu təcrübə sadəcə təsdiq üçün olacaqdır. Buna əsasən də, necə ki vəhy təfsir, fiqh və kəlam elmində höccətdir, həmçinin psixologiya elmində də mötəbərdir.

## Deduktiv metod

Bu metodda insan hadisələrdən əldə etdiyi ümumi məlumatlar vasitəsiylə qismi məlumatlar üzərində düşünür. Deduktiv metodda əsas şərt teoremin Müqəddimələrinin doğru olmasıdır. Görünən budur ki, deduktiv metodda ağlın müstəsna rolu vardır. Buna görə də, bəzən bu metod "rasional metod" kimi təqdim edilir. İslam isə, ağlı həqiqətlərin dərki üçün ən mühüm vasitələrdən biri olaraq qəbul edir.[2]

---

1. O kəslər ki, Allaha iman gətirmiş və qəlbləri Allahı zikr etməklə aram tapmışdır. Bilin ki, qəlblər (möminlərin ürəkləri) yalnız Allahı zikr etməklə aram tapar! (Rəd 28)
2. Cavadi Amuli, Dini mərifət güzgüsündə ağlın məqamı

Allah təala Quranda İlahi nişanələrin bəyanından sonra, insanları düşünməyə dəvət edir[1] və həqiqətlərin dərki üçün ağlından istifadə etməyən şəxsləri isə heyvana bənzədir.[2]
Quranda varlıq prinsipi və Allahın təkliyi kimim bəzi məsələlər deduktiv metod vasitəsiylə bəyan olunur. Misal üçün, Allah belə buyurur: ***"Əgər (yerdə və göydə) Allahdan başqa tanrılar olsa idi, onların ikisi də (müvazinətdən çıxıb) fəsada uğrayardı. Ərşin sahibi olan Allah (müşriklərin Ona) aid etdikləri sifətlərdən tamamilə uzaqdır".***[3]
Buna əsasən də, İslami psixologiyada psixologiya məsələləri öyrənmək üçün vəhy və məzmun təhlili metodundan başqa, ağıl və deduktiv metoddan da istifadə edilə bilər.

**İnduktiv üsul**

İnduktiv metodda qismi məlumatlardan istifadə etməklə, eləcə də təcrübə nəticəsində əldə edilən məlumatları toplamaqla və onlar arasında əlaqə yaratmaqla, ümumi nəticələr əldə edilir. Psixologiya təhqiqatlarında nümunə götürmə prinsipi induktiv metoda söykənir. Quranda da, təbiət aləminə aid bir çox nümunələr vardır və onlardan ümumi nəticələrə varmaq üçün istifadə olunur.[4]

---

1. Bəqərə 242, 269. Ali İmran 190.
2. Ənfal, ayə 22.
4. Ənbiya, ayə 22
4. Rəhman sürəsi 13, 16, 25.

## Müsahibə və sorğu metodu

Necəki psixologiya elmində müsahibədən, sual-cavabdan, sorğudan istifadə olunur, eləcə də dini təlimlərdə, məktublardan, əsərlərdən, verbal nitqdən istifadə olunur. Həzrət Əli (ə) buyurur: ***"Hər bir insanın nəzəri, onun ağlı miqdarındadır".***[1] Başqa bir hədisdə buyurur: ***"İnsanın ağlı onun danışığı qədərdir".***[2]

Bütün bunlara əsasən, fərdlərin rəftar, əqidə və nəzərlərini araşdırmaq üçün istifadə edilən metodlardan biri də, müsahibə və sorğu metodudur. Sorğu nə qədər nizamlı və dəqiq olsa, əldə edilən nəcitələr də bir o qədər dəqiq olar.

## İntuisiya və mukaşifə metodu

Adətən psixologiya elmi hissi və əqli metodlar ilə məhdudlaşsa da, İslam təlimlərinə əsasən, varıq aləmini dərk etmək üçün intuisiya (şühud) və mükaşifə metodlarından da istifadə edilir. İntuisiya və mükaşifə bir növ şəxsi təəssürat, daxili eldə etmələr hesab olunur. Bunlar isə, məntiqli yllarla və dəlillərlə isbat olunmur.

İslam təlimlərində intuisiya və mükaşifə, həqiqətləri əldə etmək üçün istifadə olunan bir metod kimi təqdim edilir. Misal üçün, Əbu Bəsir İmam Sadiqə (ə) deyir: Bu il hacıların sayı və onların nalə və fəryadı necə də çoxdur. Həzrət (ə) buyurur: Əksinə, bu il hacı və onların nələsi çox azdır. İstəyirsənmi ki, sənə dediyimi öz gözünlə görəsən? İmam (ə) əlini Əbu Bəsirin gözlərinə çəkərək dua oxudu və dedi: İndi hacılara bax! Əbu Bəsir dedi: İnsanlara baxanda əksəriyyətini donuz və meymun

---

1 Amədi, Ğurərul hikəm, hədis 5422.
2 Həmin, hədis 10957.

sürətində gördüm. Halbuki, aralarında mömin olanları çox az idi. Əbu Bəsir deyir: Doğru buyurdunuz, ey mənim mövlam! Nalə və fəryad çox olsa da hacı həqiqətən də azdır.
İntuisiya metodu Allahın feyzinə də şamil olur. İslam qaynaqlarında Allahın feyzi insanın Allaha olan imanı nəticəsində əldə edilən bir növ nurdur. Allah Quranda bu barədə belə buyurur: ***“Ey iman gətirənlər! Əgər Allahdan qorxsanız, O sizə haqla-nahaqı ayırd edən (bir nur) verər (dünyada və axirətdə çıxış yolu göstərər)”.***[1]

## İntrospeksiya metodu

İslam psixologiyasında istifadə edilən mmetodlardan biri də, introspeksiya metodudur. Bu metod da, intuisiya metodu kimi bir növ daxili qavrayış hesab olunur. Quran və hədislərdə Allahın insana əta etdiyi xüsusiyyətlər, qabiliyyətlər və imkanlar barəədə təfəkkür edilməsi tövsiyə edilir. Allah təala buyurur: ***“Sizin özünüz də (sizi yaradanın birliyini sübut edən) əlamətlər vardır. Məgər görmürsünüz?”.***[2]
İntrospeksiya metodunun əhəmiyyəti budur ki, insan özünü digərlərindən daha yaxşı tanıyır. ***“Doğrusu, insan özü-özünə şahiddir!”.***[3] Başqa bir ayədə belə buyurur: ***“Onun (Quranın) haqq olduğu onlara (müşriklərə) bəlli olsun deyə, Biz öz qüdrət nişanələrimizi onlara həm xarici aləmdə (üfüqlərdə, kainatda, göylərin və yerin ətrafında), həm də onların öz daxilində mütləq göstərəcəyik”.***[4]
İntuisiya və introspeksiya metodunun ən mühüm xüsusiyyəti xətaya düçar ola bilməsidir. Buna görə də, bu metoda elmi

1 Ənfal, ayə 29.
[2] Zariyat, ayə 21.
3 Qiyamət, ayə 14.
4 Fussilət, ayə 53.

təhqiqatlarda çox önəm verilmiş və bu metod nəticəsində eldə edilən məlumatlara həqiqi elm deyilmişdir.[1]

**Müşahidə metodu**

Müşahidə metodu İslam psixologiyasının istifadə etdiyi metodlardan biridir. Müşahidənin müxtəlif növləri vardır və onlardan ən sadə və ən çox istifadə olunan təbii müşahidədir. Allah təala Quranda müşahidəni əql kimi elmi ələ gətirmək yollarından biri kimi təqdim edir[2] və varlıq aləmini dərk etmək üçün ondan istifadə etməyə əmr edir.[3] ***“Məgər dəvəyə baxmırlar ki, necə yaradılmışdır? Göyə (baxmırlar ki) necə ucaldılmışdır? Dağlara (baxmırlar ki) necə dikəldilmişdir? Və yerə (baxmırlar ki) necə döşədilmişdir?”.***[4]

Bu ayədə və digər ayələrdə gələn “nəzər” kəliməsi adətən müşahidə üçün istifadə edilir. Misal üçün, Yunis surəsinin 11-ci ayəsində Allah təala belə buyurur: ***“De: “Bir gör göylərdə və yerdə (Allahın birliyini və qüdrətini sübut edən) nələr var. Lakin iman gətirməyən bir tayfaya ayələr və (Allahın əzabı ilə qorxudan) peyğəmbərlər heç bir fayda verməz!”.***[5]

Həmçinin, Qurani kərim keçmiş qövmləri və xalqları müşahidə edib onlarda ibrət almağa dəvət edir: ***“Məgər onlar yer üzünü gəzib özlərindən əvvəlkilərin aqibətinin necə***

1 Misbah Yəzdi, Psixologiya, səh. 32-33.

2 Allah sizi analarınızın bətnlərindən heç bir şey bilmədiyiniz (dərk etmədiyiniz) halda çıxartdı. Sonra sizə qulaq, göz və qəlb verdi ki, (Allahın əmrlərini eşidib, qüdrətini və əzəmətini görüb, vəhdaniyyətini duyub) şükür edəsiniz! (Nəhl 78)

3 (Ey insan!) Bilmədiyin bir şeyin ardınca getmə (bacarmadığın bir işi görmə, bilmədiyin bir sözü də demə). Çünki qulaq, göz və ürək bunların hamısı (sahibinin etdiyi əməl, dediyi söz barəsində) sorğu-sual olunacaqdır. (İsra 36).

4 Ğaşiyə, ayə 17-28.

5 Yunus, ayə 101.

***olduğunu görmürlərmi? Onlar (Ad, Səmud tayfaları) bunlardan daha qüvvətli idilər. Onlar (əkinçilik məqsədilə) torpağı qazıb altını üstünə çevirmiş və yer üzünü bunlardan daha çox abad etmişdilər. Peyğəmbərləri onlara açıq-aşkar möcüzələr gətirmişdilər. Allah onlara zülm etmirdi, onlar özləri özlərinə zülm edirdilər".***[1]

Müşahidə metodunun effektivliyini nəzərə alaraq ondan başqalarının rəftarını öyrənmək üçün istifadə etmək olar. Həzrət Əli (ə) buyurur: ***Rəftarın keyfiyyəti ağlın kəmiyyətindən xəbər verir.***[2]

Bəzi rəvayətlər insanların müsibət, qocalıq, işsizlik, kasıblıq, var-dövlətli olmaq kimi vəziyyətlərə düşdüyü zaman necə rəftar etdiyini müəyyənləşdirməyə dəvət edir.

Buna görə də, rəftar insanı tnımağın yollarından biridir.

Unutmamaq lazımdır ki, iki amil vardır ki, müşahidə metodunu məhdudlaşdırır. Birinci amil, bu metodda öyrənilən mövzuların özünün müşahidə edilə bilinməsidir. Müşahidə metodu yalnız obyektiv mövzularda istifadə edilir. Quran və hədisdə də müşahidə metodunun yalnız obyektiv mövzularda istifadə edildiyini görürük. İkinci amil isə budur ki, müşahidə metodunun ümumi ümumi qaydalari əldə etmək üçün həmişə ağıla ehtiyacı vardır.

Ümumi olaraq, İslam psixologiyası təcrübi psixoogiya ilə fərqi bundadır ki, İslami psixologiya məlumat əldə etmə mənbələrini sadəcə təcrübə və ya ağıl ilə məhdudlaşdırmamış, vəhy kimi mənbələri də mühüm mənbə kim təqdim etmişdir.

---

1 Rum, ayə 9.

2 Təmimi Amədi, Ğürərul-hikəm, səh. 153.

## Təcrübə və sınaq metodları

İslam psixologiyasında təcrübə və sınaq metodundan da istifadə edilir. Təcrübə və sınaq səbəb olur ki, fərdlər elmi nəticələr arasında hökm daha dəqiq hökm çıxara bilsin. Həzrət Əli (ə) buyurur: ***“İşin dəyəri təcrübə ilə ölçülür”.***[1] Sınaq da mühüm bir məsələdir. Bu barədə Həzrət Əli (ə buyurur: ***“Bir işi sınaqdan keçirməmiş, o işi görmə!”.***[2]

Təcrübə, elmi nəticələr barəsində doğru qərar vermək və onlar arasında doğöru hökm çıxarmaq üçün mühüm bir vasitədir. ***“Təcrübənin səmərəsi yaxşı seçimdir”.***[3]

Hər kəsin təcrübəsi çox olsa, daha az aldanar və hər kəsin təcrübəsi az olsa, daha çox xəta edər. Təcrübə metodu İslam psixologiyasının inkişafı üçün mühüm rol oynaya bilər. Quranda təcrübə metodu öz təsdiqini tapmış bir metoddur. Necəki, Allah təala buyurur: ***“(Ya Rəsulum!) Xatırla ki, İbrahim: “Ey Rəbbim, ölüləri nə cür diriltdiyini mənə göstər!” – dedikdə (Allah) : “Məgər (ölüləri diriltməyimə) inanmırsan?” –buyurmuşdu. (İbrahim:)“Bəli, inanıram, lakin ürəyim sakit (xatircəm) olmaq üçün (soruşdum)”, -deyə cavab vermişdi. (Bu zaman Allah ona) buyurmuşdu: “Dörd cür (cins) quş götürüb (səhv salmamaq üçün) onlara diqqətlə bax, (onları parçalayaraq bir-birinə qatandan) sonra hər dağın başına onlardan bir parça at, sonra onları çağır, tez yanına gələcəklər. Bil ki, Allah yenilməz qüvvət, hikmət sahibidir!”.***[4]

---

1- Həmin. səh. 444
2- Həmin.
3- Həmin, səh. 416
4- Bəqərə, ayə 260

## Nəticə

Son onilliklərdə təhqiqatçılar qərb mədəniyyəti üzərində qurulmuş hazırki psixologiyanı təndiq edərək psixologiyanın mövzularına mədəni yanaşmanın zəruriliyini vurğulayıblar. Hazırda, psixologiyada fərdlərin mədəni xüsusiyyətləri əsasında formalaşmış bir çox nümunələr vardır. Müsəlmanlar da, mədəni şəraitləri və ehtiyaclarına uyğun bir psixologiya modelinə ehtiyaclıdırlar. İranda humanitar elmlər, o cümlədən psixologiya elmi İslam İnqilabının əvvəllərindən irəli sürülmüş və bu məsələ son illərdə mühüm hədəflərdən birinə çevrilmişdir.

Dini elmlər və psixologiya elmi barəsində müxtəlif təriflər irəli sürülmüşdür. Müəllifin nəzərincə, İslam psixologiyasını qanunların İslam dəyərlərinə, inanclarına münasib şəkildə tənzim edilmiş psixi fəaliyyət və rəftarlar qanunlarını öyrənən elm kimi tərif etmək olar. Buna əsasən də, İslam psixologiyasının mövzusu davranış qaydaları və pxisi fəaliyyətləri əhatə edir.

İslam psixologiyası ümumi hədəflər cəhətindən eyniylə təcrübi psixologiya kimidir. Ancaq, elmi və praktiki hədəflərdə bir-birindən fərqlənir. İslam psixologiyasında istifadə edilən metodlar bulardır: Tarixi metod, məzmun təhlili metodu, deduktiv metod, induktiv metod, müsahibə və sorğu metodu, intuisiya və mükaşifə metodu, introspeksiya metodu, müşahidə, təcrübə və sınaq metodu.

Bu fəsldə, İslam psixologiyası ilə digər elmlərin əlaqəsi barəsində bəhs edildi. İslam psixologiyasının bütün humanitar elmlərlə əlaqəsi vardır. Ancaq, onun əxlaq, fəlsəfə, irfan və təhsil elmləri ilə əlaqəsi daha çoxdur.

## İstifadə olunan ədəbiyyat

1. Qurani Kərim.
2. Bəhrami, Hadi, Bərnameyi nəqd və nəzər, Radio Maaref, 2006.
3. Fist Jess and Fist Gregory J, Nəzəryəhaye şəxsiyyət, Tərcümə: Yəhya seid məhəmmədi, Rəvan, 2007.
4. Claxton, G. (1990). Meditation in buddhist psychology. In M. A. West (Ed.), The psychology of meditation. Oxford: Clarendon Press.
5. Məhəmməd İzzəddin Tovfiq, Ət-t`əsili əlislami liddirasati ən-nəfsiə, Qahirə, Dar əl-Salam Mətbuatı, 1998.
6. Yadnamei ustad Şəhid Murtəza Mütəhhəri, İslam İnqilabı Nəşriyyat və Təhsil Təşkilatı, 1981.
7. Cavadi Amoli, Abdullah, Təfsiri insan be insan, Qum, Esra', 2006.
8. Kəcbaf, Məhəmməd Baqir, Elmun-nəfs əz didigahı danişməndane islamı (rəvanşinasi islamı), Rəvan Nəşriyyatı, 2009.
9. Homen, Heydər Əli, Şinaxtı reveşh elmi dər ulumi rəftari, Samat Nəşirləri, 2007.
10. Malik Bədri, Elmun-nəfsul hədis min mənzuri islamı, [əlmənhəciyyətil ilslamiyyə vəl ulum əs-sulukiyyəti və əttərbəviyyə] Virciniya, İslam Düşüncəsinin Dünya Beyəti, 1412.
11. Xəlici Movahhed, Amanullah, Rəvandərmani ba kəlami asimani, Həmədan, Əndişe şəhəri, 2000.
12. Bəxtiyar, Lalə, Rəvanşinasiye islamiye Klassik, elmunnəfs əz diydgahi danişməndani İslami, Tərcümə: Mehdi Gənci, Savalan Nəşrləri, 2011.

13. Yadnamei ustad Şəhid Murtəza Mütəhhəri, İslam İnqilabı Nəşriyyat və Təhsil Təşkilatı, 1981.
14. Bədri, Malik, Elmun-nəfsul-əlhədis min mənzuri əlmənhəciyyəti əlislamiyyə və əlulumi əssulukiyyə və əttərbəviyyə, Tayyib Zeynud-Dinin səyləri ilə Virciniya, İslam Düşüncəsinin Beynəlxalq Beyəti, 1412.
15. Mustafavi, Həsən, Əttəhqiq fi kəlimati Qurani-Kərim, Tehran, Əllamə Mustafavi nəşriyyat mərkəzi, 2006.
16. Hafeznia, Mohammad Reza, Müqəddimei bər revişi təhqiq dər ulumi insani, Samat Nəşriyyatı, 2010.
17. Rafipour, Faramarz, Teknikhaye xassi təhqiq dər ulumi ictimai, Şirkəti səhami intişar, 2003.
18. Təmimi Amadi, Abdul Vahid, Tasnifi Ğurəl əl-Hikəm, Məşhəd, Əl-Cavad qurum, Qum, Daftari Tabliğati İslami 2001.
19. Diydigahhaye rəvanşinaxti Ayətullah Misbah Yəzdi, İmam Xomeyni Təhsil və Araşdırma İnstitutu Nəşrləri, 2006.
20. Pedersen. P.B. (1999). Multiculturalism as a Fouth Force. Philadelphia, PA: Brunner/Mazel.